# 31 DEKABR DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 288 (9455) 31 DEKABR 2023-cü il BAZAR

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR






## Heydər Əliyev erası davam edir

Bu gün müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin qoyduğu möhkəm təməl üzərində inkişaf edərək gündən-günə ucalır. Bunu bütün sahələrdə əyani görmək mümkündür. O cümlədən iqtisadi sahələrdə də. Hər yerdə Ulu Öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə tikilən-qurulan yaşayış binalarına, müəssisələrə, səhiyyə, təhsil, mədəniyyət obyektlərinə rast gəlirik. Sovet dönəmində, bir zavodun, fabrikin inşası üçün də Moskvanın icazə "qolu"nun mütləq olduğu zamanda Heydər Əliyev respublikamızda onlarca möhtəşəm sənaye müəssisəsi tikdirdi. Bu, həmin vaxt yalnız Ulu Öndərin səyi, mübarizəsi və siyasi nüfuzu sayəsində mümkün olmuşdu. Azərbaycanın müstəqilliyi dövründə bu işlər nəhəng layihələrlə davam etdirildi. Ən başlıcası həm də odur ki, bunların hamısı sabaha, gələcəyə hesablanmışdı və biz indi onların bəhrəsini görürük.

→ 5



## Zəfər həmrəyliyi

"...Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"

İllər öncə Ulu Öndər Heydər Əliyevin qürur, fəxr hissi ilə dilə gətirdiyi və Yer üzündəki azərbaycanlıların dillər əzbərinə çevrilən bu sözlər həm də millətimizin, dövlətimizin parlaq gələcəyinin yol xəritəsini cızan milli parol oldu.

"Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır", - deyə Dünya Azərbaycanlılarının I Qurultayında da Ulu Öndər Heydər Əliyev vurğulamışdı ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik.

→ 4

## Prezidentin paylaşımı




## Birinci vitse-prezidentin paylaşımı




### ◆ Mərkəzi Seçki Komissiyasında

## Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ilk namizədi qeydə alıb

Dekabrın 30-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, iclasda İlham Heydər oğlu Əliyevin Azərbaycan Respublikası prezidentliyinə Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş namizədliyinin qeydə alınması məsələsinə baxılıb.

Diqqətə çatdırılıb ki, 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2023-cü il dekabrın 26-da partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün MSK-ya təqdim edilib. MSK bununla əlaqədar Seçki Məcəlləsində nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb və namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən edib.

Sözügedən proseslərin gedişi barədə ətraflı məlumat verildikdən və aparılan müzakirələrdən sonra komissiya üzvlərinin yekdil qərarı ilə namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyev 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizəd kimi qeydə alınıb.

→ 9

QƏRAR № 13/59

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyevin namizəd kimi qeydə alınması haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Heydər oğlu Əliyevin namizədliyinin irəli sürülməsi Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) 2023-cü il 19 dekabr tarixli 9/23 saylı Qərarı ilə təsdiq edilmişdir.

Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri və onlara əlavə edilməli olan sənədlər 2023-cü il dekabrın 26-da partiyanın səlahiyyətli nümayəndəsi tərəfindən namizədin qeydə alınması üçün Mərkəzi Seçki Komissiyasına təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, namizədin qeydə alınması üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 54-cü, 58-ci, 59-cu, 60-cı, 181-ci və 182-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi Yeni Azərbaycan Partiyası tərəfindən irəli sürülmüş İlham Heydər oğlu Əliyev namizəd kimi qeydə alınsın.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

| | |
|---|---|
| **Sədr** | Məzahir Pənahov |
| **Katib** | Arifə Muxtarova |
| **Katib** | Mikayıl Rəhimov |

*30.12.2023*



# Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü ilin yanvar ayında görkəmli ictimai-siyasi xadim, Azərbaycan Xalq Cümhuriyyətinin banilərindən biri, Azərbaycan Milli Şurasının sədri Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140 illiyi tamam olur.

Məhəmməd Əmin Rəsulzadə XX əsrin ilk onilliklərində böhranlı geosiyasi şəraitdə Azərbaycanda müstəqillik idealının gerçəkləşdirilməsi və milli dövlət quruluşunun dirçəldilməsi yolunda böyük xidmətlər göstərmiş şəxsiyyətlərdəndir. Onun istiqlal məfkurəsi öz mənbəyini doğma xalqının çoxəsrlik yaddaşında kök salmış milli azadlıq düşüncəsindən alırdı. Məhəmməd Əmin Rəsulzadənin dövrün salnaməsinə çevrilən parlaq publisistik, siyasi, ədəbi-tənqidi və elmi irsi Azərbaycanın ictimai fikir tarixində xüsusi yer tutur. Uzun illər ərzində mühacirətdə də o, müstəqil Azərbaycan arzusu ilə yaşamış və mübarizə aparmışdır.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, görkəmli ictimai-siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin anadan olmasının 140-cı ildönümünün qeyd olunmasını təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Məhəmməd Əmin Rəsulzadənin 140 illiyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

# "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2023-cü il noyabrın 20-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə İraq Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 dekabr 2023-cü il*

# Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur.

Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri - Eldəgizlər dövlətinin paytaxtı olmuş, islam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlərboyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.

Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir. 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar.

Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.

Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika "yaşıl enerji" zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi geniş qeyd olunsun.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tədbirlər planının hazırlanmasını və həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

# S.E.Alıyevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə görə Sahib Eyvaz oğlu Alıyev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

# "Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası"nın və "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı"nın təsdiq edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, "Qida təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 5 may tarixli 523-VIQ nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2000-ci il 26 yanvar tarixli 267 nömrəli, "Yeyinti məhsulları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi ilə bağlı əlavə tədbirlər barədə" 2003-cü il 23 oktyabr tarixli 969 nömrəli fərmanlarının ləğv edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 24 iyun tarixli 1723 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə **qərara alıram:**

1. "Qida zənciri obyektlərinin və qida zənciri subyektlərinin, habelə qida məhsulları ilə təmasda olan material və məmulatların istehsalını və emalını həyata keçirən obyektlərin qeydiyyatı, qida zənciri obyektlərinin təsdiqi, xarici ölkələrin təsdiq sisteminin ekvivalentliyinin tanınması və Qida Təhlükəsizliyi Reyestrinin aparılması Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

2. "Qida təhlükəsizliyi sahəsində texniki normativ hüquqi aktların tələblərinə uyğunluğu qiymətləndirilməklə təsdiq olunan qida zənciri obyektlərinin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

*Fərmana edilmiş əlavə ilə www.azerbaijan-news.az saytında tanış ola bilərsiniz.*

# Azərbaycan-İran dövlət sərhədində Astaraçay üzərində avtomobil körpüsünün və modul tipli buraxılış məntəqəsinin açılışı olub



Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında 2021-ci ildə imzalanmış "Azərbaycan Respublikası və İran İslam Respublikası dövlət sərhədindən "Astara" (Azərbaycan Respublikası) - "Astara" (İran İslam Respublikası) dövlət sərhəd-keçid buraxılış məntəqələri ərazisində Astaraçay çayı üzərində avtomobil körpüsünün və piyada keçidinin tikintisi haqqında Anlaşma Memorandumu"na əsasən inşa olunan körpünün və modul tipli sərhəd-buraxılış məntəqəsinin dekabrın 30-da açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirdə Azərbaycan Respublikası Baş nazirinin müavini, Azərbaycanla İran arasında iqtisadi, ticarət və humanitar sahələrdə əməkdaşlıq üzrə Dövlət Komissiyasının həmsədri Şahin Mustafayev və İran İslam Respublikasının yol və şəhərsalma naziri, komissiyanın İran tərəfdən həmsədri Mehrdad Bəzrpaş iştirak ediblər.



Qeyd edək ki, körpünün tikintisi 2022-ci il martın 1-də başlayıb. Yük nəqliyyat vasitələri üçün nəzərdə tutulan körpünün ümumi uzunluğu 97,5 metr təşkil edir. Körpüdə dörd hərəkət zolağı mövcuddur. Körpü üzərində hər birinin eni 2,5 metr olan iki piyada yolu da inşa edilib.

Modul tipli dövlət sərhədindən buraxılış məntəqəsinin tikinti-quraşdırma işləri cari il avqustun 28-də başlayıb və dekabrın 1-də yekunlaşdırılıb. Sahəsi 4500 kvadratmetr olan buraxılış məntəqəsində gömrük prosedurlarının səmərəli formada tətbiq olunması, sürətli keçidin təmin edilməsi məqsədilə müvafiq şərait yaradılıb.

Son texnoloji imkanlara malik yeni avadanlıqla təchiz olunan yeni məntəqədən idxal və ixrac istiqamətlərində sutkalıq 250-300 yük nəqliyyat vasitəsinin, ümumilikdə isə 500-600 yük nəqliyyat vasitəsinin qəbul edilməsi nəzərdə tutulub.

Şimal-Cənub Nəqliyyat Dəhlizinin mühüm komponentləri olan körpünün və buraxılış məntəqəsinin istifadəyə verilməsi dəhliz üzrə daşımaların həcminin artırılması baxımından böyük əhəmiyyət daşıyır. Qeyd edək ki, cari ildə dəhlizlə yük daşımaları 44,5 faiz artıb.

Eyni zamanda cari ilin 11 ayında Azərbaycanla İran arasında ikitərəfli yük daşımalarının həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 46 faiz, o cümlədən tranzit daşımaları 2,1 dəfə çox olub. Yeni körpünün və buraxılış məntəqəsinin açılışı iki ölkə arasında yük daşımalarının həcminin daha da artırılmasına töhfə verəcək.

Dövlət sərhədində yol və gömrük-sərhəd infrastrukturunun yaradılması, eyni zamanda nəqliyyat vasitələrinin Astara şəhərinə daxil olmadan yollarına davam etmələrinə şərait yaradacaq ki, bu da öz növbəsində şəhərdaxili nəqliyyat axınının səmərəliliyinin artırılmasına müsbət təsir edəcək.

Eyni zamanda dövlət sərhədindən buraxılış məntəqəsinin ikinci fazada genişləndirilməsi məqsədilə müvafiq işlərə başlanılıb. Genişləndirilmə işlərindən sonra dövlət sərhədindən buraxılış məntəqəsi 7 gediş və 7 gəliş xətləri üzrə gündəlik olaraq 500 giriş və 500 çıxış olmaqla, ən azı 1000 yük nəqliyyat vasitəsini qəbul edə biləcək.

# *Hikmət HACIYEV:* "Azərbaycan Ermənistanla sülh müqaviləsi üçün ciddi maneə görmür"

"Azərbaycan Ermənistanla sülh müqaviləsi üçün ciddi maneə görmür".



Trend xəbər verir ki, bunu Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "TRT World" telekanalına müsahibəsində deyib. H.Hacıyevin sözlərinə görə, hazırda Azərbaycan və Ermənistan arasında diplomatik səviyyədə danışıqlar aparılır.

"Biz iki ölkə arasında sülh müqaviləsinin bağlanması üçün ciddi maneə görmürük. Konkret tarixlər barədə danışmaq bir az çətindir, çünki prosesi başa çatdırmaq üçün Azərbaycan və Ermənistan arasında hələ də əlavə danışıqlara ehtiyac var", - deyə o bildirib.

# Ceyhun Bayramov Fransa tərəfindən "persona non grata" elan edilmiş səfirlik əməkdaşları ilə görüşüb

Dekabrın 30-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Fransa Respublikası tərəfindən dekabrın 27-də heç bir əsas olmadan "persona non grata" elan edilmiş Fransadakı səfirliyimizin əməkdaşları ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov səfirlik əməkdaşlarına göstərdikləri səmərəli diplomatik xidmətə görə təşəkkür edib.

Fransa tərəfindən atılan bu əsassız addımın sözügedən ölkə tərəfindən Azərbaycan və Fransa arasında mövcud ikitərəfli münasibətlərə vurulan növbəti zərbə olduğu bildirilib.

İkitərəfli münasibətlərdə hökm sürən gərginliyin səbəbkarının ölkəmizə qarşı qərəzli mövqe nümayiş etdirərək əsassız addımlar atan Fransa tərəfinin olduğu qeyd edilib.

Nazir Ceyhun Bayramov səfirlik əməkdaşlarına bundan sonrakı diplomatik fəaliyyətlərində uğurlar arzulayıb.

# Azərbaycan-Yaponiya ikitərəfli əməkdaşlıq gündəliyi və perspektivləri müzakirə edilib

Dekabrın 30-da Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Yaponiyanın ölkəmizə yeni təyin olunmuş səfiri Katsuya Vatanabe ilə görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı səfir Katsuya Vatanabe etimadnaməsinin surətini nazir Ceyhun Bayramova təqdim edib.

Görüşdə iki ölkə arasında ikitərəfli əməkdaşlıq gündəliyi və perspektivləri, eləcə də regional vəziyyət müzakirə olunub.

Azərbaycanla Yaponiya arasında bir sıra istiqamətlərdə tarixi dostluq və əməkdaşlıq münasibətlərinin əhəmiyyəti və qarşılıqlı maraqlar çərçivəsində ikitərəfli münasibətlərin inkişafının vacibliyi qeyd olunub. Bu çərçivədə yüksəksəviyyəli ikitərəfli səfərlərin, siyasi məsləhətləşmələrin, iqtisadi komissiyanın işinin intensivləşməsinin əhəmiyyəti qeyd olunub. İki ölkə arasında "yaşıl enerji", nəqliyyat və logistika, yüksək texnologiyalar, təhsil və digər sahələrdə geniş əməkdaşlıq imkanlarının olduğu vurğulanıb.

Görüş zamanı qarşı tərəfə Ermənistanın ölkəmizə qarşı təcavüzünün, qaçqın və məcburi köçkün probleminin, keçmiş münaqişənin tarixçəsi barədə ətraflı məlumat verilib. Ərazi bütövlüyümüzün və suverenliyimizin bərpası ilə nəticələnmiş 44 günlük Vətən müharibəsini və 24 saatdan az bir müddətə həyata keçirilmiş antiterror tədbirlərini şərtləndirən amillər diqqətə çatdırılıb. Azərbaycanın Ermənistanla sülh prosesinin təşəbbüskarı kimi bölgədə sülhün və sabitliyin bərqərar edilməsində maraqlı tərəf olduğu bildirilib.

Nazir səfirə ölkəmizdə fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə habelə qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Parlamentin payız sessiyası başa çatdı



Dekabrın 30-da parlamentin spikeri Sahibə Qafarovanın Sədrliyi ilə Milli Məclisin payız sessiyasında son iclası keçirilib.

İclasda əvvəlcə cari məsələlər müzakirə olunub. Müzakirələr zamanı çıxış edən komitə sədri Fazil Mustafa, deputatlar Etibar Əliyev, Elman Nəsirov, Bəhruz Məhərrəmov, Musa Qasımlı, Sahib Alıyev, Sədaqət Vəliyeva, Jalə Əhmədova, Pərvin Kərimzadə, Razi Nurullayev ölkə rəhbərliyini və xalqımızı qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni təqvim ili münasibətilə təbrik ediblər, bir sıra aktual məsələlərə toxunublar.

Bildirilib ki, Azərbaycan Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə "Heydər Əliyev İli" elan edilmiş 2023-cü il dövlətimizin və xalqımızın tarixində əhəmiyyətli hadisələrlə zəngin və uğurlu il olub. Bu il çərçivəsində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar ölkəmizdə və onun hüdudlarından kənarda silsilə tədbirlər keçirilərək Ümummilli Liderin dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətlərindən bəhs edilib. Cari ilin sentyabr ayında keçirilən lokal xarakterli antiterror tədbirləri nəticəsində Dövlət bayrağımız bütün ərazilərimizdə dalğalandırıldı, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpası təmin edildi. Noyabrın 8-də Xankəndidə keçirilən hərbi parad bu ilin önəmli hadisələrindən biri oldu.

Qeyd olunub ki, Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin bağlanması istiqamətində addımlar atılıb. İşğaldan azad olunmuş ərazilərdə Böyük qayıdış üçün zəruri tədbirlər görülüb. Siyasi islahatların dərinləşməsi ilə demokratik quruluşa və vətəndaş cəmiyyətinin bərqərar edilməsinə təminat verilib. Dövlətimizin beynəlxalq mövqeləri güclənib. Beləliklə, "Heydər Əliyev İli"ndə Ulu Öndərin bütün hədəfləri reallaşıb.

Deputatlar öz çıxışlarında bunların mümkün olmasının ölkədə həyata keçirilən milli maraqlara əsaslanan, müasir qlobal çağırışlara cavab verən uğurlu strateji kursun məntiqi nəticəsi olduğunu vurğulayıblar. Onlar 2024-cü il fevralın 7-də keçiriləcək növbədənkənar prezident seçkilərini dövlətçilik tariximizdə yeni inkişaf mərhələsinə keçid kimi dəyərləndiriblər.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasın gündəliyinə 7 məsələ daxil edilib. İlk olaraq "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol"un təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsi müzakirəyə təqdim olunub. Layihə barədə məlumat verən Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov son 30 ildə Ermənistan tərəfindən xalqımıza qarşı sistemli şəkildə aparılan terror siyasətindən, o cümlədən müharibə cinayətləri, soyqırımı, etnik təmizləmə, mənəvi terror, Vətən müharibəsi zamanı mülki əhalimizə qarşı törədilən cinayətlər, ekosid, mina terroru barədə danışıb.

Komitə sədri "Avropa Şurasının "Terrorçuluğun qarşısının alınması haqqında" Konvensiyasına Əlavə Protokol"un təsdiq edilməsi haqqında" qanun layihəsi ilə bağlı məlumatında onun terrorçuluqla mübarizə sahəsində mühüm sənəd olduğunu bildirib. Diqqətə çatdırılıb ki, Əlavə Protokolun əsas məqsədi 2, 3, 4, 5 və 6-cı maddələrdə təsbit olunan əməllərə görə cinayət məsuliyyətini müəyyənləşdirməkdən və bununla da terrorçuluğun, onun mənfi təsirlərinin qarşısının alınmasına yönəlmiş səyləri artırmaqdan ibarətdir.

Qeyd edilib ki, sənəddə terrorçuluq məqsədilə birlik və qrupda iştirak etmənin, terrorla bağlı təlimlərin keçirilməsinin, terrorçuluq məqsədilə ölkə xaricinə səfər etmənin, belə səfərlərin maliyyələşdirilməsinin, bu səfərlərin təşkilinin izahı verilir. Tərəflərin bu məsələlərlə bağlı zəruri tədbirlər görmək öhdəliyi müəyyən edilir.

Diqqətə çatdırılıb ki, Azərbaycan Əlavə Protokolu müvafiq bəyanatlarla təsdiq edir. Belə ki, Azərbaycan Respublikası Əlavə Protokolun 7-ci maddəsinə müvafiq olaraq, terrorçuluq məqsədilə ölkə xaricinə səfər edən şəxslər haqqında məlumatların mübadiləsi üçün əlaqə məntəqəsi qismində Dövlət Təhlükəsizlik Xidmətini təyin edir. Bu Əlavə Protokolun müddəaları münaqişənin nəticələri tamamilə aradan qaldırılana və Ermənistanla Azərbaycan arasında münasibətlər normallaşana qədər Azərbaycan tərəfindən Ermənistana münasibətdə tətbiq edilməyəcək. Əlavə Protokolun Azərbaycanın milli və dövlət maraqlarına uyğun olduğu bildirilib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov sənədin vacibliyini vurğulayıb və rəhbərlik etdiyi komitənin məsələyə müsbət rəyini diqqətə çatdırıb.

Parlamentin komitə sədri Siyavuş Novruzov və deputat Fəzail Ağamalı məsələ ilə bağlı fikirlərini söylədikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul olunub.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Elektroenergetika haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsini təqdim edib. Nəzərə çatdırıb ki, layihə tələb olunan gücü 150 - 200 kVt arasında olan elektrik qurğularının istismarının sadələşdirilməsi (icazə tələbinin aradan qaldırılması) məqsədilə hazırlanıb. Sənədə əsasən, tikinti obyektlərinin tələb olunan elektrik enerjisi gücü 200 kVt-dək olduqda onların elektrik şəbəkəsinə qoşulma işləri başa çatdırıldıqdan sonra elektrik qurğularının istismarına icazə alınması tələb olunmayacaq.

Deputatlar Vüqar Bayramov və Sabir Rüstəmxanlı layihə barədə fikirlərini və bəzi qeydlərini diqqətə çatdırıblar.

Parlamentin spikeri Sahibə Qafarova və komitə sədri Sadiq Qurbanov qaldırılan məsələlərə aydınlıq gətirdikdən sonra qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin növbəti iki məsələsinin üçüncü oxunuşda qanun layihələri olduğunu bildirib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov Azərbaycan Respublikasının Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Daxili xidmət nizamnaməsinin təsdiq edilməsi haqqında" və "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edib. O, sənədin mətnində hər hansı əlavə dəyişikliyin olmadığını deyib və onun səsə qoyulmasını xahiş edib.

Layihədə dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlər, habelə hərbi xidmət əleyhinə olan inzibati xətalar sırasına müvafiq olaraq cinayət və inzibati məsuliyyəti nəzərdə tutan yeni cinayət əməllərinin və inzibati xətanın daxil edilməsi, habelə bu hüquqazidd hərəkətlərin törədilməsinin qarşısının alınması məqsədilə iki sahəvi normativ hüquqi akta müvafiq məzmunda dəyişikliyin edilməsi nəzərdə tutulur.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov və İnsan hüquqları komitəsinin üzvü Bəhruz Məhərrəmov bu komitələrin məsələ ilə bağlı müsbət rəy verdiyini söyləyiblər.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Azərbaycan Respublikasının 1997-ci il 3 oktyabr tarixli 377-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Hərbi xidmətkeçmə haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) diqqətə çatdırıb. O, qanun layihəsinin əvvəlki oxunuşlar zamanı geniş müzakirə olunduğunu, sənədlə bağlı heç bir təklif və iradın olmadığını bildirib.

Layihə zabitlərin həqiqi hərbi xidmətinə qəbul edilə bilən şəxslərin dairəsinin genişləndirilməsi məqsədilə hazırlanıb.

Qanun layihəsi üçüncü oxunuşda qəbul edilib.

Spiker Sahibə Qafarova digər iki məsələnin birinci oxunuşda qanun layihələri olduğunu bildirib. O, sənədlərin ölkə Prezidentinin bir məktubu ilə Milli Məclisə daxil olduğunu, məzmun və mahiyyətcə bir-birinə yaxın olduğunu söyləyib. Sədr qeyd edib ki, bu, "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə (birinci oxunuş) qanun layihələridir.

Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. O qeyd edib ki, qanunun preambula hissəsinə və 11 maddəsinə təklif olunan əlavə və dəyişikliklər ailə institutunun möhkəmləndirilməsi, ailədaxili münasibətlərin daha yaxşı tənzimlənməsi və vətəndaşın konstitusion hüquqlarının müdafiəsinə xidmət edir.

Komitə sədri diqqətə çatdırıb ki, sənəddə məişət zorakılığının bu və digər formasından zərər çəkmiş şəxsin hüquqlarının müdafiəsinin gücləndirilməsi, zərər törədən şəxsin, eyni zamanda bu kimi halların qarşısının alınmasına cavabdeh olan vəzifəli şəxsin məsuliyyətinin artırılması, zərər törədən şəxsin hərəkətlərinə dair sanksiyaların nisbətən sərtləşdirilməsi, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizminin yaradılması, qabaqlayıcı və profilaktik tədbirlərin keçirilməsi, zorakılıq hallarının şahidi və qurbanı olmuş uşaqların hüquqlarının müdafiəsi və digər məsələlər öz əksini tapıb.

Bildirilib ki, məişət zorakılığına məruz qalmış şəxslərin müdafiəsinin gücləndirilməsi üçün qanunun preambula hissəsindən və bir neçə maddəsindən "yaxın" sözünün çıxarılması təklif edilir. Burada əsas məqsəd təkcə yaxın qohum deyil, ümumiyyətlə, qohumluq münasibətindən istifadə etməklə hər hansı şəxsə qarşı törədilmiş məişət zorakılığı halının qarşısını almaqdır. Qanunun 2 maddəsində "və ailə münasibətlərinin bərpa olunmasına" sözlərinin çıxarılması təklif olunur. Təcrübədə bəzən barışdırıcı mövqe ailədə münaqişə vəziyyətini daha da dərinləşdirir. İnsan özü seçim etməlidir və qarşı tərəf də bu qərara hörmətlə yanaşmalıdır.

Hicran Hüseynova qeyd edib ki, dəyişikliklərdən biri də zərurət olduqda zərər çəkmiş şəxsin tələbi ilə dövlət vəsaiti hesabına hüquqi yardımla təmin edilməsi məsələsidir. Bununla yanaşı, layihədə, qısamüddətli mühafizə orderinin müddətinin beynəlxalq təcrübəyə əsaslanaraq 60 günədək, uzunmüddətli orderin müddətinin isə 60 gündən 180 günədək artırılması nəzərdə tutulur. Sənəddə uşaq hüquqlarının daha effektiv qorunması üçün əlavə və dəyişikliklər də təklif edilir. O deyib ki, digər vacib məsələ qabaqlayıcı və profilaktik tədbirlərin həyata keçirilməsi, insanların daha erkən vaxtda bu məsələlər haqqında maarifləndirilməsidir. Bununla bağlı təhsilin müxtəlif pillələrində tədris olunan müvafiq fənn və dərsdənkənar məşğələlərin məzmununa qarşılıqlı hörmət, qarşılıqlı yardım, gender bərabərliyi və şəxsiyyətlərarası münasibətlərə dair mövzuların daxil edilməsi məqsədəmüvafiq hesab olunur.

Komitə sədri bildirib ki, məişət zorakılığından zərər çəkmiş şəxslər üçün qurumlararası əlaqələndirmə mexanizminin yaradılması məqsədilə mövcud qanuna yeni maddənin əlavə edilməsi təklif olunur. Layihədə həmçinin qanunun bir sıra maddələrində dəqiqləşdirmə və uyğunlaşdırma xarakterli əlavə və dəyişikliklər edilməsi də nəzərdə tutulub.

Qeyd edilib ki, məişət zorakılığının qarşısının alınması sahəsində qanunvericiliyin təkmilləşdirilməsi və məişət zorakılığından zərər çəkmiş şəxslərin hüquqlarının daha səmərəli təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi hazırlanıb. Burada "Məişət zorakılığının qarşısının alınması haqqında" Azərbaycan Respublikasının Qanununun yeni layihəsindən irəli gələn əlavə və dəyişikliklər öz əksini tapıb.

İnsan hüquqları komitəsinin üzvü Bəhruz Məhərrəmov sənəd barədə bu komitənin müsbət rəy verdiyini bildirib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim olunan məsələlərlə bağlı komitənin müsbət rəyini diqqətə çatdırıb. O, habelə Mülki Prosessual Məcəlləsində, Cinayət-Prosessual Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, "Vəkillər və vəkillik fəaliyyəti haqqında" və "Təhsil haqqında" qanunlarda nəzərdə tutulan dəyişikliklərin uyğunlaşdırma xarakterli olduğunu deyib. Komitə sədri həmçinin qeyd edib ki, İnzibati Xətalar Məcəlləsinə edilən dəyişiklikdə məişət zorakılığının qarşısının alınması ilə bağlı qanunvericiliyin pozulmasına dair sanksiyaların daha da sərtləşdirilməsi, qısamüddətli mühafizə orderinin verilməməsinə görə vəzifəli şəxslərin məsuliyyətə cəlb edilməsi nəzərdə tutulur.

Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev bu məsələlərlə bağlı rəhbərlik etdiyi komitənin müsbət rəyini bildirib.

Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, hər il Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü ərəfəsində Milli Məclis soydaşlarımıza və həmvətənlərimizə müraciət edir və gündəliyin sonuncu məsələsi məhz Milli Məclisin müraciəti ilə bağlıdır. Spiker müraciətin mətninin hazır olduğunu bildirib və onu səsləndirmək üçün deputat Nurlan Həsənova söz verib.

İclasda deputat Nurlan Həsənov Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Milli Məclisin müraciətini oxuyub.

Sonra Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin müraciəti səsə qoyularaq qəbul edilib. *(Müraciətin mətni qəzetin bugünkü nömrəsində dərc olunub).*

Milli Məclisin payız sessiyasının son iclasına yekun vuran spiker Sahibə Qafarova bildirib ki, bu, payız sessiyasının son iclasıdır, həm sessiyaya, həm də 2023-cü ilə yekun vururuq.

Payız sessiyası və il ərzində görülmüş işlər haqqında məlumat verən spiker diqqətə çatdırıb ki, indiyə qədər olduğu kimi, Milli Məclisin fəaliyyəti Azərbaycan Prezidenti İlham Əliyevin altıncı çağırış Milli Məclisin birinci iclasında verdiyi tövsiyələr əsasında qurulmuşdur.

Milli Məclisin Konstitusiya ilə nəzərdə tutulan səlahiyyətləri tam yerinə yetirilib. Payız sessiyasında parlamentin 16 iclası olub, 100 qanun və qərar layihəsinə baxılıb. Ümumiyyətlə, 2023-cü ildə Milli Məclisin 39 plenar iclası keçirilib, 268 qanun və 27 qərar qəbul edilib.

Sahibə Qafarova xalqımızın Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Milli Məclisin mayın 16-da və iyunun 14-də keçirilən xüsusi iclaslarını başa çatan ilin ən önəmli hadisələri sırasında qeyd edib. Bildirib ki, Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısında xidmətlərinin, dünya siyasət sənətinə verdiyi töhfələrin ölkəmizdə və beynəlxalq aləmdə nə qədər yüksək qiymətləndirildiyi bir daha nümayiş olunmuşdur. Spiker deyib ki, bu iclaslar Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin sərəncamı ilə ölkəmizdə keçirilən "Heydər Əliyev İli" çərçivəsində parlament səviyyəsində təşkil edilən ən irimiqyaslı tədbirlər olmuşdur.

Ulu Öndərin xatirəsinə həsr edilən digər tədbirlərdən danışan parlamentin Sədri oktyabrın 13-də Milli Məclisdə "Heydər Əliyev - 100: Müasir Azərbaycan - sosial rifah və ədalət dövləti" mövzusunda elmi-praktik konfransın keçirildiyini, noyabrın 19-da Milli Məclis deputatlarının və parlament Aparatı əməkdaşlarının Böyük Qafqaz sıra dağlarının "Heydər Əliyev zirvəsinə" yürüşünün təşkil edildiyini diqqətə çatdırıb.

İlham Əliyevin Azərbaycan Prezidenti seçilməsinin 20-ci ildönümü ilə əlaqədar Milli Məclisin xüsusi iclasının keçirilməsini ötən dövrün ən əlamətdar hadisələrindən biri kimi qeyd edən Sahibə Qafarova iclasda Ulu Öndər Heydər Əliyevin inkişaf strategiyasını layiqincə davam etdirən Prezident İlham Əliyevin Azərbaycanı qüdrətli dünya dövlətinə çevirməyə yönələn fəaliyyətindən minnətdarlıq duyğuları ilə danışıldığını bildirib.

Hakimiyyətin müxtəlif qolları arasında səmərəli əməkdaşlıq əlaqələrini Milli Məclisin fəaliyyətinin uğurlarına şərait yaradan amillər sırasında qeyd edən parlament Sədri bununla əlaqədar Milli Məclis ilə Prezident Administrasiyasının müvafiq şöbələri arasında mütəmadi xarakter daşıyan iş birliyinin əhəmiyyətini xüsusi vurğulayıb. Eyni zamanda parlamentlə hökumət arasında konstruktiv əməkdaşlığa da diqqəti cəlb edən spiker söyləyib ki, yola saldığımız il ərzində hökumətin müxtəlif strukturlarının nümayəndələri Milli Məclisin və komitələrin iclaslarına dəvət olunmuş, qanun layihələrinin müzakirəsi zamanı onların rəyləri dinlənilmiş, eyni zamanda deputatların bir sıra mülahizə və təklifləri icra orqanları tərəfindən nəzərə alınmışdır.

Parlamentin rəhbəri bildirib ki, qanunvericilik fəaliyyətinin səmərəsini artırmaq, ictimai fikir üçün aktual olan məsələləri müzakirə etmək məqsədilə ictimai dinləmələrin keçirilməsi praktikası ötən dövrdə də davam etdirilib.

Qeyd olunub ki, il ərzində Milli Məclisdə 15 dinləmə keçirilib. İki dinləmə Ulu Öndər Heydər Əliyevin dövlətimizin gənclər siyasətinin formalaşmasına, eləcə də demokratiyanın, özünüidarənin və regionların inkişafına verdiyi töhfələrə, iki dinləmə qanun layihələrinə, beş dinləmə qərbi azərbaycanlıların tarixi və mədəni irsi, Qərbi Azərbaycana qayıdışın hüquqi aspektləri ilə bağlı məsələlərə, altı dinləmə isə Azərbaycan cəmiyyətini düşündürən digər məsələlərə həsr edilib.

Sahibə Qafarova deyib ki, qanunvericilik və qanunyaratma sahəsində görülən işlərlə yanaşı, Milli Məclis, eləcə də parlamentin komitələri, xüsusən Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi bəzi beynəlxalq qurum və xarici dövlətlərin Azərbaycanı gözdən salmağa, onun suverenliyinə qəsd etməyə yönələn hərəkətlərinə etiraz əlaməti olaraq bəyanatlar qəbul ediblər.

Qeyd olunub ki, bu qəbildən olan müxtəlif məsələlərlə bağlı Milli Məclis Sədrinin adından xarici dövlətlərin parlament sədrlərinə və beynəlxalq parlament təşkilatlarının rəhbərlərinə - yüzlərlə ünvana müraciətlər göndərilib.

Spiker Sahibə Qafarova bildirib ki, Milli Məclis nəzarət funksiyasını bu il də səmərəli surətdə həyata keçirib. Parlamentdə Nazirlər Kabinetinin, Hesablama Palatasının, insan hüquqları üzrə müvəkkilin, bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın, İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun, gender bərabərliyinin təmin edilməsinə nəzarəti həyata keçirən icra hakimiyyəti orqanının hesabat, məruzə və məlumatları dinlənilib.

Parlamentin Sədri deyib ki, bu bir il ərzində Milli Məclis deputatlarının seçki dairələrindəki fəaliyyətlərinə də xüsusi diqqət yetirilib. Millət vəkilləri öz seçiciləri ilə müntəzəm görüşlər keçiriblər, onları düşündürən məsələləri Milli Məclisin iclaslarında, eləcə də digər hakimiyyət orqanları qarşısında qaldırıblar.

Spiker onu da deyib ki, Milli Məclisdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması sahəsində də lazımi tədbirlər həyata keçirilib. Qeyd olunub ki, il ərzində Milli Məclisin rəhbərliyi, komitə sədrləri, Aparatın rəhbəri və şöbə müdirləri, işlər müdiri tərəfindən 4 min nəfərə qədər vətəndaş qəbul edilib, parlamentdə 20 mindən çox vətəndaş müraciətinə baxılıb.

Parlamentin Sədri diqqətə çatdırıb ki, ötən dövrdə Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı sahəsində də zəruri tədbirlər görülüb. Nümayəndə heyətlərimiz üzv olduğumuz bütün beynəlxalq parlament təşkilatlarının fəaliyyətində həmişə olduğu kimi yaxından iştirak ediblər. Ümumiyyətlə, il ərzində 104 deputatımız 61 ölkəyə 495 səfər həyata keçirib. Milli Məclis Sədrinin 13 ölkəyə rəsmi və 10 ölkəyə 12 işgüzar səfəri olub. Bildirilib ki, həm deputatların, həm də Milli Məclis Sədrinin səfərlərində dövlətimizin xarici siyasətinin parlament ölçüsünü təmin etmək üçün parlament diplomatiyasının imkanlarından istifadə edilib.

Spiker deyib ki, ötən dövrdə 68 ölkənin və 18 beynəlxalq təşkilatın 199 nümayəndə heyəti, ümumən 688 nəfər xarici qonaq Milli Məclisdə olub. Milli Məclis Sədrinin 24 ölkənin parlament sədrləri və sədr müavinləri, 5 beynəlxalq parlament təşkilatının rəhbərləri, 8 ölkənin icra hakimiyyəti orqanlarının nümayəndələri, 9 dövlətin Azərbaycandakı səfirləri ilə görüşləri keçirilib.

Milli Məclisin Sədri qeyd edib ki, parlamentin beynəlxalq əlaqələrinin inkişafına yönələn tədbirlərindən biri də 6 ölkənin parlamenti və parlament qurumu ilə əməkdaşlıq haqqında sənədlərin imzalanmasıdır. Belə ki, Türkiyə Böyük Millət Məclisi və Rusiya Federasiyası Federal Məclisinin Dövlət Duması ilə iş birliyi haqqında sazişlər bağlanmış, Misir Senatı, Serbiya Milli Assambleyası, Gürcüstan Parlamentinin Mədəniyyət komitəsi, Türkiyə Böyük Millət Məclisinin Qadınlar və kişilər üçün bərabər imkanların təmin edilməsi komissiyası ilə Milli Məclis və ya onun müvafiq komitələri arasında anlaşma memorandumları və əməkdaşlıq protokolları imzalanıb.

Sahibə Qafarova həmçinin deyib ki, onun sədri olduğu Qoşulmama Hərəkatının Parlament Şəbəkəsi ilə İslam Əməkdaşlığı Təşkilatının Parlament İttifaqı, Ərəb Parlamenti, Türkdilli Dövlətlərin Parlament Assambleyası, ASEAN Parlamentlərarası Assambleyası arasında əməkdaşlığa dair anlaşma memorandumları da imzalanıb. Bundan başqa, beynəlxalq təşkilatların xətti ilə 2 böyük tədbirə - Asiya Parlament Assambleyasının Sosial və mədəni məsələlər daimi komitəsinin iclasına, eləcə də Milli Məclisin və ATƏT-in Parlament Assambleyasının birgə təşkilatçılığı ilə təşkil olunan "Yaşıl iqtisadiyyat, nəqliyyat əlaqələndirməsi və dayanıqlı inkişaf vasitəsi ilə təhlükəsizlik və sabitliyin təşviqində milli parlamentlərin rolu" mövzusunda konfransa evsahibliyi edilib.

Sahibə Qafarova Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bəhreynin Manama şəhərində keçirilən ikinci konfransını Milli Məclisin təşkilatçılığı ilə keçirilən tədbirlər sırasında vurğulayıb. Bundan əlavə, Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının və Bakı Təşəbbüs qrupunun birgə təşkilatçılığı ilə Bakıda "Dekolonizasiya Dialoqları: miras, çağırışlar və nailiyyətlər" mövzusunda beynəlxalq konfrans keçirilib.

Milli Məclisin payız sessiyasının və 2023-cü ilin uğurla başa çatdığını deyən Sahibə Qafarova bununla əlaqədar deputatlara səmərəli iş üçün təşəkkür edib.

Sonra Milli Məclisin Sədri bildirib ki, qarşıdan bayramlarımız gəlir. Xalqımız Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününü, daha sonra isə Yeni ili qeyd edəcəkdir.

Sahibə Qafarova təklif edib ki, Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya Milli Məclis adından təbrik məktubları ünvanlayaq və Azərbaycan dövlətinin bu günü və sabahı naminə dəyərli fəaliyyətlərində onlara yeni-yeni böyük uğurlar arzulayaq.

Spikerin təklifi alqışlarla qarşılanıb.

Parlamentin Sədri qarşıdan gələn bayramlar münasibətilə hamını, həmçinin iclası izləyən media nümayəndələrini səmimi-qəlbdən təbrik edib, hamıya cansağlığı, uzun ömür və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Parlamentin Sədri Milli Məclisin 2023-cü il payız sessiyasını bağlı elan edib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibətilə Azərbaycan Respublikası Milli Məclisinin müraciəti

**Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!**

Böyük və qüdrətli Azərbaycan xalqının övladlarının söz, əqidə və əməl birliyinə nail olmaq arzusunu və əzmini təcəssüm etdirən həmrəylik günü dünyanın çoxsaylı ölkələrində əziz bayram kimi böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 32 il öncə başlanmış milli-mənəvi bütövləşmə hərəkatı xalqımızın tarixi köklərə bağlılığından və milli yüksəliş amalından güc almışdır. Dövlət müstəqilliyimizlə yaşıd olan bu proses sonrakı dövrdə daha da genişləndikcə dünya azərbaycanlıları ümummilli qayələrimizin gerçəkləşməsi naminə azərbaycançılıq ideyası əsasında sıx birləşməyin əhəmiyyətini dərindən dərk etmişlər. Azərbaycan icmaları və diaspor təşkilatları inkişaf edib möhkəmlənir, soydaşlarımızın və həmvətənlərimizin siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının müdafiəsi işində yaxından iştirak edir, tarixi vətənlə əlaqələrini gücləndirirlər.

Bəşər sivilizasiyasına dəyərli töhfələr vermiş Azərbaycan xalqı həm sayına, həm də intellektual potensialına görə dünyanın böyük millətləri ilə bir sırada dayanır. Ulu Şərqin bir sıra qüdrətli dövlətləri xalqımızın istedad və zəkasının gücü ilə qurulmuşdur.

Bugünkü müstəqil Azərbaycan dövləti xalqımızın ən böyük tarixi nailiyyətlərindən biridir. Hər bir soydaşımız bilir ki, ona arxa duran, hüquqlarını, şərəfini, nüfuzunu qorumağa hazır olan milli dövləti vardır. Odur ki, Asiyada, Avropada, Amerikada və digər qitələrdə məskən salmış soydaşlarımız Vətəndə baş verən ictimai-siyasi prosesləri diqqətlə izləyir, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın Cənubi Qafqaz bölgəsinin lider dövlətinə çevrilməsi, geniş bir bölgədə söz sahibi olması, həyatın bütün sahələrində heyrətamiz uğurlar qazanması ilə fəxr edirlər. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qəhrəman Silahlı Qüvvələrimizin bu ilin sentyabr ayında Qarabağda həyata keçirdiyi birgünlük antiterror tədbirləri nəticəsində dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin tam bərpa edilməsi hər bir azərbaycanlının qəlbini qürur hissi ilə doldurur.

**Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!**

Azərbaycan dövləti dünya azərbaycanlılarının birlik və həmrəyliyinin möhkəmləndirilməsinə ümdə əhəmiyyət verir. Xalqımızın mütəşəkkil qüvvəyə çevrilməsinə yönələn tədbirlər mütəmadi şəkildə davam etdirilir. Tarixin gərdişi ilə Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan soydaşlarımıza qayğı göstərilməsi, onların milli kimliyinin, hüquq və mənafelərinin, təhlükəsizliyinin qorunmasına dəstək verilməsi dövlət siyasətinin ayrılmaz tərkib hissəsini təşkil edir.

Bu gün biz böyük imkanlar vəd edən yeni bir dövrün astanasındayıq. Xalqımızın bir çox nəsillərinin arzuladığı gələcəyin qurulması üçün hər bir azərbaycanlı öz səylərini əsirgəməməlidir.

Azərbaycanın bütün potensialının üzə çıxarılaraq dünyaya daha yaxından tanıdılması, xalqımızın qibtə ediləcək qədim adət-ənənələrinin, gözəl dilinin, zəngin mədəniyyətinin yaşadılması və təbliğ edilməsi sahəsində görüləsi işlərimiz çoxdur. Soydaşlarımızın və həmvətənlərimizin bir vəzifəsi də yaşadıqları ölkələrin ictimai-siyasi həyatına inteqrasiya etməklə bərabər, milli özgünlüyümüzü uca tutmaq, milli hüquqlarımızı qorumaq, hər sahədə bir-birinə dəstək olmaqdır. Azərbaycan xalqının varlığı və gələcəyi, milli dövlətçiliyimizin əbədi davam etməsi dünya azərbaycanlılarının birliyindən və mütəşəkkilliyindən çox asılıdır.

**Əziz soydaşlarımız, dəyərli həmvətənlərimiz!**

Sizi milli amallarımızın gerçəkləşməsi, xalqımızın mənafelərinin qorunması naminə birliyə çağırırıq. Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü münasibəti ilə hamınızı ürəkdən təbrik edir, hər birinizə möhkəm cansağlığı, ailə səadəti, doğma Azərbaycanımıza işıqlı gələcək arzulayırıq!

*Hörmətlə,*

***Azərbaycan Respublikasının Milli Məclisi***

*(Müraciət Azərbaycan Respublikası Milli Məclisinin 2023-cü il 30 dekabr tarixli iclasında qəbul edilmişdir.)*



# Zəfər həmrəyliyi

**Azərbaycan xalqı tarixindəki ən şanlı məqama, əbədi fəxr edəcəyi, qürurlanacağı Zəfər zirvəsinə ucalıb. Müzəffər Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, əzmi, qətiyyəti və rəşadətli Azərbaycan Ordusunun qəhrəmanlığı sayəsində 2020-ci ildə cəmi 44 günə parlaq Zəfər qazanılıb, 2023-cü ildə isə cəmi 23 saata Xankəndidə bayrağımız əbədi dalğalandırılıb.**

Qısa zamanda Azərbaycan adına ardarda qazanılan bu böyük zəfərlərin, qələbələrin, uğurların, nailiyyətlərin təməl gücündə isə xalqımızın torpaq sevgisi, bu uğurda canından belə keçmək əzmində olması dayanır. 44 günlük Vətən müharibəsində də, 23 saatlıq antiterror tədbirlərində də Prezident İlham Əliyevin ətrafında sıx birləşən xalqımız "dəmir yumruğ"a dönərək düşmənin başında zərbəyə çevrildi.

Dekabrın 21-də keçirilən tarixi Qarabağ və MOİK futbol oyunundan əvvəl Xankəndi stadionunda çıxış edən Qalib Lider İlham Əliyev də məhz bu məqamı xüsusi vurğulayaraq, Azərbaycanın qalibiyyət formulunu belə açıqladı: "Qarabağ-Ordu-Xalq birliyi bizim Zəfərimizin əsas mənbəyidir".

## Azərbaycançılıq - bizi birləşdirən dəyər

"...Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"

İllər öncə Ulu Öndər Heydər Əliyevin qürur, fəxr hissi ilə dilə gətirdiyi və Yer üzündəki azərbaycanlıların dillər əzbərinə çevrilən bu sözlər həm də millətimizin, dövlətimizin parlaq gələcəyinin yol xəritəsini cızan milli parol oldu.

"Bizim hamımızı birləşdirən, həmrəy edən azərbaycançılıq ideyasıdır, azərbaycançılıqdır", - deyə Dünya Azərbaycanlılarının I Qurultayında da Ulu Öndər Heydər Əliyev vurğulamışdı ki, Azərbaycan dövlət müstəqilliyini əldə edəndən sonra azərbaycançılıq aparıcı ideya kimi həm Azərbaycanda, həm də bütün dünyada yaşayan azərbaycanlılar üçün əsas ideya olubdur. Biz həmişə bu ideya ətrafında birləşməliyik.

Böyük vətənpərvər Heydər Əliyevin təməlini qoyduğu azərbaycançılıq ideologiyasının məntiqi və uğurlu nəticəsi idi ki, 44 günlük Vətən müharibəsini qalibiyyətlə sonuclandırdıq, torpaqlarımızın işğalına son qoyduq, ərazi bütövlüyümüzü, suverenliyimizi tam təmin etdik.

Azərbaycan xalqı bu möhtəşəm həmrəylik bünövrəsi üzərində Zəfər qalası ucaltdı, üzərindəki məğlubiyyət damğasından qurtuldu, qalib, qürurlu vətəndaşlara çevrildi.

O cümlədən də bu Zəfər dünyada yaşayan həmvətənlərimizin qürur mənbəyinə çevrildi.

## Həmrəylik yolu

Ötən illərdə dövlətimiz tərəfindən milli həmrəyliyin, azərbaycançılıq ideyasının inkişafı istiqamətində ardıcıl olaraq mühüm qərarlar verilib, qanunlar qəbul edilib.

1991-ci il dekabrın 16-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçən iclasında dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi qeyd olunması barədə qərar qəbul edilib. Ali Məclis bununla bağlı qanunvericilik aktının qəbul olunması üçün ölkə parlamentinə - Ali Sovetə müraciət ünvanlayıb. Dekabrın 25-də Azərbaycan Respublikası Ali Sovetinin Milli Şurası müraciəti nəzərə alaraq dekabrın 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qərar qəbul edib. Həmin vaxtdan bütün dünyada azərbaycanlılar bu günü böyük sevinc və qürurla bayram kimi qeyd edirlər.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilib. Qurultayda xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürülüb. 5 iyul 2002-ci ildə isə Heydər Əliyevin fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradılıb.

Prezident İlham Əliyevin 2008-ci il 19 noyabr tarixli sərəncamı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında Diasporla İş üzrə Dövlət Komitəsi, dövlət başçısının 2018-ci il 5 iyul tarixli fərmanı ilə Azərbaycan Diasporuna Dəstək Fondu yaradılıb.

Xatırladaq ki, Dünya Azərbaycanlılarının II Qurultayı Prezident İlham Əliyevin sərəncamına əsasən, 2006-cı ildə, III Qurultayı 2011-ci ildə, IV Qurultayı isə 2016-cı ildə keçirilib.

## Zəfər qurultayı

Dünya azərbaycanlılarının ən möhtəşəm qurultayı isə 2022-ci il aprelin 22-23-də Qarabağın baş tacı Şuşada keçirdikləri V Qurultayları - Zəfər qurultayı oldu. 65 ölkədən 400-dən çox diaspor nümayəndəsi və qonağın iştirak etdiyi qurultayda dünya azərbaycanlıları bir daha öz sarsılmaz və əbədi birliklərini dünyaya sərgilədilər.

44 günlük Vətən müharibəsində yüksək təşkilatlanma və birlik nümayiş etdirən, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırılması yönündə fəal iş aparan diasporumuz Qarabağın azad olunmasından sonra ilk böyük görüşlərini mədəniyyət paytaxtımız Şuşada keçirməklə həmrəyliyimizi bir daha nümayiş etdirdilər.

Zəfər qurultayında geniş nitq söyləyən Prezident İlham Əliyev vurğuladı ki, biz bu gün azad Qarabağda, azad Şuşada Dünya Azərbaycanlılarının Qurultayını keçiririk. Bu qurultayın adı Zəfər qurultayıdır və bu, təbiidir. Çünki tarixi Zəfərdən sonra ilk dəfədir ki, dünya azərbaycanlıları toplaşır, qurultay keçirir və ümumiyyətlə, Zəfər adı xalqımıza çox yaraşır.

Dövlət başçısı onu da xüsusi qeyd etdi ki, bizim xaricdə yaşayan gənc azərbaycanlılarımız həm İkinci Qarabağ müharibəsinin tarixini yaxşı bilməlidir, həm də bu həqiqətləri öz dostlarına çatdırmalıdırlar: "Yəni, bir sözlə, xaricdə yaşayan azərbaycanlılar böyük qüvvədir. Onların fəaliyyəti ölkəmiz üçün çox önəmlidir. Onların fəallığı və Azərbaycan həqiqətlərinin çatdırılması, Azərbaycan maraqlarının müdafiə edilməsi, əlbəttə ki, bizim dövlətimizi daha da gücləndirir".

## Dünya boyda Azərbaycan

Dünya azərbaycanlılarının ötən müddətdə keçirilən qurultaylarının hər biri həmrəyliyimizə, milli mənafelərimizin təmini istiqamətində təşkilatlanmağımıza böyük təkan olub.

Azərbaycançılıq ideologiyası əsasında formalaşmış bu möhkəm birliyin gücünü 44 günlük müharibədə bariz şəkildə görüb hiss etdik. Zəfər çaldığımız Vətən müharibəsində dünya azərbaycanlıları bir amal ətrafında tarixin heç bir dönəmində olmadığı kimi birləşərək həmrəy oldu. Həmvətənlərimiz beynəlxalq aləmə səsimizi çatdırmaq üçün informasiya müharibəsində mühüm xidmətlər göstərdilər.

Milli həmrəyliyimizin təntənəsinə çevrilən o 44 gündə diaspor təşkilatlarımızın dünyanın 30-dan çox ölkəsində keçirdikləri 200-dək aksiyada 25 mindən çox soydaşımız və dost xalqların nümayəndələri iştirak etdilər. Eyni zamanda müharibə günlərində 300-ə yaxın diaspor təşkilatı müxtəlif ölkələrin dövlət və hökumət rəhbərlərinə, parlament üzvlərinə, beynəlxalq təşkilatlara bəyanatlar, müraciətlər göndərdilər.

Postmüharibə, eləcə də suverenliyimizin təmin olunduğu dövrdə bu birliyin gücünü daim hiss etmişik. Azərbaycan məhz bu milli həmrəylikdən doğan güc-qüvvə sayəsində həm Ermənistanı, həm də işğalçını dəstəkləyən xarici gücləri darmadağın etdi, Şuşada, Xankəndidə üçrəngli, ay-ulduzlu bayrağını əbədi dalğalandırdı.

Vaxtilə Ulu Öndər Heydər Əliyevin uğurlu təməlini qoyduğu və ölkəmizin sarsılmaz dayağı kimi inkişaf etdirdiyi azərbaycançılıq ideyası Prezident İlham Əliyevin dəqiq müəyyənləşdirdiyi strategiya üzrə möhtəşəm inkişaf yolu keçərək tarixindəki ən yüksək məqama, milli birlik zirvəsinə yetib.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Müdafiə Nazirliyinin rəhbərliyi bayram ərəfəsində hospitalı ziyarət edib

Müdafiə Nazirliyinin rəhbər heyəti Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində Baş Klinik Hospitalı ziyarət edib.







Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hospitalın ərazisində ucaldılan abidəsi önünə gül dəstələri qoyulub, xatirəsinə dərin hörmət və ehtiram nümayiş etdirilib. Baş Klinik Hospitalda müalicə olunan hərbi qulluqçularla və tibb personalı ilə görüşən general-polkovnik Zakir Həsənov onlara Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təbriklərini çatdırıb.

Nazirliyin rəhbər heyəti hospitalda aparılan müalicə prosesi ilə maraqlanıb, xəstə və yaralıların tezliklə sağlamlıqlarına qovuşmalarını və ordu sıralarında xidmətlərini davam etdirmələrini arzulayıb. Hospitalın tibb personalının peşəkarlığı, burada xəstə və yaralı hərbi qulluqçuların müalicəsi zamanı göstərilən xidmətlər yüksək qiymətləndirilib. Şəxsi heyətə bayram hədiyyələri təqdim edilib.

# Birliyimiz 2024-cü ildə xalqımıza daha böyük uğurlar qazandıracaq

Dekabr ayının 31-i ölkəmizdə Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi böyük təntənə və coşqu ilə qeyd olunur. Bu bayram ildən-ilə daha da geniş vüsət alır. Bayram ovqatına köklənmiş tədbirlərdə iştirak etmək olduqca qürurvericidir. Həmrəylik bayramı azərbaycançılıq ideologiyasına söykənir, ondan qaynaqlanır.

Son illərdə bu ideologiya müstəqil Azərbaycanın çiçəklənməsinə və dünya azərbaycanlılarının özünüdərkinə təkan verən güclü amilə çevrilib. Azərbaycançılıq ideologiyası ətrafında sıx birləşən soydaşlarımız hansı ölkədə yaşamalarından asılı olmayaraq, doğma Vətənimizin inkişafına, onun dünya birliyində daha da layiqli yer tutmasına, tanınmasına, yüksək nüfuz qazanmasına, milli mədəniyyətimizin təbliğinə, Azərbaycan həqiqətlərinin beynəlxalq ictimaiyyətə obyektiv şəkildə çatdırılmasına töhfə verməyə çalışırlar.

Bu əlamətdar və qürurverici tarixin rəsmiləşdirilməsi Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz bu böyük şəxsiyyətin təşəbbüsü ilə 16 dekabr 1991-ci ildə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Milli Həmrəylik və Birlik Gününün təsis olunması barədə qərar qəbul etdi. Bundan doqquz gün sonra Azərbaycan Respublikası Ali Soveti dekabr ayının 31-nin Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan olunması barədə qərar verdi.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü yaşadığı ölkədən asılı olmayaraq bütün azərbaycanlıları birləşdirdi. Bu bayram ayrı-ayrı regionlarda yaşayan azərbaycanlılarla sıx əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynadı. Ən əsası isə bu əlamətdar gün dünyadakı azərbaycanlıların birliyinə, həmrəyliyinə güclü təkan verdi.

Dünya azərbaycanlılarının həmrəyliyini, onların təşkilatlanmasını daim diqqət mərkəzində saxlayan Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliyini, xalqı öz ətrafında birləşdirməyə qadir olduğunu parlaq şəkildə nümayiş etdirdi. Çox keçmədi ki, Ulu Öndərin bu istiqamətdə göstərdiyi səylər müsbət nəticələr verdi. 2001-ci il noyabr ayının 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirildi. Qurultay dünya azərbaycanlılarının birləşdirilməsi, bu sahədə mövcud olan problemlərin aradan qaldırılması istiqamətində çox mühüm hadisə oldu. Qurultayda dərin məzmunlu nitq söyləyən Ulu Öndər Heydər Əliyev dünya azərbaycanlılarının milli birliyinin və həmrəyliyinin təmin edilməsi, Azərbaycan dövləti və dünya azərbaycanlılarının əlaqələrinin möhkəmləndirilməsi, qarşıya çıxan problemlərin həllində səylərin birləşdirilməsi zərurəti, o cümlədən ana dilinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi haqqında fikirlərini bildirdi. Ümummilli Liderin "Hər bir insan üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!" müdrik kəlamları ötən müddət ərzində hər bir həmvətənimiz üçün milli qürur rəmzinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin 2002-ci il 5 iyul tarixli fərmanı ilə Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılmasından sonra dünya azərbaycanlılarının arasında əlaqələrin və həmrəyliyin möhkəmləndirilməsi istiqamətində daha məqsədyönlü işlər aparılmağa başlandı. Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil şəkildə əlaqələndirilməsində, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təmin edilməsində, bu sahədə mövcud problemlərin aradan qaldırılmasında bu gün də mühüm rol oynayır.

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü - Azərbaycan xalqının birlik və həmrəylik rəmzidir. Bu gün hər bir azərbaycanlı üçün əziz və doğmadır. 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Gününün elan olunması dünyanın 70-dən çox ölkəsində yaşayan 50 milyondan artıq azərbaycanlı ilə əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işinə şərait yaratdı.

Bütün bu nailiyyətlərin əsasında Ümummilli Lider Heydər Əliyevin formalaşdırdığı siyasi kurs dayanır. Prezident İlham Əliyev Ulu Öndərin uğurlara ünvanlanmış çevik və müdrik siyasi kursunu bu gün layiqincə davam etdirərək, Azərbaycanın dünyanın yüksək inkişaf etmiş ölkələri sırasına çıxması naminə qeyri-adi fədakarlıq nümunələri göstərir. Çox sevindiricidir ki, göstərilən bu fədakarlıqlar ürəkaçan nəticələr verir. Zaman keçdikcə iqtisadi gücü, qüdrəti artan Azərbaycan dünyada söz sahibinə çevrilir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev milli həmrəylik ideyalarını uğurla davam etdirir. "Bu gün Azərbaycan diasporu böyük iqtisadi, mədəni, intellektual qüvvəyə malikdir. Yaşadıqları ölkələrin ictimai-siyasi həyatında onların təsiri getdikcə daha artıq hiss olunur. Məmnunluq hissi ilə qeyd edirəm ki, Müstəqil Dövlətlər Birliyi ölkələrində, Avropada, Amerikada Azərbaycan icmaları və cəmiyyətləri əvvəlki dövrlərlə müqayisədə xeyli səmərəli fəaliyyət göstərirlər. Lakin o da xüsusi vurğulanmalıdır ki, onların geniş imkanları, istifadə olunmamış potensialı vardır və bu potensialdan milli maraqlar naminə maksimum yararlanmaq lazımdır. Hazırda azərbaycanlıların həmrəyliyinin və mütəşəkkilliyinin güclənməsi, ümummilli ideyalar ətrafında birləşməsi üçün daha geniş imkanlar yaranmışdır. Azərbaycan dövləti nüfuzlu iqtisadi və siyasi gücə çevrilmiş, bütün dünyada yaşayan soydaşlarımız qarşısında parlaq perspektivlər açılmışdır. İndi biz dünya azərbaycanlılarının ümumbəşəri və mili-mədəni hüquqlarının, beynəlxalq konvensiyalarda təsbit edilmiş insan haqlarının qorunmasını təmin etmək üçün daha təsirli vasitələrə malikik. Azərbaycanın siyasi rəhbərliyi dünya azərbaycanlılarının Vətənimizə və xalqımıza mənsubluq hissini gücləndirmək, onların ölkəmizin iqtisadi, mədəni həyatında hərtərəfli iştirakını təmin etmək üçün bütün zəruri tədbirləri görəcəkdir"- Prezident İlham Əliyevin dediyi sözlər Azərbaycan dövlətinin bu məsələdə necə qərarlı olduğunu bir daha sübut edir.

Bu gün xalqımızın birliyi, həmrəyliyi ölkəmizin inkişafını daha da sürətləndirir. Şanlı tariximizə qızıl hərflərlə yazılan 44 günlük Vətən müharibəsində qazandığımız Zəfər həmrəyliyimizin, xalq-iqtidar birliyinin bir yumruq ətrafında birləşdiyini dünyaya göstərdi. Azərbaycan Ordusu İkinci Qarabağ müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Zəfər qazandı, ərazi bütövlüyümüz bərpa olundu. Əldə olunan qələbə bütün dünya azərbaycanlılarını sevindirdi. Düşmən üzərində qazanılan Zəfər Azərbaycanın beynəlxalq aləmdə mövqelərinin daha da möhkəmlənməsində, nüfuzunun yüksəlməsində mühüm rol oynadı.

Dünyada yaşayan bütün azərbaycanlılar bu gün Prezident İlham Əliyevin ətrafında daha da sıx birləşir, daha da həmrəy olurlar. Bu birlik, bu həmrəylik dövlət başçısının rəhbərliyi altında ölkəmizi və xalqımızı yaxın gələcəkdə yeni-yeni zirvələrə yüksəldəcək. Xalqımıza böyük zəfərlər, qələbələr qazandıran bu birlik, bu həmrəylik getdikcə daha da möhkəmlənəcək. 2024-cü il xalqımız üçün daha da uğurlu il olacaq. Sarsılmaz olan birliyimiz, həmrəyliyimiz möhkəmlənərək böyük bir gücə çevriləcək.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***



# Heydər Əliyev İli 2023

## "Müstəqilliyimizin manifesti" və yaxud dünyaya yayılan Azərbaycan həqiqətləri

**Heydər Əliyev bir rəhbər kimi ölkəmizin, xalqımızın, vətənimizin, dövlətimizin taleyi ilə bağlı həlledici məqamlarda, gərgin vəziyyətlərdə, strateji sahələrdə kimə nəyi və necə etmək barədə göstərişlərini verməklə bərabər, həm də doğru yolu göstərirdi. Başımıza gətirilən bəlalardan, gərginliklərdən, çətinliklərdən çıxmağın, qurtulmağın ən optimal və düzgün nizamını tapırdı.**

İkinci minilliyin sonlarında yadelli havadarlarının himayəsi ilə torpaqlarımızı işğal edən Ermənistan kimi mənfur düşmənin, eyni zamanda daxildəki siyasətbazların çəkişmələrinə məruz qalmış Azərbaycan dövləti məhv olmaq təhlükəsi ilə üzləşmişdi. Cəbhədə bir-birini əvəz edən uğursuzluqlar, işğalın faşizmdən də betər xüsusi erməni amansızlıqları ilə həyata keçirilməsi, ölkəmizin əleyhinə mütəşəkkil surətdə aparılan beynəlxalq kampaniyalar təcili və ciddi dəyişikliyin baş verməsini labüd edirdi. Bu zaman bəlalardan qurtulmaq istəyən əsl vətənpərvər insanların, zəka sahiblərinin dilinə və ürəyinə Heydər Əliyev adı yatsa da, mənfi təsirlərə məruz qalan ağılsız xudpəsəndlər qeyri fikirlərdə idilər. Hakimiyyyətin kabinet ab-havası onu dadanların damağından getmək istəmirdilər. Torpaqlar itirilir, insanlar daha çox zülmə, iztirablara məruz qalırdılar. Belə bir məqamda müstəqillik amalı ilə hərəkata qoşulanların öz səhvlərini anlamaları, hakimiyyətdəkilərin artıq özlərini qorumağa güclərinin yetməməsi, bir yandan da xalqın həmrəyliyi və qətiyyəti öz işini gördü. Fərsiz hakimiyyət düşkünlərinin yalançı vədlərindən bezmiş xalq seçimini edərək dünyanın məşhur şəxsiyyətlərindən, tanınmış siyasətçilərindən olan Azərbaycanın dahi oğlu Heydər Əliyevi o ağır günlərdə xilaskarlıq missiyasını öz üzərinə götürməyə dəvət etdi.

Keçmiş SSRİ-nin rəhbəri Mixail Qorbaçovun "yenidənqurma" adı ilə start verdiyi, əslində, mərkəzdənqaçmaya daha uyğun gələn anlaşılmaz siyasəti sonda bütün kapitalist-imperialist ölkələrinin 70 illik məqsədinə çatması, min bir fitnə-fəsadla can atdığı dünyanın ikinci superdövlətinin dağılması ilə nəticələndi. Bu dağılma prossesi müttəfiq respublikaların əl-qol açmasına imkan yaratsa da, düşünülmüş surətdə regionların iqtisadi cəhətdən bir-birindən asılılığı məsələlərə ciddi yanaşmanı zəruri edirdi. Bununla bərabər, əvvəlcədən hazırlanmış barıt çəlləyinə bənzəyən milli münaqişələr alovlandırılır, "iğtişaşları yatırmaq üçün" Kreml tərəfindən silahlı qüvvələrin yeridilməsi "labüdləşdirilirdi". Pribaltika, Orta Asiya, Moldova, Gürcüstan, Azərbaycan kimi ölkələr strateji mövqelərinə görə Rusiyanın itirmək istəmədiyi müttəfiqlər arasında xüsusi yer almışdı.

Ötən əsrin sonlarında Mixail Qorbaçov Fransada iqtisadçı erməni milyarderin siyasi məsləhətləri ilə daşnaklara meyilləndikdən sonra SSRİ-də ilk silahlı qaynar nöqtələrdən biri olaraq Qarabağda ermənilərin separatizm hərəkətlərinə rəvac verildi. Yüzilliklərboyu hazırlıq görmüş erməni millətçilərinin həmlələrinə Azərbaycan cəmiyyəti heç nə ilə cavab verə bilmirdi. Ürəyinin hökmü ilə azadlıq mücadiləsinə qalxmış milyonları düzgün istiqamətə yönəltməyi bacarmayan qüvvələr ölkəmizdə özbaşınalıqların, xaotik vəziyyətlərin daha da artmasına başlıca səbəb olur, bölgələrdə yaradılmış, erməni vandallarının yuxusuna haram qatmış özünümüdafiə dəstələrinə belə əl-qol açmağa imkan vermirdilər.

Şəxsi maraqlar naminə çəkişmələr cəbhədə başıpozuqluğa gətirib çıxarırdı ki, ermənilər bu fürsətdən istifadə edərək "böyük qardaşlarından" aldığı mənəvi güc və hərbi texnika ilə Azərbaycan torpaqlarına soxuldular. Qarabağda separatizmi qızışdıran Kremldəki havadarların göstərişi və əmri ilə isə SSRİ-nin silahlı cəza dəstələri etiraz hərəkatına qalxmış xalqımızın gözünü qorxutmaq üçün 1990-cı ilin 20 Yanvar qırğınını törətdilər. Respublikamızın içərilərinə sızmış xüsusi cəza dəstələri tərəfindən silahsız adamların üzərinə tırtıllı hərbi texnikanın yeridilməsi, ağır atıcı silahlardan, qadağan olunmuş güllələrdən istifadə halları dünya birliyinin etirazına səbəb oldu. Lakin mübariz insanlarımızın, günahsız vətəndaşlarımızın haqqını tapdalayanlar erməni yalanına uyaraq beynəlxalq aləmdə Azərbaycanın ekstremist bir ölkə kimi imicini formalaşdırmaq niyyətində idilər. Dünyaşöhrətli azərbaycanlı siyasətçi Heydər Əliyev faciənin baş verdiyi günün sabahı - yanvarın 21-də özünün və ailə üzvlərinin həyatını təhlükəyə ataraq ölkəmizin Moskvadakı nümayəndəliyinə gəldi və Kremlin yeritdiyi irticaçı siyasət əleyhinə bəyanat verdi, bu qanlı aksiyanı pislədi. Bununla da Ümummilli Lider onu çox böyük çətinliklər gözlədiyini bilə-bilə ikinci dəfə siyasi meydana atıldı.

20 Yanvar qırğınında qaniçən ordunu və ittifaq rəhbərliyini cəsarətlə ittiham edərək Azərbaycanın haqq səsini beynəlxalq ictimaiyyətə yayan Heydər Əliyev bu dəfə çətin və məsuliyyətli missiyasını doğma vətənimizin xilası uğrunda mübarizəsi ilə həyata keçirməli oldu. Ulu Öndərin ikinci dəfə böyük siyasətə qayıdışının səbəbi məhz xalqımızın ən çətin günlərində onun yanında olmaq, doğru yol göstərmək istəyindən doğurdu. İlk addım isə Azərbaycanda 20 Yanvar faciəsinin törədilməsinə Ümummilli Liderin verdiyi bəyanat oldu.

Bu bəyanat informasiya blokadasına alınmış Azərbaycanda guya ekstremistlərə görə Bakıya silahlı qüvvə yeridilməsi haqqında SSRİ-nin ermənipərəst təbliğatının yalan olduğunu dünyaya çatdırdı. İrticaçı və iftiraçı Sov.İKP rəhbərliyindən fərqli olaraq Heydər Əliyevin dilindən çıxan məlumatlara dünya ictimaiyyəti daha çox inanırdı ki, bunun da nəticəsində yerli və beynəlxalq formatlı jurnalistlərin, informasiya mərkəzlərinin əsl reallıqları dərindən və geniş işıqlandırması sayəsində Bakıda və rayonlarda törədilmiş amansız qırğınlar haqqında ətraflı məlumatlar yayıldı.

Heydər Əliyev bu bəyanatda dinc şəkildə etiraz səsini qaldıran Azərbaycan xalqına qarşı törədilmiş qırğınlara görə hakimiyyətdən və partiya sıralarından istefa verdiyini bildirməklə təqiblərə məruz qalacağının fərqində idi. O, xalqımızın tarixinin ağır dönəmlərini yaxşı bilirdi və hər bir dövrdə mübariz insanların Vətən uğrunda, azadlıq uğrunda canlarını belə qurban verməyə hazır olduqlarına əmin idi. Dahi lider nəyin bahasına olursa-olsun həqiqəti beynəlxalq aləmə çatdırmağın labüdlüyünü başa düşürdü və bunu kiminsə edə biləcəyini gözləmədən bu missiyanı öz üzərinə götürdü.

Heydər Əliyev onu da yaxşı dərk edirdi ki, məhz belə taleyüklü məqamlarda düzgün səmti seçə bilməyən xalqlar və millətlər daha ağır boyunduruğa keçmək məcburiyyətinə salınır və gələcəklərini daha məşəqqətli şərtlər altında yaşamalı olurlar. Ağıllı siyasətçi kimi dərk edirdi ki, imperialist siyasətə qarşı açıq və qəti mübarizədə doğma Azərbaycanın, sevimli xalqının yanında olmalıdır.

Bununla da canını qurban verməkdən çəkinməyən, qanını bu torpağa halal edən xalqın azadlıq mücadiləsi yeni mərhələyə qədəm qoydu. Heydər Əliyevin mübarizə meydanına gəlişi ilə siyasətdən uzaq siyasətbazların, hərbdən anlamı olmayan komutanların, yalançı bəyzadələrin ürəyi azadlıq eşqilə çırpınan vətənpərvərlərin nahaq güllələrə qurban getmələrinə, mənasız çəkişmə və dava-dalaşlara sürüklənmələrinə son qoyuldu.

Xatırladaq ki, Azərbaycana qədər "antisovet təbliğatına" qarşı bu cür cəza tədbirləri Pribaltika və Gürcüstanda da həyata keçirilmişdi. Əhalinin gözünü qorxutmaq ənənəsi on illərlə SSRİ rəhbərliyinin söykəndiyi ən məşhur və sınanılmış "anlaşma mexanizmi" sayılırdı. Baş vermiş cinayətlər SSRİ təbliğat maşınında süzgəcdən keçirildikdən sonra geniş kampaniyalarla millətlərin, xalqların şüuruna yeridilirdi. Lakin 20 yanvar faciəsindən fərqli olaraq, əvvəlki qırğınların baş verdiyi ölkələrdə Heydər Əliyev kimi qətiyyətli lider olmamışdı ki, qırğınların əsl mahiyyətini dünyaya bəyan edə bilsin, sinəsini irəli verərək onu "günahlandıran"ların cavabını açıq və qəti şəkildə üzlərinə çırpsın, ən başlıcası isə sovet irtica maşınının izləməsindən, məhvedici hərəkətlərindən yaxa qurtararaq öz xalqının xilaskarına çevrilsin!

Heydər Əliyevin bəyanatı Kremlin planlarını alt-üst etdi. Ümummilli Liderin faciənin bilərəkdən törədildiyini, insanların qəsdən və xüsusi amansızlıqla öldürüldüyünü, bu cür amansızlığa, qətllərə ehtiyac olmadığını geniş ictimaiyyətə çatdırması, qırğının baş verməsini ölkə və respublika rəhbərlərinin bütün mövcud imkanlardan istifadə etmədikləri, onların məkrli siyasəti və səriştəsiz idarəçilik qabiliyyəti, xalq faktorunu və dövlətçilik maraqlarını nəzərə almamaları ilə əlaqələndirməsi dünyaya daha çox inandırıcı gəlirdi.

Bu prosses hələ əliqanlı qatilin bütün sovet məkanına hökm elədiyi, öldürdüyünü öldürdüyü, aradan itirdiklərinin heç vaxt üzə çıxmayacaqları, həbs elədiklərinin dünyanın ən qaranlıq, əlçatmaz zindanlarda çürütdükləri bir zamanda baş verirdi. Heydər Əliyev cəsarətlə bu sözləri cinayətkarların üzünə deyirdi. Moskvada verdiyi bəyanatında 20 Yanvar faciəsinə görə günahkar olanların cəzalandırılması tələbi də qəti şəkildə irəli sürülürdü. Bir tərəfdən faciədə əsas baiskarların ölkə və respublika rəhbərliyi olduğu bütün dünyaya bəyan edilir, digər tərəfdən günahkarların cəzalandırılması tələb olunurdu. SSRİ rəhbərliyini ittiham konkret fakt, dəlil və sübutlarla izah olunur və onların mühakiməsinin qanunauyğunluğu hüquqi cəhətdən əsaslandırılırdı.

Bu fikirləri səsləndirəndə Heydər Əliyev bəlkə də Azərbaycana qayıtmaq haqda düşünmürdü. Lakin Kremlin məkrli siyasətini dərindən təhlil edən, respublikada hakimiyyət çəkişmələrinin parçalanmaya gətirib çıxara biləcəyi ehtimalı, ən qorxulusu isə ermənilərin tarixi məqamlardan istifadə edərək Qarabağı ilhaq etməklə torpaqlarımızı ələ keçirməsi təhlükəsi, Naxçıvana əsassız iddialar ən real addımın atılması zərurətini yaratdı. Bu reallıq isə Heydər Əliyevin təcili olaraq Bakıya, oradan da doğulub boya-başa çatdığı Naxçıvana getməsini zəruri etdi.

Beləliklə, "müstəqil mübarizənin manifesti" cinayətkarların ittiham aktı olmaqla yanaşı, həm də Azərbaycan dövlətçiliyinin, milli maraqlarının perspektivlərini müəyyən edən mühüm tarixi sənəddir.

Təəssüf ki, Kremlin qanlı caynaqları Azərbaycana uzadılmaqla yanaşı, sovetlər dövründə özünü, ruhunu, mənliyini, milliliyini yadlara satmış mənfur rüşeymlər hələ də öz bəd niyyətləri ilə suyu bulandırmaqda davam edirdilər. Belə bir zamanda Heydər Əliyevin paytaxt Bakıda qalması mümkünsüz idi. Yüksək rəhbər pillələrdə fəaliyyəti zamanı qazandığı təcrübə ilə Qorbaçovun yırtıcı hakimiyyətindən gələn təhlükələri hiss edərək, sözsüz ki, özünü fəda edən insanların (ruhları şad olsun!) səyləri nəticəsində hiss olunmadan doğma Naxçıvana gedə bildi. Naxçıvanda yüksək coşqu və gül-çiçəklərlə qarşılanan Heydər Əliyev muxtar respublikada, o cümlədən bütöv Azərbaycanda yaranmış vəziyyəti düzgün qiymətləndirərək siyasi fəaliyyətini burada, milli qürurunu və vətənpərvərliyini mərkəzdən gizlətmədən, aşkarcasına həyata keçirməyə başladı. İlk növbədə muxtar respublikanı yadelli silahlı birləşmələrdən təmizləmək lazım gəlirdi. Bu o zaman idi ki, SSRİ-nin süqutu ilə bağlı ittifaqa məxsus ölkəmizin ərazisində olan silah və sursatın Azərbaycan və Rusiya arasında 50-nin 50-yə prinsipi ilə bölünməsi haqqında razılaşma əldə olunmuşdu və digər bölgələrdə sərhədlərin və hərbi təsisatların milliləşməsi bu razılaşmaya uyğun həyata keçirilirdi. Əslində isə ən yaxşı hərbi texnika, silah və sursat Rusiyanın Ermənistandakı bazalarına daşınır, köhnə, sınıq-salxaq hərbi texnika isə ölkəmizə təhvil verilirdi.

Bu ədalətsiz bölgü təkcə Naxçıvan Muxtar Respublikası ərazisindəki hərbi hissələrdə kağız üzərində qaldı. Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin Sədri kimi Rusiya nümayəndələri ilə görüşündə bildirdi ki, bu hərbi texnika, silah və sursatın əldə olunmasında Azərbaycanın da müttəfiq respublika olaraq öz payı var. Təkidli söhbətlər nəticəsində bütün silah-sursat və hərbi texnika öz hərbçilərimizə təhvil verildi. Müstəqillik dövründə ölkənin müdafiə qüdrətinin artırılmasında, torpaqlarımıza gözünü dikmiş daşnaklara layiqli cavab verilməsində və nəhayət, möhtəşəm Zəfər salnaməsinin yazılmasında Naxçıvan hərbi qarnizonlarının və şəxsi heyətinin şücaətləri danılmazdır. Muxtar respublikanın, sonradan bütöv ölkənin müdafiəsi və təhlükəsizliyi ən vacib məsələ kimi məhz Ulu Öndərimizin qətiyyətli addımları və qəbul etdiyi müdrik qərarları sayəsində təmin edildi.

Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə qısa bir zamanda dini bir, qanı bir olan Türkiyə və Azərbaycan arasında Ümid körpüsünün açılması ən çətin günlərdə Naxçıvan əhalisinin sözün əsl mənasında ümid yerinə çevrildi, dostluğumuzun, qardaşlığımızın, gələcək birgə uğurlu fəaliyyətimizin, möhtəşəm zəfərlərimizin qazanılması yolunda körpü oldu.

Heydər Əliyev dünyaşöhrətli siyasət adamı, strateq lider idi. O, bütün potensialını ümumbəşəri ideyalara xidmətə sərf etmək istəyirdi. Lakin mayası yalanla yoğrulan, qəsdlər, irticalar, iftiralar üzərində təşəkkül tapan, ölkəni millətlər zindanına çevirməyi qarşıya məqsəd qoyan sovet imperializmi bu cür insanlarla yollaşmadığını bir daha təsdiqləməklə özünü məhvə sürüklədi.

Azərbaycan isə Ümummilli Liderin və onun layiqli varisi İlham Əliyevin müdrik siyasəti nəticəsində torpaqları azad, müstəqil, yüksək iqtisadi tərəqqiyə və sosial rifaha malik bir ölkə kimi inkişaf edir və edəcəkdir!

*Mahir CAVADOV,*
*AMEA Folklor İnstitutunun şöbə müdiri*



## Heydər Əliyev erası davam edir

**2023-cü il Azərbaycanda "Heydər Əliyev İli", Ulu Öndərin 100 illik yubileyi ili idi. İlboyu Ümummilli Liderin xatirəsinə həsr olunmuş çoxsaylı tədbirlər keçirildi, bu dahi şəxsiyyətin Vətəni və xalqı qarşısındakı misilsiz xidmətləri dönə-dönə xatırlandı. İllər keçir və biz Ulu Öndəri yalnız rəsmi tədbirlərdə, tarixi günlərdə deyil, daim yad edirik. O böyük Lider, o dahi İnsan hər il, hər gün bizimlədir. Öz xeyirxah əməlləri, qurub-yaratdıqları, nəsihətləri ilə...**

Yenə də illər keçəcək və həmişə belə olacaq. Müdrik Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə, Ulu Öndər Heydər Əliyevin göstərdiyi yolla inamla irəliləyərək yeni-yeni qələbələr qazanacaq, daha yüksək zirvələrə çatacağıq.

Bu gün müstəqil Azərbaycan Respublikası Heydər Əliyevin qoyduğu möhkəm təməl üzərində inkişaf edərək gündən-günə ucalır. Bunu bütün sahələrdə əyani görmək mümkündür. O cümlədən iqtisadi sahələrdə də. Hər yerdə Ulu Öndərin Azərbaycana rəhbərliyinin hər iki dövründə tikilən-qurulan yaşayış binalarına, müəssisələrə, səhiyyə, təhsil, mədəniyyət obyektlərinə rast gəlirik. Sovet dönəmində, bir zavodun, fabrikin inşası üçün də Moskvanın icazə "qolu"nun mütləq olduğu zamanda Heydər Əliyev respublikamızda onlarca möhtəşəm sənaye müəssisəsi tikdirdi. Bu, həmin vaxt yalnız Ulu Öndərin səyi, mübarizəsi və siyasi nüfuzu sayəsində mümkün olmuşdu. Azərbaycanın müstəqilliyi dövründə bu işlər nəhəng layihələrlə davam etdirildi. Ən başlıcası həm də odur ki, bunların hamısı sabaha, gələcəyə hesablanmışdı və biz indi onların bəhrəsini görürük.

Ümumiyyətlə, Heydər Əliyevin respublikaya rəhbərlik etdiyi 1969-1982-ci illər tikinti sahəsinin intensiv inkişaf dövrü olmuşdur. Tikinti kompleksinin inkişafında Ulu Öndərin 1971-ci ilin iyul ayında keçirdiyi Azərbaycan KP MK-nın plenumu xüsusi rol oynamışdır. Heydər Əliyevin rəhbərliyi dövründə tikinti sektorunda uzun müddət məsul vəzifələrdə çalışmış və hazırda Azərbaycan İnşaat və Memarlıq Elmi-Tədqiqat İnstitutunun şöbə müdiri olan iqtisadiyyat üzrə fəlsəfə doktoru Eldar Nuriyev həmin illəri belə xatırlayır: "İlk növbədə tikintinin idarə olunmasının təkmilləşdirilməsinə dair təşkilati tədbirlərin görülməsi tələb olunurdu. Ümummilli Lider bu məqsədlə Tikinti Nazirliyinin bazasında Sənaye Tikinti Nazirliyini yaratdı. Sənaye və Kənd Tikinti nazirliklərinin, aparıcı podrat təşkilatların rəhbərlərini yeni, bacarıqlı kadrlarla əvəz etdi, bütün sifarişçi nazirlik və idarələrdə tikinti üzrə müavin vəzifəsi yaratdı. Bakı Baş Tikinti İdarəsi müstəqil təşkilat kimi fəaliyyətə başladı. Sahədəki vəziyyət vaxtaşırı müzakirə olunurdu. Ulu Öndər hər il ümumi sahəsi 1 milyon kvadratmetr olan yaşayış evlərinin istifadəyə verilməsini qarşıya bir vəzifə kimi qoymuşdu. Bunun üçün təkcə Bakı Baş Tikinti İdarəsi deyil, şəhərdəki bütün tikinti idarələri gərgin işləyirdi. Tikinti-quraşdırma işləri iki, bəzən üç növbədə aparılırdı. Əmək kollektivləri arasında böyük ruh yüksəkliyi vardı".

İnşaat kompleksində görülən işlərin hamısı Ulu Öndərin diqqət mərkəzində idi. Buna görə də tikintidə göstəricilər dəfələrlə artmışdı. Kür su kəməri, "Neftçilər" və "Nizami" metrostansiyaları, Yeni Bakı Neftayırma Zavodunun emal kompleksi, Bakı Məişət Kondisionerləri Zavodu və daha onlarca müəssisə və obyekt məhz bu dövrdə inşa edildi. Kür su kəməri əsl ümumxalq tikintisinə çevrilmişdi, odur ki, qısa müddətdə istifadəyə verildi, nəticədə Bakı və Sumqayıt şəhərlərinin su təchizatı xeyli yaxşılaşdı.

Ulu Öndər Heydər Əliyevin tikinti sahəsində həyata keçirdiyi quruculuq işləri də məhz sabaha hesablanmışdı. Götürək elə Ulu Öndərin əvəzsiz yadigarlarından biri olan Bakı Dərin Özüllər Zavodunu (BDÖZ). İndi Ümummilli Liderin adını şərəflə daşıyan bu müəssisə olmasaydı, Azərbaycanın nəhəng neft-qaz layihələrinin hər biri illərlə ləngiyərdi. BDÖZ-ün Bakıda tikilməsi məhz Heydər Əliyevin gərgin mübarizəsi ilə mümkün olmuşdur. SSRİ dövründə tikilən bu zavod müstəqillik illərində, "Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan üçün daha gərəkli oldu.

2003-cü il noyabrın 24-də Prezident İlham Əliyev BDÖZ-ün 25 illik yubileyi münasibətilə düzənlənən tədbirin sonunda jurnalistlərin suallarını cavablandırarkən zavodun tarixini bir daha xatırladı, əhəmiyyətini vurğuladı: "Bu zavod elə-belə zavod deyil, onun yaradılması da tarixi hadisədir. Burada deyildi, əgər 25 il əvvəl bu zavod Azərbaycanda tikilməsəydi, bəlkə də bu layihələr belə uğurla həyata keçirilməzdi. İlk növbədə burada görülən işlərin sürəti azaldılacaqdı, yeddi il yubanma ola bilərdi. Ümumi xərclər 700 milyon dollar arta bilərdi. Əlbəttə, zavodun Azərbaycanda tikilməsi məhz o vaxt Heydər Əliyevin fəaliyyəti nəticəsində olubdur. O vaxt mərkəzi hökumət bu zavodu Həştərxan şəhərində tikmək qərarına gəlmişdi. Amma Heydər Əliyevin müdaxiləsindən sonra zavod Azərbaycanda tikildi. Bu gün burada 3500 azərbaycanlı işləyir, yüksək maaş alır... Neft sektoru uğurla inkişaf edir. Neft sektorunda əldə olunan nəticələr ancaq cənab Prezident Heydər Əliyevin adı ilə bağlıdır. Əgər o, gərgin vaxtlarda təşəbbüs, qətiyyət göstərməsəydi, bu layihələr elə layihə olaraq qalacaqdı".

Prezident İlham Əliyev bu tədbirdən sonra da dəfələrlə BDÖZ-də olub, ötən 20 il ərzində burada həyata keçirilən möhtəşəm layihələrə xeyir-dua verib.

Ulu Öndərin qurub-yaratdıqları hər yanda görünməkdədir. O dövrdə kənd təsərrüfatı obyektlərinin tikintisinə də xüsusi diqqət yetirilirdi. Belə ki, Şəki, Salyan rayonlarında, Bakının Binə və Ramana qəsəbələrində ilk dəfə olaraq heyvandarlıq kompleksləri istifadəyə verilmişdi.

Moskvada rəhbər vəzifələrdən birində işlədiyi - SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini olduğu zaman da Ulu Öndər Azərbaycandan köməyini əsirgəmədi. Xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə qayıtdıqdan sonra respublikanın inşaat kompleksinə, eləcə də tikintinin maddi-texniki bazasının sürətlə inkişaf etdirilməsinə xüsusi diqqət ayırdı. Tikintidə bazar münasibətlərinə keçidlə bağlı geniş proqram hazırlandı, sahədə əhəmiyyətli islahatlar aparıldı.

Heydər Əliyevin qurub-yaradan bir lider olduğu bütün dünyaya məlumdur. Bu barədə çox danışılıb, çox yazılıb və bundan sonra da yeni tədqiqatlar aparılacaq, mövzu dönə-dönə işıqlandırılacaq. Bununla belə Ulu Öndərin müəllifi olduğu möhtəşəm bir layihənin - üçüncü minilliyin nəhəng mühəndis qurğusu Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin adını çəkmək istərdik. Bu kəmərin çəkilişi də məhz Heydər Əliyevin gərgin mübarizəsi və dünyadakı siyasi nüfuzu sayəsində mümkün olmuşdur.

Bu gün Azərbaycanın çəkdiyi beynəlxalq yolların və dəhlizlərin, tikdiyi hava və ticarət limanlarının, saldığı körpülərin başlanğıcında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan kəməri dayanır. Prezident İlham Əliyev 2006-cı ildə BTC tam sistem kimi istifadəyə verilərkən onun mühüm əhəmiyyət daşıdığını qeyd edərək deyib: "Bu kəmərin fəaliyyətə başlaması ilə Azərbaycanın qarşısında yeni üfüqlər açılır, yeni imkanlar açılır. Azərbaycan iqtisadi cəhətdən çox zəngin ölkəyə çevriləcəkdir. Ölkədə bütün sosial problemlər öz həllini tapacaqdır. Azərbaycan çox önəmli neft ixrac edən ölkəyə çevrilir. Əminəm ki, neftdən əldə olunan gəlirlərdən istifadə edilməklə Azərbaycanda bütün sosial məsələlər qısa müddət ərzində öz həllini tapacaq və Azərbaycan dünya iqtisadiyyatına daha inamla inteqrasiya edəcəkdir".

İndi bunların hamısı bir reallıqdır. Heydər Əliyevin uğurlu başlanğıcını, möhkəm bünövrəsini qoyduğu yeni neft strateqiyası ölkəmizi çox irəliyə aparıb. Bu strategiyanı müdrikliklə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı qaz ixrac edən ölkəyə, Avropanın əsas qaz təchizatçılarından birinə çevirib.

Ulu Öndər uzaqgörənliklə "Gördüyümüz işlər Azərbaycanın gələcəyi üçündür" demişdi. O işlərin bəhrəsini bugünkü həyatımızda aydın görürük. Odur ki, nə qədər Azərbaycan var - Heydər Əliyev də var olacaq!

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Qiymətləndirmə fəaliyyəti haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci, 10-cu və 11-ci bəndlərinə uyğun olaraq, Azərbaycan Respublikasında qiymətləndirmə fəaliyyətinin həyata keçirilməsinin təşkilati, iqtisadi və hüquqi əsaslarını müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Əsas anlayışlar**

1.1. Bu Qanunun məqsədləri üçün aşağıdakı əsas anlayışlardan istifadə edilir:

1.1.1. **qiymətləndirmə fəaliyyəti -** bu Qanunla müəyyən edilmiş hallarda, habelə sifarişçinin müəyyən etdiyi məqsədlər üçün qiymətləndirmə obyektinin dəyərinin qiymətləndirici tərəfindən müəyyən edilməsi üzrə fəaliyyət;

1.1.2. **qiymətləndirici -** bu Qanunla müəyyən edilmiş tələblərə cavab verən, qiymətləndirmə fəaliyyətini həyata keçirmək hüququnu əldə edən və Qiymətləndiricilər Palatasının üzvü olan fiziki şəxs;

1.1.3. **qiymətləndirici təşkilat -** əsas fəaliyyət sahəsi qiymətləndirmə fəaliyyəti olan və qiymətləndirmə fəaliyyətinin istiqaməti (istiqamətləri) üzrə ixtisaslaşmış kommersiya hüquqi şəxsi;

1.1.4. **qiymətləndirmə obyekti -** qiymətləndirilməsi normativ hüquqi aktlarda nəzərdə tutulan və ya sifarişçi tərəfindən qiymətləndirməyə təqdim edilən istənilən maddi və ya qeyri-maddi əmlak;

1.1.5. **sifarişçi -** mülkiyyətində və ya istifadəsində olan qiymətləndirmə obyektinin qiymətləndirilməsi məqsədilə qiymətləndirici və ya qiymətləndirici təşkilatla bağladığı qiymətləndirmə haqqında müqavilə əsasında qiymətləndirmə xidmətinin son istehlakçısı olan fiziki və ya hüquqi şəxs.

1.2. Bu Qanunda istifadə olunan digər anlayışlar Azərbaycan Respublikasının normativ hüquqi aktları ilə müəyyən edilmiş mənaları ifadə edir.

**Maddə 2. Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi**

Qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyi Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

**Maddə 3. Bu Qanunun tətbiq dairəsi**

3.1. "İcbari sığortalar haqqında" Azərbaycan Respublikası Qanununun 16.4-cü maddəsi ilə müəyyən edilmiş hal və icbari sığorta növləri üzrə sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalanmış dövlət və bələdiyyə əmlakına dəyən zərərin müəyyən edilməsi halı istisna olmaqla, bu Qanun "Sığorta fəaliyyəti haqqında" və "Aqrar sığorta haqqında" Azərbaycan Respublikasının qanunları ilə tənzimlənən sığorta sinifləri üzrə əmlak, risk və zərərlərin qiymətləndirilməsində tətbiq olunmur.

3.2. Bu Qanun Azərbaycan Respublikasının Mülki Məcəlləsi, Azərbaycan Respublikasının Vergi Məcəlləsi, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu və digər normativ hüquqi aktların tələblərindən irəli gələrək dövlət müəssisə və təşkilatlarının, habelə nizamnamə kapitalında dövlətin payı olan müəssisələrin balansında olan yararsız hala düşmüş, həmçinin oğurlanmış və ya naməlum şəkildə itmiş əsas vəsaitlərin (fondların) silinməsi və bu vəsaitlərin söküntüsündən əldə edilən material qiymətlilərinin satışı, həmçinin "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tələblərindən irəli gələrək aktiv və öhdəliklərin inventarizasiyası, habelə "Qiymətli metallar və qiymətli daşlar haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq qiymətli metal külçələrinin qiymətləndirilməsi zamanı tətbiq olunmur.

3.3. Ələt Azad İqtisadi Zonasında qiymətləndirmə fəaliyyəti sahəsində münasibətlər "Ələt Azad İqtisadi Zonası haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq tənzimlənir.

**Maddə 4. Qiymətləndirmə fəaliyyətinin istiqamətləri**

4.1. Qiymətləndirmə fəaliyyəti aşağıdakı istiqamətlərdə həyata keçirilir:

4.1.1. daşınar əmlakın (maşın və avadanlıqların, nəqliyyat vasitələrinin, heyvan və bitkilərin və s.) qiymətləndirilməsi;

4.1.2. daşınmaz əmlakın, o cümlədən torpaq sahələrinin qiymətləndirilməsi;

4.1.3. daşınar və daşınmaz mədəni irs nümunələrinin, mədəni sərvətlərin, tarix, mədəniyyət və təbiət abidələrinin qiymətləndirilməsi;

4.1.4. müəssisələrin qiymətləndirilməsi;

4.1.5. qeyri-maddi əmlak nemətlərinin (əqli mülkiyyət hüququ obyektlərinin, hüquqi şəxslərin nizamnamə kapitalında (fondunda) və ümumi əmlakda paylarının və qiymətli kağızlarının, habelə tələblərin və hüquqların) qiymətləndirilməsi;

4.1.6. kreditor borcların və digər öhdəliklərin, debitor borcların, material ehtiyatlarının və digər aktivlərin qiymətləndirilməsi;

4.1.7. təbii sərvətlərin qiymətləndirilməsi;

4.1.8. dəymiş zərərin, əldən çıxmış mənfəətin və risklərin qiymətləndirilməsi;

4.1.9. xidmətlərin qiymətləndirilməsi;

4.1.10. digər qiymətləndirmə obyektlərinin qiymətləndirilməsi.

### 2-ci fəsil
### QİYMƏTLƏNDİRMƏ FƏALİYYƏTİNİN HƏYATA KEÇİRİLMƏSİ

**Maddə 5. Qiymətləndirmə fəaliyyətinin həyata keçirilməsi üçün tələblər**

5.1. Bu Qanunun 5.2-ci maddəsi nəzərə alınmaqla, ali təhsilə və 3 (üç) ildən az olmayan ümumi iş stajına malik olan, ixtisas imtahanını müvəffəqiyyətlə vermiş və Qiymətləndiricilər Palatasının üzvü olan şəxs qiymətləndirici ola bilər.

5.2. Qəsdən ağır və xüsusilə ağır cinayət, habelə xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olmayaraq korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayət, həmçinin iqtisadi sahədə cinayət törətməyə görə məhkumluğu ödənilməmiş və ya götürülməmiş, barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsi haqqında qanuni qüvvəyə minmiş məhkəmə qərarı olan şəxslər qiymətləndirici ola bilməzlər.

5.3. Qiymətləndirici öz fəaliyyətini müstəqil və ya qiymətləndirici təşkilatla bağladığı əmək müqaviləsi əsasında həyata keçirir.

5.4. Qiymətləndiricilər Palatasında akkreditasiyadan keçən qeyri-rezident fiziki şəxslər Azərbaycan Respublikasının ərazisində qiymətləndirmə fəaliyyəti ilə məşğul ola bilərlər. Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydasını və həmin şəxslərə dair tələbləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) müəyyən edir.

**Maddə 6. Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanının təşkili və keçirilməsi**

6.1. Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanları yazılı testdən ibarət olmaqla, qiymətləndirmə fəaliyyətinin istiqamətləri üzrə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təşkil edilir və keçirilir.

6.2. Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq istəyən və bu Qanunun 5.1-ci və 5.2-ci maddələrində nəzərdə tutulmuş tələblərə uyğunluğu müəyyən edilmiş şəxslər ixtisas imtahanlarında iştirak edə bilərlər. İxtisas imtahanlarında iştirak ödənişlidir. İxtisas imtahanlarında iştirak etmək üçün ödənişin məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

6.3. İxtisas imtahanının nəticələri barədə məlumat müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) rəsmi internet səhifəsində yerləşdirilir.

6.4. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) imtahan nəticələri elan edildikdən sonra 5 (beş) iş günü müddətində imtahanı müvəffəqiyyətlə vermiş namizədə qiymətləndirmə fəaliyyətinin müvafiq istiqaməti üzrə ixtisas şəhadətnaməsi verir. İxtisas şəhadətnaməsinin verilməsi üçün haqq tutulmur.

6.5. İxtisas imtahanından keçməyən şəxslərin qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün keçirilən imtahanlarda təkrar iştirak etmək hüququ vardır.

6.6. İxtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi qaydaları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

**Maddə 7. Qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün Qiymətləndiricilər Palatasına üzvlüyə qəbul**

7.1. Bu Qanunun 6-cı maddəsində nəzərdə tutulmuş qaydada ixtisas şəhadətnaməsini almış şəxs üzvlüyə qəbul edilmək üçün Qiymətləndiricilər Palatasının Rəyasət Heyətinə ərizə ilə müraciət edir. Ərizəyə ixtisas şəhadətnaməsinin surəti və qiymətləndiricinin peşə məsuliyyətinin sığorta şəhadətnaməsi əlavə olunur. Müraciət edən şəxsdən əlavə sənədlər tələb edilə bilməz.

7.2. Qiymətləndiricilər Palatasının Rəyasət Heyəti ərizə daxil olduqdan 5 (beş) iş günü müddətində müraciət edən şəxsin Palatanın üzvlüyünə qəbul edilməsi haqqında qərar qəbul edir, ona üzvlük vəsiqəsini təqdim edir və onun haqqında məlumatları Qiymətləndiricilər Palatası üzvlərinin reyestrinə daxil edir.

7.3. Bu Qanunun 7.2-ci maddəsində nəzərdə tutulmuş üzvlük vəsiqəsinin forması Qiymətləndiricilər Palatasının Rəyasət Heyəti tərəfindən təsdiq edilir. Üzvlük vəsiqəsində qiymətləndiricinin ixtisas şəhadətnaməsinin (şəhadətnamələrinin) nömrəsi, bu Qanunun 4-cü maddəsinə uyğun olaraq qiymətləndirmə fəaliyyətinin istiqaməti (istiqamətləri) qeyd edilir.

**Maddə 8. Məcburi qiymətləndirmə halları**

8.1. Dövlət və bələdiyyə əmlakı özgəninkiləşdirildikdə, icbari sığorta növləri üzrə sığorta hadisəsinin baş verməsi nəticəsində sığortalanmış dövlət və bələdiyyə əmlakına dəyən zərər müəyyən edildikdə, dövlət mülkiyyətində olan əsas fondlar yenidən qiymətləndirildikdə, habelə qanunda və ya məhkəmə qərarı ilə nəzərdə tutulmuş digər hallarda qiymətləndirmə obyektinin məcburi qiymətləndirilməsi həyata keçirilir.

8.2. Məcburi qiymətləndirmə 3 (üç) ildən az olmayan müddətdə Qiymətləndiricilər Palatasının üzvü olan və ya Qiymətləndiricilər Palatasında akkreditasiyadan keçən qiymətləndirici tərəfindən aparıla bilər.

**Maddə 9. Qiymətləndirmə üçün əsas**

9.1. Bu Qanunun 9.2-ci maddəsi nəzərə alınmaqla qiymətləndirmə sifarişçi ilə qiymətləndirici və ya qiymətləndirici təşkilat arasında Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq yazılı formada bağlanılan müqavilə əsasında həyata keçirilir. Qiymətləndirmə haqqında müqavilədə azı aşağıdakı məlumatlar göstərilməlidir:

9.1.1. qiymətləndirmə fəaliyyətinin istiqamətindən, növündən və xüsusiyyətlərindən asılı olaraq qiymətləndirmə obyektinin adı, yerləşdiyi ünvan (yer), təsviri, habelə həmin qiymətləndirmə obyektinin dövlət reyestrlərində qeydiyyatı barədə məlumat (olduğu halda);

9.1.2. qiymətləndirmə aparılarkən istifadə olunan qiymətləndirmə üzrə yanaşma və metodlar;

9.1.3. qiymətləndirmənin aparılması üçün xidmət haqqının məbləği və ödənilməsi qaydası;

9.1.4. sifarişçi hüquqi şəxs olduqda onun adı, hüquqi ünvanı və bank rekvizitləri, VÖEN-i, fiziki şəxs olduqda onun soyadı, adı, atasının adı, yaşayış yeri barədə məlumat və olduğu halda VÖEN-i;

9.1.5. müqavilə qiymətləndirici ilə bağlandıqda qiymətləndiricinin soyadı, adı, atasının adı, fəaliyyət göstərdiyi ünvan və VÖEN-i;

9.1.6. müqavilə qiymətləndirici təşkilatla bağlandıqda qiymətləndirici təşkilatın adı, hüquqi ünvanı, bank rekvizitləri və VÖEN-i, qiymətləndiricinin soyadı, adı, atasının adı və fəaliyyət göstərdiyi ünvan;

9.1.7. qiymətləndiricinin ixtisas şəhadətnaməsinin verilmə tarixi, nömrəsi;

9.1.8. tərəflərin hüquqları, öhdəlikləri və məsuliyyəti;

9.1.9. qiymətləndirmə aparılarkən əldə olunan məlumatların və sənədlərin, habelə qiymətləndirmənin nəticələrinin konfidensiallığının təmin olunması şərtləri;

9.1.10. qiymətləndirmənin aparılması və nəticələri ilə bağlı yaranan mübahisələrin həlli qaydası.

9.2. Qanunla müəyyən edilən hallarda qiymətləndirmə məhkəmənin və ya inzibati orqanın qiymətləndirmənin təyin olunması haqqında qərarı və icra məmurunun sifarişi əsasında da aparıla bilər. Qiymətləndirməni təyin (sifariş) edən orqan və ya vəzifəli şəxs qiymətləndiricini bu Qanunun tələblərinə uyğun olaraq qiymətləndirmə obyektinin mülkiyyətçisi ilə razılaşdırmaqla seçir. Belə razılıq əldə olunmazsa, qiymətləndirici Qiymətləndiricilər Palatası tərəfindən müəyyən edilir.

**Maddə 10. Qiymətləndirmənin nəticələri haqqında hesabat**

10.1. Qiymətləndirici tərəfindən qiymətləndirmənin nəticələri haqqında iki nüsxədə hesabat tərtib edilir. Hesabatın bir nüsxəsi sifarişçiyə verilir, ikinci nüsxəsi isə qiymətləndiricidə saxlanılır.

10.2. Qiymətləndirmənin nəticələri haqqında hesabatda azı aşağıdakı məlumatlar göstərilməlidir:

10.2.1. hesabatın tərtib olunma tarixi;

10.2.2. qiymətləndirmənin aparıldığı müddət və qiymətləndirmə obyektinin dəyərinin müəyyən edildiyi tarix;

10.2.3. bu Qanunun 4-cü maddəsi nəzərə alınmaqla qiymətləndirmə obyektinin (obyektlərinin) adı, yerləşdiyi ünvan (yer), təsviri (foto və ya videomateriallar), dövlət reyestrlərində qeydiyyatı barədə məlumat (olduğu halda);

10.2.4. qiymətləndirmənin aparılması üçün əsas;

10.2.5. qiymətləndirmə aparılarkən istifadə olunan qiymətləndirmə üzrə yanaşma və metodlar, onlardan istifadənin əsaslandırılması;

10.2.6. qiymətləndiricinin soyadı, adı, atasının adı, fəaliyyət ünvanı və VÖEN-i, qiymətləndirici təşkilatın adı, hüquqi ünvanı, bank rekvizitləri və VÖEN-i;

10.2.7. qiymətləndiricinin ixtisas şəhadətnaməsinin verilmə tarixi və nömrəsi;

10.2.8. qiymətləndirmə aparılarkən istifadə olunan məlumatların, o cümlədən qiymətləndirmə obyektinin kəmiyyət və keyfiyyət göstəricilərini müəyyən edən sənədlərin siyahısı və onların əldəolunma mənbələri;

10.2.9. qiymətləndirmə obyektinin dəyərinin yekun məbləği.

10.3. Qiymətləndirmənin nəticələri haqqında hesabat qiymətləndirici tərəfindən imzalanır, müqavilə qiymətləndirici təşkilatla bağlandığı halda, həmçinin həmin təşkilatın möhürü ilə təsdiq edilir.

10.4. Qiymətləndirmənin nəticələri haqqında hesabatda qiymətləndirilən obyektin dəyərinin həqiqiliyi ilə əlaqədar mübahisələrə məhkəmə tərəfindən baxılır. Hesabatda qiymətləndirmə obyektinin dəyərinin yekun göstəricisi məhkəmə qaydasında ləğv edilmədikdə, həqiqi hesab olunur.

10.5. Qiymətləndirmənin nəticələri haqqında hesabat maliyyə, statistik uçot və digər hesabatlarda istifadə edilə bilər.

### 3-cü fəsil
### QİYMƏTLƏNDİRİCİNİN, QİYMƏTLƏNDİRİCİ TƏŞKİLATIN VƏ SİFARİŞÇİNİN HÜQUQLARI VƏ VƏZİFƏLƏRİ

**Maddə 11. Qiymətləndiricinin və qiymətləndirici təşkilatın hüquqları**

11.1. Qiymətləndirici və qiymətləndirici təşkilat aşağıdakı hüquqlara malikdir:

11.1.1. qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, qiymətləndirmə üzrə yanaşma və metodları müstəqil seçmək;

11.1.2. qiymətləndirmə prosesində sifarişçidən zəruri olan sənədləri tələb etmək, əlavə məlumat və izahatlar almaq;

11.1.3. qanunla qorunan sirr təşkil edən məlumatlar istisna olmaqla, qiymətləndirməni həyata keçirmək üçün zəruri hesab etdiyi hər cür məlumatı yazılı və ya şifahi formada üçüncü şəxslərdən almaq;

11.1.4. qiymətləndirmənin aparılmasına müqavilə əsasında mütəxəssisləri cəlb etmək;

11.1.5. sifarişçi müqavilə şərtlərini pozduqda və qiymətləndirmə obyekti barəsində zəruri hesab edilən məlumatları vermədikdə, habelə qiymətləndirmənin aparılması üçün təhlükəsiz və normal iş şəraiti yaratmadıqda qiymətləndirməni həyata keçirməkdən imtina etmək;

11.1.6. sifarişçidən qiymətləndirməyə görə xidmət haqqını tələb etmək.

11.2. Qiymətləndirici bu Qanunun 6-cı maddəsində müəyyən edilmiş qaydada müvafiq ixtisas şəhadətnamələrini əldə etməklə, bu Qanunun 4-cü maddəsində göstərilən bir neçə istiqamət üzrə qiymətləndirmə fəaliyyətini həyata keçirmək hüququna malikdir.

**Maddə 12. Qiymətləndiricinin və qiymətləndirici təşkilatın vəzifələri**

12.1. Qiymətləndiricinin vəzifələri aşağıdakılardır:

12.1.1. qiymətləndirmə fəaliyyətini qiymətləndirmə haqqında Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun həyata keçirmək;

12.1.2. qiymətləndirməni həyata keçirərkən sifarişçidən və ya üçüncü şəxslərdən alınmış sənədlərin və məlumatların konfidensiallığını (məxfiliyini) təmin etmək və qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla, belə məlumatları açıqlamamaq;

12.1.3. qiymətləndirmənin aparılmasına mane olan səbəblər barədə dərhal sifarişçini xəbərdar etmək;

12.1.4. sifarişçinin müraciəti əsasında qiymətləndirmənin nəticələrinin izahatını vermək və əsaslandığı normativ hüquqi aktlar barədə məlumat vermək;

12.1.5. sifarişçinin hər hansı zəruri məlumatı verməkdən imtina etməsi qiymətləndirməyə əsaslı təsir göstərərsə, qiymətləndirməni aparmaqdan imtina etmək;

12.1.6. bu Qanunun 16-cı maddəsi ilə müəyyən edilmiş məhdudiyyətlər olduqda, qiymətləndirməni aparmaqdan imtina etmək;

12.1.7. qiymətləndiricinin etik davranış qaydalarına riayət etmək, qiymətləndirməni obyektiv və keyfiyyətlə aparmaq;

12.1.8. fəaliyyəti müddətində peşə məsuliyyətini sığorta etdirmək;

12.1.9. sifarişçinin tələbi ilə Qiymətləndiricilər Palatasına üzvlük vəsiqəsini təqdim etmək;

12.1.10. qiymətləndirmənin nəticələri haqqında hesabatın nüsxəsini elektron və ya kağız daşıyıcıda 5 (beş) ildən az olmayan müddətdə saxlamaq;

12.1.11. Qiymətləndiricilər Palatasına üzvlük haqqı ödəmək;

12.1.12. əmək müqaviləsi bağladığı qiymətləndirici təşkilat haqqında məlumatı Qiymətləndiricilər Palatasına təqdim etmək.

12.2. Qiymətləndirici təşkilat əmək müqaviləsi bağladığı qiymətləndiricilər tərəfindən bu Qanunun 12.1-ci maddəsində müəyyən edilən vəzifələrin yerinə yetirilməsinə nəzarət etməli və bu Qanunun 16-cı maddəsi ilə müəyyən edilmiş məhdudiyyətlərə əməl etməlidir.

**Maddə 13. Sifarişçinin hüquqları**

13.1. Sifarişçi aşağıdakı hüquqlara malikdir:

13.1.1. qiymətləndiricini və ya qiymətləndirici təşkilatı müstəqil seçmək və onlarla qiymətləndirmə haqqında müqavilə bağlamaq;

13.1.2. qiymətləndiricidən və ya qiymətləndirici təşkilatdan qiymətləndirmənin müqavilədə göstərilən müddətdə, obyektiv və keyfiyyətlə aparılmasını tələb etmək;

13.1.3. qiymətləndirici və ya qiymətləndirici təşkilat müqavilənin şərtlərini pozduqda, onların xidmətlərindən imtina etmək;

13.1.4. qiymətləndiricidən və ya qiymətləndirici təşkilatdan qiymətləndirmə prosesində istifadə ediləcək yanaşma və metodlar barədə məlumat verilməsini tələb etmək;

13.1.5. qiymətləndiricidən Qiymətləndiricilər Palatasına üzvlük vəsiqəsini təqdim etməsini tələb etmək;

13.1.6. qiymətləndirmənin nəticələri haqqında hesabatla əvvəlcədən tanış olmaq, irad və təkliflərini əlavə etmək;

13.1.7. qiymətləndiricinin qanunazidd hərəkətləri (hərəkətsizliyi) nəticəsində vurulan zərərin ödənilməsini qiymətləndiricidən tələb etmək;

13.1.8. qiymətləndirmənin nəticələri ilə razılaşmadıqda, Qiymətləndiricilər Palatasına və məhkəməyə müraciət etmək.

**Maddə 14. Sifarişçinin vəzifələri**

14.1. Sifarişçinin vəzifələri aşağıdakılardır:

14.1.1. qiymətləndirmənin aparılması üçün zəruri olan sənədləri, o cümlədən qiymətləndirmə obyektinə dair mülkiyyət və digər əşya hüquqlarını təsdiq edən sənədləri və məlumatları qiymətləndiriciyə vaxtında və tam həcmdə təqdim etmək;

14.1.2. sifarişçi qiymətləndirmə obyektinin mülkiyyətçisi olmadıqda, qiymətləndirmə ilə bağlı məsələləri mülkiyyətçi ilə razılaşdırmaq;

14.1.3. qiymətləndirmə haqqında müqaviləyə uyğun olaraq obyektiv və keyfiyyətli qiymətləndirmənin aparılması üçün müvafiq şərait yaratmaq;

14.1.4. qiymətləndirmənin aparılması üçün qiymətləndiricinin zəruri hesab etdiyi məlumatın (qanunla qorunan sirlərə aid edilən məlumatlar istisna olmaqla) əldə olunması üçün onun tələbi ilə üçüncü şəxslərə sorğu göndərmək;

14.1.5. tərəflər arasında bağlanmış müqaviləyə uyğun xidmət haqqını ödəmək.

**Maddə 15. Qiymətləndiricinin müstəqilliyi**

Sifarişçinin və digər maraqlı şəxslərin qiymətləndiricinin fəaliyyətinə müdaxilə etməsinə yol verilmir.

**Maddə 16. Qiymətləndirmənin aparılmasına məhdudiyyətlər**

16.1. Qiymətləndirici sifarişçinin yaxın qohumu (ər, arvad, valideynlər və uşaqlar, baba-nənə və nəvələr, doğma və ögey (ümumi ata və anası olan) qardaş və bacılar), kreditoru (borclusu) və ya sığortalısı olduqda, habelə qiymətləndirici təşkilat sifarişçinin kreditoru (borclusu), sığortalısı olduqda və ya sifarişçi qiymətləndirici təşkilata Azərbaycan Respublikası Mülki Məcəlləsinin 49-1-ci maddəsi ilə müəyyən edilən aidiyyəti olan şəxs olduqda tərəflər arasında qiymətləndirmə haqqında müqavilə bağlana bilməz.

16.2. Qiymətləndiricinin qiymətləndirmə obyektinə dair qiymətləndirmə haqqında müqavilədən kənar öhdəlikləri və ya qiymətləndirmənin nəticələrinə görə maddi marağı, habelə qiymətləndirmə obyektinə dair əmlak mənafeyi olduqda onun qiymətləndirməni aparmasına yol verilmir.

**Maddə 17. Qiymətləndirməyə görə xidmət haqqı**

17.1. Qiymətləndirməyə görə xidmət haqqı qiymətləndirmə obyektinin yekun dəyərindən asılı olmamalıdır.

17.2. İcra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddi müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir və sifarişçi tərəfindən qiymətləndiriciyə və ya qiymətləndirici təşkilata ödənilir.

17.3. Bu Qanunun 17.2-ci maddəsində nəzərdə tutulan hal istisna olmaqla, qanunda başqa hal nəzərdə tutulmamışdırsa, qiymətləndirməyə görə xidmət haqqı, o cümlədən qiymətləndirmə fəaliyyətinə cəlb olunmuş mütəxəssislərin əməyi qarşılıqlı razılaşma əsasında müəyyən edilir.

### 4-cü fəsil
### QİYMƏTLƏNDİRİCİLƏR PALATASININ FƏALİYYƏTİNİN TƏŞKİLİ

**Maddə 18. Qiymətləndiricilər Palatası**

18.1. Qiymətləndiricilər Palatası qiymətləndiricilərin məcburi üzvlüyü əsasında yaradılan və fəaliyyətini özünüidarəetmə prinsipi əsasında həyata keçirən qeyri-kommersiya hüquqi şəxsdir.

18.2. Qiymətləndiricilər Palatasının üzvü olmayan şəxslər Azərbaycan Respublikasının ərazisində qiymətləndirmə fəaliyyəti ilə məşğul ola bilməzlər.

18.3. Qiymətləndiricilər Palatasının fəaliyyəti bu Qanunla və Qiymətləndiricilər Palatasının nizamnaməsi ilə tənzimlənir.

18.4. Qiymətləndiricilər Palatası:

18.4.1. qiymətləndirmə fəaliyyətinə dair qanunvericiliyin təkmilləşdirilməsinə dair təkliflər verir;

18.4.2. qiymətləndirmə üzrə yanaşma və metodları təsdiq edir;

18.4.3. bu Qanunun tələblərinə uyğun olaraq Qiymətləndiricilər Palatasına üzvlüyə qəbul edir və ya üzvlüyə xitam verir, üzvlük haqqının məbləğini və ödənilmə qaydasını müəyyən edir;

18.4.4. qiymətləndiricinin etik davranış qaydalarını təsdiq edir və üzvləri tərəfindən bu qaydaların tələblərinə riayət edilməsinə nəzarət edir;

18.4.5. qiymətləndiricilərin əlavə təhsilinin təşkili üçün tədbirlər görür;

*Ardı 7-ci səh.*

# Qiymətləndirmə fəaliyyəti haqqında

## Azərbaycan Respublikasının Qanunu

*Əvvəli 6-cı səh.*

18.4.6. dövlət orqanları (qurumları) və yerli özünüidarə orqanları, habelə qiymətləndiricilərin beynəlxalq peşə birlikləri ilə münasibətlərdə üzvlərinin mənafelərini təmsil edir;

18.4.7. üzvlərinin hüquqlarını və qanuni mənafelərini müdafiə edir;

18.4.8. hazırkı üzvlərinin və keçmiş üzvlərinin reyestrini ayrılıqda aparır və rəsmi internet səhifəsində hər bir üzvün adı, soyadı, atasının adı, iş stajı, təhsili, ixtisas şəhadətnaməsinin və qiymətləndiricinin peşə məsuliyyətinin sığorta şəhadətnaməsinin mövcudluğu və sığortaçı barədə məlumatları yerləşdirir;

18.4.9. üzvlərinin fəaliyyəti ilə bağlı sifarişçilərin və digər şəxslərin müraciətlərinə baxır;

18.4.10. üzvlərinə bu Qanunla müəyyən olunmuş qaydada intizam tənbehi tətbiq edir;

18.4.11. üzvlərinin informasiya və metodiki təminatını təşkil edir;

18.4.12. ildə bir dəfə hesabat ilindən sonrakı ayın 20-dən gec olmayaraq öz fəaliyyəti və üzvlərinin fəaliyyəti haqqında məlumatı öz rəsmi internet səhifəsində yerləşdirir.

**Maddə 19. Qiymətləndiricilər Palatasının orqanları**

19.1. Qiymətləndiricilər Palatasının ali idarəetmə orqanı onun üzvlərinin ümumi yığıncağı, icra orqanı isə onun Rəyasət Heyətidir.

19.2. Qiymətləndiricilər Palatası üzvlərinin ümumi yığıncağının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

19.2.1. Qiymətləndiricilər Palatasının nizamnaməsinin qəbulu və ona dəyişikliklərin edilməsi;

19.2.2. qiymətləndirmə üzrə yanaşma və metodların, qiymətləndiricinin etik davranış qaydalarının, Qiymətləndiricilər Palatasının üzvlərinin reyestrinin aparılma qaydasının və qiymətləndirmənin nəticələri haqqında hesabatın nümunəvi formasının təsdiq edilməsi;

19.2.3. Qiymətləndiricilər Palatasının Rəyasət Heyətinin, İntizam Komissiyasının sədrinin və digər üzvlərinin seçilməsi, onların səlahiyyətlərinə xitam verilməsi;

19.2.4. Qiymətləndiricilər Palatasının illik hesabatının təsdiq edilməsi;

19.2.5. Qiymətləndiricilər Palatasına üzvlük haqqının məbləğinin və ödənilmə qaydasının müəyyən edilməsi.

19.3. Qiymətləndiricilər Palatasının ümumi yığıncağı ildə bir dəfədən az olmayaraq keçirilir. Qiymətləndiricilər Palatasının Rəyasət Heyətinin və ya üzvlərin üçdə birinin təşəbbüsü ilə növbədənkənar iclas keçirilə bilər.

**Maddə 20. Qiymətləndiricilər Palatasının Rəyasət Heyəti**

20.1. Qiymətləndiricilər Palatasının Rəyasət Heyəti sədr və onun müavinləri daxil olmaqla 9 (doqquz) üzvdən ibarətdir. Rəyasət Heyətinin sədri, sədr müavinləri və digər üzvləri Qiymətləndiricilər Palatası üzvlərinin ümumi yığıncağında səsvermə yolu ilə 5 (beş) il müddətinə seçilirlər. Heç kəs iki dəfədən artıq Qiymətləndiricilər Palatasının Rəyasət Heyətinin sədri seçilə bilməz.

20.2. Qiymətləndiricilər Palatasının Rəyasət Heyətinin səlahiyyətlərinə aşağıdakılar aiddir:

20.2.1. Qiymətləndiricilər Palatası üzvlərinin ümumi yığıncağının iclaslarının təşkili;

20.2.2. Qiymətləndiricilər Palatasına üzvlük vəsiqəsinin formasının təsdiqi;

20.2.3. bu Qanunun 22-ci maddəsinə uyğun olaraq qiymətləndiricilərə intizam tənbehinin tətbiqi;

20.2.4. qiymətləndiricilərin peşə məsuliyyətinin sığortalanmasına nəzarətin həyata keçirilməsi;

20.2.5. Qiymətləndiricilər Palatası üzvlüyünə qəbul edilmə və bu Qanunun 24.1-ci maddəsi ilə müəyyən edilən hallarda xitam verilmə barədə qərar qəbul edilməsi;

20.2.6. qiymətləndirmə fəaliyyətinin həyata keçirilməsinə dair metodiki tövsiyələrin hazırlanması.

**Maddə 21. Qiymətləndiricilər Palatasının əmlakı**

21.1. Qiymətləndiricilər Palatasının mülkiyyətində (istifadəsində) qanunla qadağan olunmayan əmlak ola bilər.

21.2. Qiymətləndiricilər Palatasının əmlakı üzvlük haqları, qrantlar, ianələr və qanunla qadağan olunmayan digər mənbələr hesabına formalaşır.

### 5-ci fəsil
### QİYMƏTLƏNDİRİCİNİN MƏSULİYYƏTİ VƏ FƏALİYYƏTİNƏ XİTAM VERİLMƏSİ

**Maddə 22. Qiymətləndiricilərin intizam məsuliyyəti**

22.1. Qiymətləndirici tərəfindən qiymətləndirmə fəaliyyəti haqqında Azərbaycan Respublikası qanunvericiliyinin və qiymətləndiricinin etik davranış qaydalarının tələbləri pozulduqda İntizam Komissiyasının rəyi əsasında Qiymətləndiricilər Palatasının Rəyasət Heyəti qiymətləndiriciyə aşağıdakı intizam tənbehi tədbirlərindən birini tətbiq edə bilər:

22.1.1. töhmət;

22.1.2. 3 (üç) aydan 1 (bir) il müddətinədək qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququnun dayandırılması.

22.2. Bu Qanunun 22.1-ci maddəsində göstərilmiş intizam tənbehi tədbirlərindən hər hansı biri tətbiq olunmadan qiymətləndiriciyə yazılı və ya şifahi qaydada xəbərdarlıq edilə bilər.

22.3. Qiymətləndirici haqqında intizam tənbehi intizam pozuntusunun aşkar edildiyi gündən 6 (altı) ay, törədildiyi gündən isə 1 (bir) il müddətində tətbiq edilir.

22.4. Barəsində qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququnun dayandırılması haqqında qərar qəbul edilmiş qiymətləndirici həmin müddətdə Qiymətləndiricilər Palatasının Rəyasət Heyətinə və Qiymətləndiricilərin İntizam Komissiyasına üzv seçilə bilməz.

22.5. Qiymətləndirici intizam tənbehi tədbirinin tətbiq edilməsi barədə qərardan məhkəməyə şikayət verə bilər.

**Maddə 23. Qiymətləndirmə fəaliyyəti həyata keçirilərkən peşə məsuliyyətinin təminatı**

23.1. Qiymətləndirici tərəfindən qiymətləndirmənin aparılması nəticəsində sifarişçiyə və (və ya) üçüncü şəxslərə dəyən zərər Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq ödənilir.

23.2. Qiymətləndiricinin peşə məsuliyyətinin sığorta müqaviləsi qiymətləndirmə fəaliyyəti həyata keçirilərkən onun məsuliyyətinin təminatı kimi çıxış edir. Qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına və sığorta məbləğinə dair minimum tələblər müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.

23.3. Qiymətləndiricinin peşə məsuliyyətinin sığortalanmasına nəzarət Qiymətləndiricilər Palatası tərəfindən həyata keçirilir.

23.4. Qiymətləndirici təşkilat və sifarişçi qiymətləndirmə haqqında müqavilədə qarşılıqlı razılıq əsasında qiymətləndiricinin fəaliyyəti nəticəsində dəymiş zərərin ödənilməsinin təminatının şərtlərini müəyyən edə bilərlər.

**Maddə 24. Qiymətləndiricinin fəaliyyətinə xitam verilməsi**

24.1. Aşağıdakı hallarda qiymətləndiricinin fəaliyyətinə xitam verilir:

24.1.1. qiymətləndirici Qiymətləndiricilər Palatasının üzvlüyündən çıxmaq barədə ərizə ilə müraciət etdikdə;

24.1.2. bu Qanunun 22.1.2-ci maddəsində nəzərdə tutulmuş intizam tənbehi tədbirinin tətbiqindən sonra 1 (bir) il ərzində qiymətləndirici qiymətləndirmə fəaliyyəti haqqında qanunvericiliyin və qiymətləndiricinin etik davranış qaydalarının tələblərini yenidən pozduqda;

24.1.3. qiymətləndirici üzvlük haqqını 6 (altı) aydan artıq müddətdə ödəmədikdə;

24.1.4. qiymətləndirici vəfat etdikdə, məhkəmənin qanuni qüvvəyə minmiş qərarı ilə ölmüş elan olunduqda və ya xəbərsiz itkin düşmüş hesab edildikdə;

24.1.5. qiymətləndiricinin fəaliyyət qabiliyyətsizliyi və ya məhdud fəaliyyət qabiliyyətliliyi barədə məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda;

24.1.6. qiymətləndirici qəsdən ağır və xüsusilə ağır cinayət, habelə xarakterindən və ictimai təhlükəlilik dərəcəsindən asılı olmayaraq korrupsiya cinayəti və qulluq mənafeyi əleyhinə olan digər cinayət, həmçinin iqtisadi sahədə cinayət törətməyə görə məhkum olunduqda;

24.1.7. qiymətləndiricinin qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq hüququndan məhrum edilməsinə, o cümlədən barəsində tibbi xarakterli məcburi tədbirlərin tətbiq edilməsinə dair məhkəmənin qanuni qüvvəyə minmiş qərarı olduqda.

24.2. Qiymətləndiricinin fəaliyyətinə İntizam Komissiyasının rəyi ilə Qiymətləndiricilər Palatası Rəyasət Heyətinin qərarı ilə xitam verilir və o, Qiymətləndiricilər Palatasının üzvlüyündən çıxarılır və bu barədə məlumat Qiymətləndiricilər Palatası üzvlərinin reyestrinə daxil edilir.

24.3. Bu Qanunun 24.1.2-ci və 24.1.3-cü maddələrində nəzərdə tutulmuş hallarda qiymətləndiricinin fəaliyyətinə xitam verilməsi və onun Qiymətləndiricilər Palatasının üzvlüyündən çıxarılması məhkəmənin qanuni qüvvəyə minmiş qərarı əsasında həyata keçirilir.

24.4. Bu Qanunun 24.1.2-ci maddəsində nəzərdə tutulmuş halda bu Qanunun 24.3-cü maddəsinə uyğun olaraq məhkəmə qərarı qanuni qüvvəyə minənədək, İntizam Komissiyasının rəyi əsasında Qiymətləndiricilər Palatasının Rəyasət Heyəti həmin qiymətləndiricinin fəaliyyətini dayandıra bilər.

24.5. Bu Qanunun 24.1.1 - 24.1.3-cü maddələrində göstərilən əsaslar üzrə Qiymətləndiricilər Palatasının üzvlüyündən çıxarılmış şəxs onun barəsində Qiymətləndiricilər Palatası Rəyasət Heyətinin qərarının qəbul olunduğu tarixdən azı 1 (bir) il keçdikdən sonra bu Qanunun 6-cı maddəsi ilə müəyyən olunmuş qaydada ixtisas imtahanı verə bilər.

### 6-cı fəsil
### YEKUN MÜDDƏALAR

**Maddə 25. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərinin pozulmasına görə şəxslər qanunla müəyyən edilmiş hallarda məsuliyyət daşıyırlar.

**Maddə 26. Bu Qanunun qüvvəyə minməsi**

26.1. Bu Qanun (bu Qanunun 4-cü, 6-cı, 8.2-ci və 27-ci maddələri istisna olmaqla) 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

26.2. Bu Qanunun 4-cü, 6-cı və 27-ci maddələri bu Qanun dərc olunduğu gündən, 8.2-ci maddəsi 2027-ci il iyulun 1-dən qüvvəyə minir.

26.3. Bu Qanun qüvvəyə mindiyi gündən "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 1998-ci il 25 iyun tarixli 510-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 9, maddə 562; 2002, № 5, maddə 241; 2007, № 5, maddə 436, № 8, maddə 745, № 10, maddə 938; 2012, № 6, maddə 502; 2020, № 6, maddə 678) ləğv edilir.

**Maddə 27. Keçid müddəalar**

27.1. Bu Qanunun 26.1-ci maddəsində nəzərdə tutulan müddətədək:

27.1.1. Qiymətləndiricilər Palatasını təsis etmək hüququ olan şəxslərin müəyyən edilməsi, təsis yığıncağının hazırlanmasının və keçirilməsinin təmin edilməsi məqsədilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) nümayəndələri daxil olmaqla 5 (beş) üzvdən ibarət təşkilat komitəsi yaradılır;

27.1.2. təşkilat komitəsinin sifarişi əsasında bu Qanunun 6-cı maddəsində nəzərdə tutulmuş qaydada müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) 6 (altı) ay müddətində hər ay qiymətləndirmə fəaliyyəti ilə məşğul olmaq üçün ixtisas imtahanlarını təşkil edir və keçirir. İxtisas imtahanından müvəffəqiyyətlə keçmiş və ixtisas şəhadətnaməsini almış qiymətləndiricilərin Qiymətləndiricilər Palatasını təsis etmək hüququ yaranır;

27.1.3. Qiymətləndiricilər Palatasını təsis etmək hüququ yaranmış azı 15(on beş) nəfər qiymətləndirici tərəfindən Qiymətləndiricilər Palatası təsis olunur, onun Rəyasət Heyətinin sədri, sədrinin müavinləri və digər üzvləri, Qiymətləndiricilərin İntizam Komissiyasının sədri və üzvləri seçilir;

27.1.4. Qiymətləndiricilər Palatası təsis edilərək dövlət qeydiyyatına alındıqdan sonra Qiymətləndiricilər Palatası, onun Rəyasət Heyəti və Qiymətləndiricilərin İntizam Komissiyası fəaliyyətə başlamış hesab olunur.

27.2. Bu Qanun qüvvəyə minənədək fəaliyyət göstərən qiymətləndiricilərin fəaliyyət müddəti bu Qanunun 8.2-ci maddəsində nəzərdə tutulan müddət hesablanarkən nəzərə alınır.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 dekabr 2023-cü il*

# "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının 2023-cü il 8 dekabr tarixli 1052-VIQ nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü maddəsinin ikinci cümləsində, 6.1-ci maddəsində, 6.2-ci maddəsinin üçüncü cümləsində, 6.3-cü maddəsində, 6.4-cü maddəsinin birinci cümləsində, 6.6-cı, 17.2-ci maddələrində, 23.2-ci maddəsinin ikinci cümləsində, 27.1.1-ci (hər iki halda) maddəsində və 27.1.2-ci maddəsinin birinci cümləsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 5.4-cü maddəsinin ikinci cümləsində, 6.2-ci maddəsinin üçüncü cümləsində, 6.6-cı, 17.2-ci maddələrində, 23.2-ci maddəsinin ikinci cümləsində və 27.1.1-ci (birinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 6.1-ci, 6.3-cü maddələrində, 6.4-cü və 27.1.2-ci maddələrinin birinci cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi nəzərdə tutulur;

1.4. həmin Qanunun 27.1.1-ci (ikinci halda) maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. aşağıdakı normativ hüquqi aktları altı ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin:

2.2.1. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 5.4-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, qeyri-rezident fiziki şəxslərin akkreditasiyadan keçirilməsi qaydasını və həmin şəxslərə dair tələbləri;

2.2.2. həmin Qanunun 17.2-ci maddəsinə uyğun olaraq, icra sənədləri əsasında aparılan qiymətləndirməyə görə xidmət haqqının yuxarı həddini;

2.2.3. Azərbaycan Respublikasının Mərkəzi Bankı ilə razılaşdırmaqla, həmin Qanunun 23.2-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq, qiymətləndiricinin peşə məsuliyyətinin sığortası üzrə sığorta təminatına və sığorta məbləğinə dair minimum tələbləri;

2.3. bir ay müddətində:

2.3.1. həmin Qanunun 6.2-ci maddəsinin üçüncü cümləsinə və 6.6-cı maddəsinə uyğun olaraq, ixtisas imtahanlarında iştirak etmək üçün ödənişin məbləğini, habelə ixtisas imtahanlarının təşkili və keçirilməsi, qiymətləndiricinin ixtisas şəhadətnaməsinin forması və verilməsi qaydalarını təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3.2. həmin Qanunun 27.1.1-ci maddəsinə uyğun olaraq, Qiymətləndiricilər Palatasını təsis etmək hüququ olan şəxslərin müəyyən edilməsi, təsis yığıncağının hazırlanmasının və keçirilməsinin təmin edilməsi məqsədilə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyindən 3 (üç) nəfər və Azərbaycan Respublikasının Maliyyə Nazirliyindən 2 (iki) nəfər nümayəndə daxil olmaqla,5 (beş) üzvdən ibarət təşkilat komitəsinin yaradılmasını təmin etsin;

2.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

3. "Qiymətləndirmə fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi ilə bağlı:

3.1. qəbul ediləcək Azərbaycan Respublikası Prezidentinin aktları, Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktları həmin Qanunun müvafiq maddələrinin qüvvəyə mindiyi tarixdən tez qüvvəyə minməsin;

3.2. qanunların layihələri hazırlanarkən həmin Qanunun müvafiq maddələrinin qüvvəyəminmə tarixi nəzərə alınsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

# "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 18-ci bəndini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 56; 2015, № 2, maddə 92, № 5, maddə 496, № 7, maddə 821; 2016, № 6, maddələr 999, 1007; 2017, № 10, maddə 1769; 2018, № 7 (I kitab), maddə 1425, № 11, maddələr 2204, 2205; 2019, № 2, maddə 187, № 4, maddə 579, № 5, maddə 797, № 6, maddə 986; 2020, № 7, maddə 831, № 11, maddə 1338; 2021, № 3, maddə 210; 2022, № 5, maddələr 433, 440; 2023, № 2, maddə 190, № 7, maddələr 897, 899) aşağıdakı məzmunda 15.3-cü maddə əlavə edilsin:

"15.3. Rayon, şəhər, şəhərdə rayon çağırış komissiyaları tərəfindən bu Qanunun 15.2.2 - 15.2.5-ci maddələrində nəzərdə tutulmuş qərarların verilməsi üçün yekun tibbi müayinə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən aparılır. Yekun tibbi müayinənin aparılması qaydası müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilir.".

**Maddə 2.** Bu Qanun 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2023-cü il*

# "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1047-VIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1047-VIQD nömrəli Qanununun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinin birinci və ikinci cümlələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 15.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 15.3-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi qismində Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinin ikinci cümləsinə uyğun olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 29 fevral tarixli 59 nömrəli Qərarı ilə təsdiq edilmiş "Hərbi-həkim ekspertizası haqqında Əsasnamə"də üç ay müddətində müvafiq dəyişiklik edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1047-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 16 fevral tarixli 386 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011, № 2, maddə 90, № 7, maddə 625, № 11, maddə 996; 2012, № 9, maddə 853, № 11, maddə 1084; 2013, № 2, maddə 124, № 12, maddə 1525; 2014, № 7, maddə 789, № 9, maddə 1053; 2015, № 1, maddə 17, № 3, maddələr 263, 264, № 6, maddə 705, № 8, maddə 908, № 10, maddə 1134; 2016, № 3, maddə 437, № 5, maddə 859, № 6, maddələr 1051, 1072; 2017, № 9, maddə 1633; 2018, № 3, maddə 433, № 6, maddə 1245; 2019, № 1, maddə 73, № 2, maddə 245, № 5, maddə 845, № 6, maddə 1036, № 7, maddə 1232, № 8, maddə 1397, № 11, maddə 1718, № 12, maddə 1935; 2020, № 3, maddə 247, № 6, maddə 717, № 8, maddə 1036; 2021, № 4, maddə 318, № 8, maddə 922, № 12, maddə 1403; 2022, № 7, maddə 762, № 8, maddə 871; 2023, № 3, maddə 361, № 5, maddə 650, № 7, maddələr 936, 958; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 noyabr tarixli 2360 nömrəli Fərmanı) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi haqqında Əsasnamə"yə aşağıdakı məzmunda 3.1.49-1-ci yarımbənd əlavə edilsin:

"3.1.49-1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq, yekun tibbi müayinənin aparılmasını təmin etmək;".

4. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti haqqında Əsasnamə"nin təsdiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 13 fevral tarixli 593 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 2, maddə 82; 2015, № 2, maddə 138, № 7, maddə 831, № 11, maddə 1320; 2016, № 6, maddə 1034, № 10, maddə 1612; 2017, № 12 (I kitab), maddələr 2282, 2294; 2018, № 11, maddə 2258; 2019, № 5, maddə 847; 2020, № 7, maddə 878, № 11, maddə 1349; 2021, № 1, maddə 36; 2022, № 4, maddələr 314, 324, № 8, maddə 871; 2023, № 1, maddə 84, № 3, maddə 344, № 4, maddə 471, № 7, maddələr 964, 982) 5-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

4.1. 5.1-ci bəndə "31.1-ci" sözlərindən əvvəl "15.3-cü maddəsinin birinci və ikinci cümlələrində," sözləri əlavə edilsin;

4.2. 5.2-1 - 5.2-3-cü bəndlər müvafiq olaraq 5.2-2 - 5.2-4-cü bəndlər hesab olunsun və aşağıdakı məzmunda 5.2-1-ci bənd əlavə edilsin:

"5.2-1. həmin Qanunun 15.3-cü maddəsinin ikinci cümləsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;";

4.3. 5.13-cü bənddə "orqan (qurum)" dedikdə," sözləri "və 15.3-cü maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi qismində" sözləri ilə əvəz edilsin.

5. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 iyun tarixli 1077 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 6, maddə 718; 2021, № 5, maddə 446, № 6 (I kitab), maddə 572, № 8, maddə 923, № 9, maddə 987, № 12, maddə 1403; 2022, № 4, maddələr 323, 329; 2023, № 4, maddə 493, № 7, maddə 936; Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 18 noyabr tarixli 2358 və 2360 nömrəli fərmanları) ilə təsdiq edilmiş "Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Nizamnaməsi"nin 3-cü hissəsində aşağıdakı dəyişikliklər edilsin:

5.1. 3.1.14-cü yarımbənddə "çağırışyaşlı şəxslər" sözləri "çağırışçılar və hərbi vəzifəlilər" sözləri ilə əvəz edilsin;

5.2. aşağıdakı məzmunda 3.1.14-1-ci yarımbənd əlavə edilsin:

"3.1.14-1. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 15.3-cü maddəsinə uyğun olaraq, yekun tibbi müayinəni aparmaq;".

6. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1047-VIQD nömrəli Qanunundan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

7. Bu Fərman 2024-cü il iyulun 1-dən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 30 dekabr 2023-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 487 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin sosial müdafiəsinin gücləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 18 mart tarixli 1947 nömrəli Sərəncamının 2.1-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Yeni növ koronavirus (COVID-19) infeksiyası ilə mübarizə tədbirlərində iştirak edən tibb işçilərinin əməkhaqlarına müddətli əlavənin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 25 mart tarixli 112 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 3, maddə 373, № 6, maddə 792, № 8, maddə 1118, № 11, maddə 1386; 2021, № 4, maddə 398, № 7, maddə 861, № 8, maddə 964, № 10, maddə 1167, № 11, maddə 1291; 2022, № 2, maddə 174, № 4, maddə 372, № 6, maddə 670, № 8, maddə 964, № 10, maddə 1215, № 12, maddə 1532; 2023, № 1, maddə 138, № 3, maddələr 434, 440, № 5, maddə 721, № 8 (II kitab), maddə 1239, № 10, maddə 1451; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 8 yanvar tarixli 2 nömrəli Qərarı) 2-ci hissəsində "yanvarın" sözü "aprelin" sözü ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 488 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın təsdiq edilməsi haqqında

"Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikasının 2017-ci il 14 aprel tarixli 585-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 19 iyun tarixli 1471 nömrəli Fərmanının 2.2-1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 488 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Dövlət məktəbəqədər təhsil müəssisələrində işləyən təhsilverənlərin sertifikatlaşdırma qaydası

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 36-2.2-ci maddəsinə və "Məktəbəqədər təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 20-1.1-ci maddəsinin ikinci cümləsinə uyğun olaraq hazırlanmışdır və dövlət məktəbəqədər təhsil müəssisələrində (bundan sonra - təhsil müəssisələri) pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlərin peşəkarlıq səviyyəsinin və peşə yararlılığının yoxlanılması prosedurunu tənzimləyir.

1.2. Təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olan, ali və orta ixtisas təhsilinə malik təhsilverənlər peşəkarlıq səviyyələrinin və peşə yararlılıqlarının yoxlanılması məqsədilə 5 (beş) ildə bir dəfə ödənişsiz sertifikatlaşdırmadan keçməlidirlər.

1.3. Sertifikatlaşdırmaya cəlb olunmuş təhsilverənlərə onların fəaliyyət sahəsinə bilavasitə aid olmayan sualların verilməsi, habelə onların siyasi baxışlarına və dini etiqadına görə qiymətləndirilməsi yolverilməzdir.

1.4. Aşağıdakı təhsilverənlər sertifikatlaşdırmadan keçmirlər:

1.4.1. hamilə qadınlar;

1.4.2. uşağının üç yaşınadək sosial məzuniyyətdə olan və həmin məzuniyyət bitdikdən sonra 1 (bir) ildən az müddətdə müvafiq vəzifədə (peşədə) çalışan qadınlar (uşağını təkbaşına böyüdən kişilər);

1.4.3. ilk dəfə işə qəbul olunanlar, 3 (üç) il müddətində;

1.4.4. azı 3 (üç) dəfə sertifikatlaşdırmadan keçmiş təhsilverənlər.

1.5. 60 və daha yuxarı yaşda olan təhsilverənlərin sertifikatlaşdırmada iştirakı könüllüdür.

### 2. Sertifikatlaşdırmanın təşkili

2.1. Sertifikatlaşdırma Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 155 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət ümumi təhsil müəssisələrində (ümumi təhsil üzrə təhsilverənlərə münasibətdə digər dövlət təhsil müəssisələrində) işləyən təhsilverənlərin sertifikatlaşdırma Qaydası"nın 2.2-ci bəndinə uyğun olaraq yaradılmış Təhsilverənlərin Sertifikatlaşdırılması Şurası (bundan sonra - Sertifikatlaşdırma Şurası) tərəfindən təşkil edilir.

2.2. Sertifikatlaşdırma Şurası:

2.2.1. sertifikatlaşdırmanın aparılmasına cəlb olunmuş mütəxəssislərin vəzifə bölgüsünü müəyyən edir;

2.2.2. sertifikatlaşdırmanın test imtahanı mərhələsinin suallarının və müsahibə mərhələsi üçün qiymətləndirmə meyarlarının hazırlanmasını təmin edir;

2.2.3. sertifikatlaşdırmanın keçirilməsi ilə bağlı proqram təminatının hazırlanmasına nəzarət edir;

2.2.4. müsahibə komissiyalarının tərkibinə dair Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinə (bundan sonra - Nazirlik) təkliflər təqdim edir;

2.2.5. sertifikatlaşdırmanın aparılmasını təşkil edir;

2.2.6. sertifikatlaşdırmaya cəlb edilməsi nəzərdə tutulmuş təhsilverənlərin siyahısını təsdiq edir;

2.2.7. sertifikatlaşdırmanın nəticələrini Nazirliyə təqdim edir.

2.3. Sertifikatlaşdırma ilə bağlı məsələlərin tənzimlənməsi məqsədilə Nazirliyin "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Məktəbəqədər təhsil üzrə sertifikatlaşdırma" altsistemi (bundan sonra - altsistem) yaradılır.

2.4. İctimai nəzarətin təmin edilməsi məqsədilə Sertifikatlaşdırma Şurası dövlət orqanlarının (qurumlarının), beynəlxalq və qeyri-hökumət təşkilatlarının, habelə medianın nümayəndələrini sertifikatlaşdırmaya müşahidəçi qismində dəvət edir. Müşahidəçilərin sertifikatlaşdırmanın gedişatına müdaxiləsi yolverilməzdir.

### 3. Sertifikatlaşdırmanın keçirilməsi

3.1. Sertifikatlaşdırma iki mərhələdən (test imtahanı və müsahibə) ibarət olmaqla və videoçəkiliş təmin edilməklə keçirilir.

3.2. Sertifikatlaşdırmanın keçirilməsi yerini və vaxtını Nazirlik müəyyən edir və altsistemdə yerləşdirir. Sertifikatlaşdırma təhsilverənlərin tədris apardığı dildə keçirilir.

3.3. Nazirlik yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinin yerli bölmələri altsistemdə sertifikatlaşdırmada iştirak edəcək təhsilverənlərin qeydiyyatını aparır və həmin təhsilverənlərin müəyyənləşdirilmiş vaxtda sertifikatlaşdırmada iştirakını təmin edirlər.

3.4. Qeydiyyatdan keçmiş hər bir təhsilverən üçün altsistemdə "Şəxsi kabinet" açılır və kabinetin şifrəsi təhsilverənin əlaqə vasitələrinə (mobil telefonuna və ya elektron poçt ünvanına) göndərilir. Təhsilverənlər sertifikatlaşdırma ilə bağlı məlumatları (sertifikatlaşdırmanın keçirilmə vaxtı və yeri, yaddaş kitabçası və s.) "Şəxsi kabinet" vasitəsilə əldə edirlər. Sertifikatlaşdırmanın keçirilməsinə ən azı 1 (bir) ay qalmış onun vaxtı və yeri barədə bildiriş "Şəxsi kabinet"ə göndərilir. Təhsilverən sertifikatlaşdırmaya yalnız şəxsiyyət vəsiqəsi təqdim etdikdə buraxılır.

3.5. Sertifikatlaşdırma zamanı qadağan olunan hərəkətlərin, habelə gətirilməsi qadağan edilən əşyaların siyahısı Sertifikatlaşdırma Şurası tərəfindən təsdiq olunaraq yaddaş kitabçasına daxil edilir və namizədin "Şəxsi kabineti"nə göndərilir.

3.6. Təhsilverən yaddaş kitabçasında müəyyən edilmiş tələbləri pozduqda, bu barədə akt tərtib edilir və həmin şəxs sertifikatlaşdırmadan kənarlaşdırılır. Müvafiq pozuntular sertifikatlaşdırma başa çatdıqdan sonra videomüşahidə kameralarının məlumatları əsasında aşkar edilərsə, həmin təhsilverənin sertifikatlaşdırma nəticələri Sertifikatlaşdırma Şurası tərəfindən ləğv edilir.

3.7. Test imtahanı mərhələsinin sualları təhsilverənlərin tutduğu vəzifə üzrə əmək funksiyasına və peşəsinə uyğun olmaqla tərtib edilir.

3.8. Test imtahanı mərhələsində təhsilverənlərə məktəbəqədər təhsilin məzmunu və metodikası, həmçinin uşaq və yaş psixologiyası üzrə 60 (altmış) sual təqdim edilir.

3.9. Test imtahanı mərhələsi kompüterdə elektron qaydada həyata keçirilir. Proqram təminatı hər bir təhsilverənə fərdi test variantı təqdim edir.

3.10. Test imtahanı mərhələsinə 120 dəqiqə vaxt ayrılır. Bu zaman fasilə verilmir.

3.11. Test imtahanı mərhələsində hər bir suala düzgün cavab 1 (bir) balla qiymətləndirilir. Səhv cavablar və ya sualın cavabsız qoyulması 0 (sıfır) bala bərabər tutulur və düzgün cavablara təsir göstərmir.

3.12. Test imtahanı mərhələsinin nəticələri üzrə balların hesablanması avtomatlaşdırılmış rejimdə proqram təminatı vasitəsilə həyata keçirilir və təhsilverənin nəticələri test imtahanı mərhələsi başa çatdıqdan dərhal sonra ona elan edilir.

3.13. Test imtahanı mərhələsində azı 30 (otuz) bal toplamış təhsilverənlər sertifikatlaşdırmanın müsahibə mərhələsinə buraxılırlar. Müsahibə mərhələsində hər bir təhsilverənə 20 (iyirmi) dəqiqə vaxt ayrılır.

3.14. Müsahibənin keçirilməsi üçün Sertifikatlaşdırma Şurasının təklifləri əsasında Nazirlik müsahibə komissiyası yaradır və onun tərkibini təsdiq edir.

3.15. Müsahibə mərhələsi aşağıdakı meyarlar əsasında qiymətləndirilir:

3.15.1. təhsilverənin ünsiyyət bacarığı (20 bal);

3.15.2. təlimin planlaşdırılması bacarığı (10 bal);

3.15.3. təlimin təşkilində istifadə olunan iş forması və üsulları tətbiq etmək bacarığı (10 bal).

3.16. Müsahibə mərhələsində maksimum 40 (qırx) bal toplanıla bilər.

3.17. Sertifikatlaşdırmanın müsahibə mərhələsində azı 20 (iyirmi) bal toplamış təhsilverənlər həmin mərhələdən keçmiş hesab edilirlər. Sertifikatlaşdırmanın müsahibə mərhələsinin nəticələri proqram təminatına daxil edilir.

3.18. Müsahibənin nəticələri onun keçirildiyi tarixdən 5 (beş) iş günü müddətində elan edilir və təhsilverənlərin sertifikatlaşdırma üzrə ümumi nəticələri onların "Şəxsi kabinet"inə göndərilir.

3.19. Sertifikatlaşdırmanın test imtahanı və müsahibə mərhələlərində bu Qaydanın müvafiq olaraq 3.13-cü və 3.17-ci bəndlərində göstərilən minimal balları toplamış təhsilverənlər sertifikatlaşdırmadan keçmiş hesab olunurlar.

3.20. Sertifikatlaşdırmanın nəticələri ilə razılaşmayan təhsilverənlər məhkəməyə və (və ya) nəticənin onun "Şəxsi kabinet"inə göndərildiyi tarixdən 30 (otuz) iş günü müddətində inzibati qaydada Nazirliyə şikayət verə bilərlər. Nazirlik təhsilverənin şikayətinə onun iştirakı ilə "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun baxır.

### 4. Sertifikatlaşdırmanın nəticələri

4.1. Sertifikatlaşdırma Şurasının təqdim etdiyi sertifikatlaşdırmanın nəticələri barədə məlumat əsasında Nazirlik sertifikatlaşdırmadan keçən və keçməyən təhsilverənlərin siyahısını hazırlayaraq Nazirlik yanında Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyinə göndərir.

4.2. Sertifikatlaşdırmadan keçmiş təhsilverənlərə "Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi"ndə "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq elektron sənəd formasında yaradılan sertifikat verilir. Sertifikat sertifikatlaşdırmanın nəticələri elan olunduqdan sonra 5 (beş) iş günü müddətində hazırlanır.

4.3. Sertifikatın həqiqiliyi "Elektron imza və elektron sənəd haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq yoxlanıla bilər.

4.4. Sertifikat Sertifikatlaşdırma Şurasının sədrinin elektron imzası ilə təsdiq edilir.

4.5. Sertifikat təhsilverən üçün açılmış "Şəxsi kabinet"də yerləşdirilir.

4.6. Sertifikatda aşağıdakı məlumatlar əks olunmalıdır:

4.6.1. sertifikatın nömrəsi və verildiyi tarix (altsistem tərəfindən verilir);

4.6.2. təhsilverənin sertifikatlaşdırmada iştirak etdiyi tarix;

4.6.3. sertifikatın etibarlılıq müddəti (müddətin başa çatdığı tarix və ya üçüncü dəfə sertifikatlaşdırmadan keçmiş təhsilverənlər üçün müddətsiz olduğu göstərilir);

4.6.4. təhsilverənin identifikasiya məlumatları (soyadı, adı, atasının adı və doğum tarixi) və FİN kodu;

4.6.5. təhsilverənin çalışdığı təhsil müəssisəsinin (tabeliyi göstərilməklə) adı;

4.6.6. təhsilverənin sertifikatlaşdırmada iştirak etdiyi dil;

4.6.7. təhsilverənin test imtahanı və müsahibə mərhələlərində topladığı balı;

4.6.8. sertifikatın təhsilverənə təhsil müəssisələrində pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ verdiyinə dair qeyd.

4.7. Sertifikatda bütün məlumatlar Azərbaycan dilində yazılır.

4.8. Sertifikatlaşdırmadan keçmiş təhsilverənlər 5 (beş) il müddətində təhsil müəssisələrində öz ixtisasları üzrə pedaqoji fəaliyyətlə məşğul olmaq hüququ əldə edirlər. Sertifikatlaşdırmadan üçüncü dəfə keçəndən sonra təhsilverənlər təhsil müəssisələrində öz ixtisasları üzrə pedaqoji fəaliyyətlə Azərbaycan Respublikası Əmək Məcəlləsinin 10-1-ci maddəsi ilə müəyyən edilmiş çalışmanın yaş həddinə qədər məşğul olmaq hüququ əldə edirlər.

### 5. Yekun müddəalar

5.1. Sertifikatlaşdırmanın nəticələri təhsilverənlərin karyera inkişafında və əməyinin stimullaşdırılmasında nəzərə alınır.

5.2. Üzrlü səbəblərdən sertifikatlaşdırmada iştirak etməyən və ya sertifikatlaşdırmadan keçməyən təhsilverənlər 1 (bir) il müddətində iş yeri saxlanılmaqla təkrar sertifikatlaşdırmada iştirak etmək hüququna malikdirlər.

5.3. Təkrar sertifikatlaşdırmada iştirak etməyən və ya bu Qayda ilə müəyyən olunmuş keçid balını toplaya bilməyən təhsilverənlər sertifikatlaşdırmadan keçməmiş hesab olunurlar.

5.4. Təkrar sertifikatlaşdırmadan keçməyən təhsilverənlərlə bağlanılmış əmək müqaviləsi 1 (bir) ay müddətində Azərbaycan Respublikası Əmək Məcəlləsinin 70-ci maddəsinin "c" bəndinə müvafiq olaraq işəgötürən tərəfindən ləğv edilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 489 **QƏRAR** Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası"nın təsdiq edilməsi və "Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli Qərarının ləğv edilməsi barədə

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 9 iyun tarixli 906-VIQD nömrəli Qanununun tətbiqi və "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 24 iyul tarixli 2235 nömrəli Fərmanının 1.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə Qaydası" təsdiq edilsin *(əlavə olunur).*

2. "Ali (orta ixtisas) təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübəsinin keçirilməsi haqqında Əsasnamə"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 19 sentyabr tarixli 221 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008, № 9, maddə 868) ləğv edilsin.

3. Bu Qərar 2024-cü il sentyabrın 15-dən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 30 dekabr tarixli 489 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

# Ali və orta ixtisas təhsili müəssisələri tələbələrinin ixtisas üzrə təcrübə keçmə qaydası

### 1. Ümumi müddəalar

1.1. Bu Qayda "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 29.0.37-3-cü maddəsinə əsasən hazırlanmışdır və ali və orta ixtisas təhsili müəssisələri (bundan sonra - təhsil müəssisəsi) tələbələrinin ixtisas üzrə təcrübə (bundan sonra - təcrübə) keçmə məsələlərini tənzimləyir.

1.2. Bu Qayda tabeliyindən, mülkiyyət növündən və təşkilati-hüquqi formasından asılı olmayaraq, Azərbaycan Respublikasının ərazisində fəaliyyət göstərən təhsil müəssisələrinə (xarici ölkə ali təhsil müəssisələrinin filialları istisna olmaqla) şamil edilir.

1.3. Təcrübə müvafiq təhsil proqramlarının (ali və ya orta ixtisas) tərkib hissəsidir.

1.4. Təcrübənin məqsədi, həcmi və qiymətləndirilməsi təhsil proqramları, növü, keçirilmə vaxtı və müddəti isə ixtisasın tədris planı ilə müəyyən edilir.

### 2. Təcrübənin məqsədləri və növləri

2.1. Təcrübənin məqsədləri aşağıdakılardır:

2.1.1. tələbənin təhsil müəssisəsində aldığı nəzəri biliklərini möhkəmləndirmək, dərinləşdirmək və onları praktiki bacarıqlar və səriştələrlə tamamlamaq;

2.1.2. tələbənin bilik, bacarıq və səriştələrini inkişaf etdirmək;

2.1.3. tələbəni müstəqil və səmərəli əmək fəaliyyətinə və akademik mühitə hazırlamaq, onun gələcək karyera inkişafına kömək etmək;

2.1.4. tələbəni təhsil aldığı ixtisasın profilindən və xüsusiyyətindən asılı olaraq, yeni texnologiyalarla, müasir istehsalat sahələri, qabaqcıl peşə təcrübəsi, iş üsulları, elmi tədqiqatlar və digər məsələlərlə tanış etmək;

2.1.5. tələbənin innovativ təlim və informasiya-kommunikasiya texnologiyaları ilə bağlı səriştələrini inkişaf etdirmək.

2.2. Təcrübənin növləri aşağıdakılardır:

2.2.1. tədris təcrübəsi;

2.2.2. istehsalat təcrübəsi;

2.2.3. diplomqabağı təcrübə;

2.2.4. elmi-pedaqoji təcrübə;

2.2.5. elmi tədqiqat təcrübəsi.

### 3. Təcrübənin təşkili

3.1. Təcrübə kadr hazırlığının bir hissəsi olmaqla, təcrübə bazasında (müəssisə və təşkilatlarda, o cümlədən elmi müəssisə və təşkilatlarda, təhsil müəssisəsində və təcrübənin keçirilməsi üçün müvafiq şəraiti olan digər qurumlarda) təşkil edilir.

3.2. Təcrübənin təşkil olunması üçün təhsil müəssisəsi tələbənin təhsil aldığı ixtisas sahəsinə uyğun olaraq təcrübə bazasını müəyyən edir. İstehsalat təcrübəsi üzrə təcrübə bazası müəyyən edilən zaman tələbənin də təkliflərinə baxılır.

3.3. Təcrübənin məqsədi, məzmunu və strukturu, təcrübə bazası və onun infrastrukturu, keçirilməsi formaları, müddəti və vaxtı, təcrübənin qiymətləndirilməsi üsulları və meyarları, təcrübə üzrə təlimin nəticələri təhsil müəssisəsi tərəfindən təsdiq edilən təcrübə proqramları ilə müəyyən olunur. Tədris planında ixtisas üzrə bir neçə təcrübə növü nəzərdə tutulduğu halda, hər bir növ üzrə ayrıca təcrübə proqramı hazırlanır.

3.4. Təcrübənin təşkili zamanı aşağıdakı tələblər nəzərə alınmalıdır:

3.4.1. təcrübə bazasının tələbənin ixtisasına uyğunluğunun təmin edilməsi;

3.4.2. həyat və sağlamlıq üçün təhlükəsiz və zərərsiz təcrübə şəraitinin yaradılması;

3.4.3. tədris-öyrənmə və təcrübə arasında davamlı əlaqənin qurulması;

3.4.4. tələbənin yaradıcılıq və tədqiqat işlərində iştirakının təmin edilməsi;

3.4.5. tələbədə müasir informasiya texnologiyalarının tətbiqi istiqamətində bacarıqların artırılması;

3.4.6. tələbənin müasir texnologiyalarla, iş üsulları və digər yeniliklərlə tanış edilməsi;

3.4.7. peşəkar təcrübə rəhbərlərinin təyin edilməsi;

3.4.8. təcrübə bazasının infrastrukturunun əlilliyi olan tələbələr üçün müyəssər olması;

3.4.9. tələbələrin təcrübə bazasında məşğulluq imkanlarının nəzərə alınması.

3.5. Təcrübə təhsil müəssisəsindən kənarda keçirildiyi halda, təhsil müəssisəsi ilə təcrübə bazaları arasında müqavilə bağlanılır. Müqavilədə təcrübə keçənlərin sayı, təcrübənin tarixləri və saatları, tərəflərin hüquq və vəzifələri, təcrübə proqramında qoyulan tələblər, təcrübə rəhbərlərinə ayrılan saatlar və ediləcək ödənişlər, tələbələrin iş rejimi və s. əks olunmalıdır.

3.6. Tədris təcrübəsi - tələbənin nümunələr, prototiplər, maketlər, sınaqlar və s. vasitəsilə ilkin praktik vərdişlərə yiyələnməsinə yönələn təcrübədir. Tədris təcrübəsi ali təhsilin bakalavriat səviyyəsində və ya orta ixtisas təhsili pilləsində tələbələrin təhsil aldıqları təhsil müəssisəsinin təcrübə bazasında (laboratoriyalarda, təcrübə-sınaq və uçuş poliqonlarında, trenajorlarda, elmi tədqiqat laboratoriyalarında, tədris emalatxanalarında, müalicə-profilaktika müəssisələrində və s.), həmçinin ixtisasın xüsusiyyətindən asılı olaraq, təhsil müəssisəsindən kənarda təşkil edilir.

3.7. İstehsalat təcrübəsi - tələbənin təhsil müəssisəsində aldığı nəzəri biliklərini möhkəmləndirmək, dərinləşdirmək və onları praktiki bacarıqlarla tamamlamaq məqsədilə təhsil müəssisəsindən kənardakı təcrübə bazasında təşkil edilən təcrübədir. İstehsalat təcrübəsi tələbənin müraciəti əsasında təhsil müəssisəsinin yerləşdiyi şəhərdən (rayondan) kənarda və ya xarici ölkələrdə də keçirilə bilər və bu zaman təcrübə keçməyə nəzarət mexanizmi təhsil müəssisəsi tərəfindən müəyyən edilir.

3.8. Diplomqabağı təcrübə - müvafiq ixtisaslar üzrə təlimin yekun mərhələsi olmaqla, ali təhsilin bakalavriat səviyyəsində buraxılış işinin hazırlanması, bunun üçün lazımi məlumatların toplanılması, sınaqların, tamaşaların keçirilməsi, tibbi manipulyasiyaların düzgün aparılması və s. məqsədilə buraxılış işinin müdafiəsindən əvvəl təşkil edilən təcrübədir. Diplomqabağı təcrübəyə bütün nəzəri dərsləri və digər təcrübələri (tədris və (və ya) istehsalat təcrübəsini) müvəffəqiyyətlə bitirən tələbələr buraxılırlar. Diplomqabağı təcrübə tələbənin təhsil aldığı ali təhsil müəssisəsindən kənardakı təcrübə bazasında və ya ixtisasın xüsusiyyətindən asılı olaraq ali təhsil müəssisəsinin təcrübə bazasında təşkil edilir.

3.9. Elmi-pedaqoji təcrübə - ali təhsilin magistratura səviyyəsində tələbələrin pedaqoji səriştələrinin formalaşdırılması məqsədilə təşkil edilən təcrübədir. Elmi-pedaqoji təcrübəyə bütün nəzəri dərsləri müvəffəqiyyətlə bitirən tələbələr buraxılırlar. Elmi-pedaqoji təcrübə tələbənin təhsil aldığı ali təhsil müəssisəsində təşkil edilir.

3.10. Elmi tədqiqat təcrübəsi - ali təhsilin magistratura səviyyəsində magistrlik dissertasiyasının hazırlanması, bunun üçün elmi tədqiqatların nəticələrinin toplanılması və istifadə edilməsi məqsədilə dissertasiyanın müdafiəsindən əvvəl təşkil edilən təcrübədir. Elmi tədqiqat təcrübəsinə bütün nəzəri dərsləri müvəffəqiyyətlə bitirən tələbələr buraxılırlar. Elmi tədqiqat təcrübəsi həm tələbənin təhsil aldığı ali təhsil müəssisəsində, həm də həmin müəssisədən kənardakı təcrübə bazasında təşkil edilir.

3.11. Ali təhsilin bakalavriat səviyyəsində və orta ixtisas təhsili pilləsində istehsalat təcrübəsinin, ali təhsilin magistratura səviyyəsində elmi-pedaqoji təcrübənin, həmçinin magistrlik dissertasiyası hazırlayanlara münasibətdə elmi tədqiqat təcrübəsinin təşkili məcburidir.

3.12. Tələbənin təhsil aldığı dövrdə ixtisası üzrə əmək fəaliyyəti təhsil müəssisəsi tərəfindən kafedranın (fənn birləşmə komissiyasının) rəyi əsasında bu Qaydanın 3.17.1-ci yarımbəndinə uyğun olaraq yaradılmış təcrübə komissiyası tərəfindən təcrübə kimi tanına bilər. Bu zaman əmək fəaliyyətinin hər bir həftəsi 1,5 kreditə bərabər tutulur.

3.13. Tələbənin təcrübə müddətində beşgünlük iş rejimi üzrə həftəlik təcrübə keçməsi müddəti ən azı 20 saat olmalıdır. İxtisasın profilindən asılı olaraq bu müddət təhsil müəssisəsi tərəfindən artırıla bilər.

3.14. Tələbənin təcrübə keçməsi barədə hesabat forması təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir. Hesabat forması təcrübə proqramının tələblərinə uyğun olmalı və orada tələbənin keçdiyi təcrübənin qısa məzmunu, apardığı təhlillər və gəldiyi nəticələr əksini tapmalıdır.

3.15. Tələbələr təcrübə zamanı təhsil müəssisəsi tərəfindən 10-15 nəfərdən ibarət yarımqruplara bölünə bilərlər. İxtisasın xüsusiyyətindən asılı olaraq (musiqi, incəsənət, tibb, idman və s.), qrupdakı tələbələrin sayı təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilə bilər.

3.16. Tələbənin təhsil aldığı təhsil müəssisəsi, təcrübə bazaları və tələbələr təcrübə prosesinin iştirakçılarıdırlar.

3.17. Tələbənin təhsil aldığı təhsil müəssisəsi:

3.17.1. ayrı-ayrı ixtisaslar üzrə kadr hazırlığının xüsusiyyətlərini və bu Qaydanın tələblərini nəzərə alaraq, təcrübə komissiyalarını yaradır və onların tərkibini təsdiq edir;

3.17.2. müvafiq təcrübə proqramını, təcrübə gündəliyini, hesabat və rəy formasını hazırlayır və təsdiq edir;

3.17.3. təcrübə bazaları ilə müqavilə bağlayır, təcrübənin proqramını və qrafikini onlarla razılaşdırır;

3.17.4. təcrübə bazasının profilini nəzərə almaqla, ixtisası uyğun gələn və akademik heyətin təcrübəli işçiləri sırasından təcrübə rəhbəri təyin edir;

3.17.5. təcrübə keçirilən təcrübə bazasını, eləcə də tələbələri təcrübə proqramları ilə təmin edir;

3.17.6. təcrübə proqramına uyğun olaraq təcrübənin təşkilinə və keçirilməsinə nəzarət edir;

3.17.7. təcrübə bazası ilə bağlanılmış müqaviləyə uyğun olaraq digər vəzifələri həyata keçirir.

3.18. Təcrübə bazaları:

3.18.1. tələbələrin təcrübə keçməsini təşkil edir və keçirir;

3.18.2. təcrübəli işçilər arasından təcrübə rəhbərini təyin edir;

3.18.3. təcrübə proqramı əsasında tələbələrin təcrübə yerlərini müəyyən edir;

3.18.4. tələbələrin təcrübə bazasının infrastrukturundan istifadəsinə imkan yaradır;

3.18.5. tələbələri əməyin mühafizəsi və təhlükəsizlik texnikası, o cümlədən təcrübə bazasının daxili nizam-intizam qaydaları üzrə müvafiq təlimatlarla təmin edir və təcrübə müddətində istehsalat müəssisəsinin təqsiri üzündən baş verə biləcək bədbəxt hadisələrə cavabdehlik daşıyır;

3.18.6. təhsil müəssisəsi ilə bağlanılmış müqaviləyə uyğun olaraq digər vəzifələri həyata keçirir.

3.19. Tələbə:

3.19.1. təcrübə proqramına uyğun olaraq bilik, bacarıq və vərdişlərə yiyələnir;

3.19.2. təcrübə bazasının infrastrukturundan səmərəli istifadə edir;

3.19.3. təcrübə proqramında nəzərdə tutulan fəaliyyətləri təsdiq edilmiş qrafikə uyğun həyata keçirir;

3.19.4. təcrübə proqramına uyğun verilən tapşırıqları vaxtında və keyfiyyətlə yerinə yetirir;

3.19.5. təcrübə bazasının nizam-intizam qaydalarına riayət edir;

3.19.6. üzrsüz səbəbdən təcrübədən yayınma hallarına yol vermir.

3.20. Təhsil müəssisəsi tərəfindən təyin olunan təcrübə rəhbərinin öhdəlikləri aşağıdakılardır:

3.20.1. təcrübə bazası tərəfindən təyin olunan təcrübə rəhbəri ilə birlikdə təcrübənin keçirilməsinə dair təcrübə gündəliyini hazırlayır;

3.20.2. tələbələrin əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydalarına riayət etmələrinə cavabdehlik daşıyır;

3.20.3. tələbələrə fərdi tapşırıqların, təcrübə mövzularının müəyyənləşdirilməsində və onların təcrübə bazalarına təhkim olunmasında iştirak edir;

3.20.4. tələbələrə fərdi tapşırıqların yerinə yetirilməsində metodiki yardım göstərir və onlara tələb olunduğu halda buraxılış işi və magistr dissertasiyasının yazılması üçün lazım olan materialların toplanmasında kömək edir;

3.20.5. tələbələrə təcrübə proqramının yerinə yetirilməsi barədə hesabat tərtib edilməsində metodiki yardım göstərir;

3.20.6. tələbənin təcrübə üzrə qiymətləndirilməsində iştirak edir;

3.20.7. təcrübə müddətində tələbələrin davamiyyətinə nəzarət edir.

3.21. Təcrübə bazası tərəfindən təyin olunan təcrübə rəhbəri:

3.21.1. təhsil müəssisəsi tərəfindən təyin olunan təcrübə rəhbəri ilə birlikdə təcrübənin keçirilməsinə dair təcrübə gündəliyini hazırlayır;

3.21.2. tələbələri təcrübə bazasının müvafiq struktur bölmələri üzrə yerləşdirir;

3.21.3. təhsil müəssisəsi tərəfindən təyin olunan təcrübə rəhbəri ilə birlikdə tələbələrin təhlükəsizlik texnikası qaydalarına riayət etmələrinə görə məsuliyyət daşıyır;

3.21.4. tələbənin təcrübə hesabatını imzalayır;

3.21.5. tələbələrin təcrübə müddətində fəaliyyətləri ilə bağlı rəy hazırlayır, rəsmiləşdirir və təhsil müəssisinə təqdim edir;

3.21.6. tələbənin təcrübə üzrə qiymətləndirilməsində iştirak edir;

3.21.7. tələbənin təcrübəyə davamiyyətinə nəzarət edir və təhsil müəssisəsinə məlumat verir.

### 4. Təcrübənin qiymətləndirilməsi

4.1. Təcrübənin nəticəsinin qiymətləndirilməsi təhsil müəssisəsinin müəyyən etdiyi qiymətləndirmə meyarları əsasında təhsil müəssisəsi tərəfindən yaradılan, təhsil müəssisəsi, eləcə də təcrübə bazası tərəfindən təyin edilən təcrübə rəhbərlərinin də iştirak etdiyi təcrübə komissiyaları tərəfindən aparılır.

4.2. Qiymətləndirmə hər bir təcrübə növü üzrə ayrı-ayrılıqda aparılır. Qiymətləndirmənin üsul və meyarları təhsil müəssisəsi tərəfindən müəyyənləşdirilir.

4.3. Təcrübə üçün nəzərdə tutulmuş saatların 25 faizindən çoxunda iştirak etməyən tələbənin qiymətləndirilməsi aparılmır. Bu hədd təhsil müəssisəsi tərəfindən azaldıla bilər.

4.4. Təcrübədə müxtəlif səbəblərdən iştirak etməyən və ya qeyri-müvəffəq qiymət alan tələbələr təkrarən təcrübədən keçməlidirlər.

4.5. Təcrübədə müxtəlif səbəblərdən iştirak etməyən və ya qeyri-müvəffəq qiymət alan tələbələrin yenidən təcrübə keçmə vaxtı təhsil müəssisəsi tərəfindən müəyyən edilir. Səbəbindən asılı olmayaraq, təcrübədə iştirak etməyən və (və ya) təcrübədən qeyri-müvəffəq qiymət alan tələbənin təkrarən təcrübədə iştirakı ödənişlidir. Bu zaman ödənişin məbləği ali təhsilin bakalavriat və magistratura səviyyəsində təhsil alan tələbələrə münasibətdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli Qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na və orta ixtisas təhsili pilləsində təhsil alan tələbələrə münasibətdə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 26 dekabr tarixli 354 nömrəli Qərarı ilə təsdiq edilmiş "Orta ixtisas təhsili müəssisələrində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na uyğun olaraq müəyyən edilir.

4.6. Bu Qaydanın 3.12-ci bəndinə uyğun olaraq təcrübəsi tanınan tələbənin qiymətləndirilməsi təhsil müəssisəsinin müəyyən etdiyi qaydaya uyğun olaraq təcrübə komissiyası tərəfindən aparılır.

### 5. Maddi təminat

5.1. Təqaüd alan tələbələrin təcrübə müddətində təqaüdləri saxlanılır.

5.2. Təcrübə təhsil müəssisəsinə təhsilalanlara dövlət sifarişi üzrə və dövlət hesabına büdcədən ayrılan vəsaitlər və qanunvericilikdə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

5.3. Təhsil müəssisəsində təcrübəyə rəhbərliyə görə Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq edilən professor-müəllim heyətinin tədris işi vaxtı normasına uyğun olaraq təcrübə rəhbərinə dərs yükü ayrılır.

5.4. Təcrübə müddətində işəgötürənlə tələbə arasında müddətli əmək müqaviləsi bağlanıla bilər. Bu halda işəgötürən tərəfindən qanunvericiliyə uyğun olaraq, təcrübə keçən tələbəyə əməkhaqqı ödənilir və icbari ödənişlər edilir.

5.5. Təhsil müəssisəsi yerləşdiyi şəhərdə (rayonda) tələbəni təcrübə bazası ilə təmin etmədiyi halda, tələbənin həmin təhsil müəssisəsinin yerləşdiyi ərazidən kənarda və ya xarici ölkədə təcrübə keçməsi ilə bağlı nəqliyyat və mehmanxana xərclərini ödəyir. Təcrübə tələbənin təklifi əsasında təhsil müəssisəsinin yerləşdiyi şəhərdən (rayondan) kənarda və ya xarici ölkədə keçirildiyi halda, nəqliyyat və mehmanxana xərcləri onun tərəfindən ödənilir.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 490** QƏRAR Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2005-ci il 2 fevral tarixli 18 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 2, maddə 121; 2006, № 1, maddə 59; 2009, № 1, maddə 32, № 10, maddə 846; 2010, № 1, maddə 49; 2012, № 2, maddə 183; 2013, № 6, maddə 738; 2014, № 1, maddə 69, № 2, maddə 201, № 7, maddə 925; 2016, № 4, maddə 772, № 5, maddə 955; 2017, № 3, maddə 478; 2018, № 3, maddə 624, № 8, maddə 1817, № 10, maddə 2174; 2020, № 6, maddə 788; 2021, № 3, maddə 301, № 9, maddə 1084, № 11, maddələr 1256, 1271; 2022, № 4, maddələr 402, 403, № 12, maddə 1533; 2023, № 8 (II kitab), maddə 1268; Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 3 noyabr tarixli 401 nömrəli və 4 noyabr tarixli 405 nömrəli qərarları) ilə təsdiq edilmiş "Elektrik enerjisindən istifadə Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

1. Aşağıdakı məzmunda 1.3-1-ci bənd əlavə edilsin:

"1.3-1. Müstəqil enerji istehsalçıları ilə istehlakçılar arasında elektrik enerjisinin alqı-satqısına dair müqavilələr bu Qaydalara əlavə edilmiş birtipli müqavilələr nəzərə alınmaqla fərqli formada bağlanıla bilər.".

2. 12.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"12.4. Müstəqil enerji istehsalçısı istehsal etdiyi elektrik enerjisini istehlakçıya, dövlət elektroenergetika müəssisəsinə və (və ya) enerjitəchizatı müəssisəsinə sata bilər. Müstəqil enerji istehsalçısı ilə dövlət elektroenergetika müəssisəsi və (və ya) enerjitəchizatı müəssisəsi arasında elektrik enerjisinin alqı-satqı müqaviləsi bu Qaydaların 5 nömrəli əlavəsinə uyğun bağlanılır.

Müstəqil enerji istehsalçısı ona məxsus elektrik şəbəkəsi, həmçinin dövlət elektroenergetika müəssisəsi və (və ya) enerjitəchizatı müəssisəsi ilə ötürmə və ya paylama qiymətlərini razılaşdırmaqla ötürücü və (və ya) paylayıcı şəbəkə vasitəsilə istehlakçıları elektrik enerjisi ilə təchiz edir. Müstəqil enerji istehsalçısı ilə istehlakçı arasında elektrik enerjisinin alqı-satqısı onlar arasında bağlanılmış müqaviləyə uyğun tənzimlənir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 504** QƏRAR Bakı şəhəri, 30 dekabr 2023-cü il

## "Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Bakı şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 505** QƏRAR Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2017-ci il 17 noyabr tarixli 500 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 11, maddə 2164; 2018, № 3, maddə 586, № 9, maddə 1904, № 10, maddə 2169, № 11, maddə 2427; 2019, № 1, maddə 148, № 2, maddə 332, № 4, maddələr 747, 748, 759, № 5, maddə 939, № 7, maddələr 1314, 1323, № 8, maddə 1473, № 12, maddələr 2047, 2055, 2061; 2020, № 1, maddə 84, № 2, maddələr 185, 195, 219, № 3, maddələr 345, 375, № 4, maddə 488, № 8, maddə 1130, № 10, maddə 1267; 2021, № 1, maddə 94, № 2, maddə 201, № 3, maddə 271, № 4, maddələr 392, 422, № 9, maddə 1053, № 10, maddə 1172, № 12, maddələr 1516, 1519, 1536, 1541; 2022, № 1, maddə 83, № 3, maddələr 266, 280, № 4, maddə 396, № 5, maddə 545, № 6, maddələr 669, 681, № 8, maddə 1011, № 9, maddə 1105, № 11, maddələr 1345, 1348, 1355, № 12, maddə 1562; 2023, № 2, maddələr 295, 303, № 4, maddə 587, № 5, maddə 710) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə aşağıdakı dəyişikliklər edilsin:

1. 0102 21 300 0, 0102 21 900 0, 0105 11 110 0, 0105 11 190 0, 0207 11 100 0, 0207 11 300 0, 0207 11 900 0, 0207 12 100 0, 0207 12 900 0, 0207 13 100 0, 0207 13 200 0, 0207 13 300 0, 0207 13 400 0, 0207 13 500 0, 0207 13 600 0, 0207 13 700 0, 0207 13 910 0, 0207 13 990 0, 0207 14 100 0, 0207 14 200 0, 0207 14 300 0, 0207 14 400 0, 0207 14 500 0, 0207 14 600 0, 0207 14 700 0, 0207 14 910 0, 0207 14 990 9, 0405 10 110 0, 0405 10 190 0, 0405 10 300 0, 0405 10 500 0, 0405 10 900 0, 0405 20 100 0, 0405 20 300 0, 0405 20 900 0, 0405 90 100 0, 0405 90 900 0, 0407 11 000 0, 0407 21 000 0, 0407 90 100 0, 0407 90 900 0, 0702 00 000 0, 0707 00 050 0, 0707 00 900 0, 0806 10 100 0, 0806 10 900 0, 0808 10 100 0, 0808 10 800 0, 0808 30 100 0, 0808 30 900 0, 2009 12 000 0, 2009 21 000 0, 2009 31 110 0, 2009 31 190 0, 2009 31 510 0, 2009 31 590 0, 2009 31 910 0, 2009 31 990 0, 2009 41 920 0, 2009 41 990 0, 2009 50 100 0, 2009 50 900 0, 2009 61 100 0, 2009 61 900 0, 2009 71 200 0, 2009 71 990 0, 2202 99 180 1, 2202 99 180 2, 2403 19 100 1, 2403 19 900 1, 4101 20 100 0, 4101 20 300 0, 4101 20 500 0, 4101 20 800 0, 4101 50 100 0, 4101 50 300 0, 4101 50 500 0, 4101 50 900 0, 4101 90 000 0, 4102 10 100 0, 4102 10 900 0, 4102 21 000 0, 4102 29 000 0, 4104 11 100 0, 4104 11 510 0, 4104 11 590 0, 4104 11 900 0, 4104 19 100 0, 4104 19 510 0, 4104 19 590 0, 4104 19 900 0, 4105 10 000 0, 6809 11 000 0, 6809 19 000 0 və 6904 10 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2023-cü il" sözləri "31.12.2025-ci il" sözləri ilə əvəz edilsin.

2. 0703 10 190 0 və 0703 10 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (01.05.2023-cü il tarixinədək 0%)" sözləri "15" rəqəmləri ilə əvəz edilsin.

3. 0802 21 000 0 və 0802 22 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (31.12.2023-cü il tarixinədək 1 kq - 1,5 ABŞ dolları)" sözləri "15" rəqəmləri ilə əvəz edilsin.

4. 0810 70 000 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (31.12.2023-cü il tarixinədək 1 kq - 0,3 ABŞ dolları)" sözləri "15" rəqəmləri ilə əvəz edilsin.

5. 1209 91 800 0, 2102 10 100 0, 2102 10 310 0, 2102 10 900 0, 2102 20 110 0, 2102 20 190 0, 2102 30 000 0, 2301 20 000 0, 2309 90 100 0, 2309 90 200 0, 2309 90 310 0, 2309 90 330 0, 2309 90 350 0, 2309 90 390 0, 2309 90 410 0, 2309 90 430 0, 2309 90 490 0, 2309 90 510 0, 2309 90 530 0, 2309 90 590 0, 2309 90 700 0, 2309 90 910 0 və 2309 90 960 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2023-cü il" sözləri "31.12.2026-cı il" sözləri ilə əvəz edilsin.

6. 2508 10 000 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "5 (31.12.2023-cü il tarixinədək 1 kq - 0,03 ABŞ dolları)" sözləri "5" rəqəmi ilə əvəz edilsin.

7. 2520 10 000 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (31.12.2023-cü il tarixinədək 1 kq - 0,07 ABŞ dolları)" sözləri "15" rəqəmləri ilə əvəz edilsin.

8. 2523 10 000 9, 2523 29 000 0, 2523 30 000 0 və 2523 90 000 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2023-cü il" sözləri "31.12.2030-cu il" sözləri ilə əvəz edilsin.

9. 3206 49 700 0 alt yarımmövqeyinə aid sətrin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (31.12.2030-cu il tarixinədək 0%)" sözləri "15" rəqəmləri ilə əvəz edilsin.

10. 6810 11 100 0, 6810 11 900 0 və 6810 19 000 0 alt yarım-mövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "15 (31.12.2023-cü il tarixinədək 1 kq 0,4 ABŞ dolları)" sözləri "15" rəqəmləri ilə əvəz edilsin.

11. 6907 21 100 0, 6907 21 900 0, 6907 22 100 0, 6907 22 900 0, 6907 23 100 0, 6907 23 900 0, 6907 30 100 0, 6907 30 900 0, 6907 40 100 0 və 6907 40 900 0 alt yarımmövqelərinə aid sətirlərin "Tarif dərəcəsi (gömrük dəyərinə görə %-lə və ya ölçü vahidinə görə ABŞ dolları ilə)" sütununda "31.12.2023-cü il tarixinədək 15 faiz, lakin 1 $m^2$-ə 2 ABŞ dollarından az olmamaqla" sözləri "31.12.2025-ci il tarixinədək 15 faiz, lakin 1 $m^2$-ə 3 ABŞ dollarından az olmamaqla" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 506** QƏRAR Bakı şəhəri, 30 dekabr 2023-cü il

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı"nda dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 5 avqust tarixli 269 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2023, № 8 (II kitab), maddə 1252) ilə təsdiq edilmiş "İşğaldan azad edilmiş ərazilər üzrə idxalı əlavə dəyər vergisindən və gömrük rüsumundan azad edilən iqtisadi fəaliyyət sahələri və mal nomenklaturaları üzrə texnikanın, texnoloji avadanlıqların və qurğuların, habelə xammal və materialların siyahısı"nın 3-cü hissəsinin 25-ci sətri çıxarılsın.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# MƏRKƏZİ SEÇKİ KOMİSSİYASINDA

## Mərkəzi Seçki Komissiyası növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində ilk namizədi qeydə alıb



*Əvvəli 1-ci səh.*

İclasda, habelə qarşıdan gələn seçkilərlə əlaqədar seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydası komissiya üzvləri tərəfindən müzakirə olunaraq təsdiq edilib. Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq, 6524203 (altı milyon beş yüz iyirmi dörd min iki yüz üç) seçki bülleteninin Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində MSK-nın təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında mətbəə üsulu ilə hazırlanması qərara alınıb.

Komissiyanın iclasında 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi özü tərəfindən irəli sürülmüş Namizəd Heydər oğlu Səfərovun namizədliyinin irəli sürülməsi də təsdiq olunub. Beynəlxalq müşahidə missiyası və media qurumları nümayəndələrinin iştirak etdiyi iclasda həmçinin cari məsələlərə də baxılıb.

QƏRAR № 13/60

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində seçki bülletenlərinin mətni, forması, sayı və hazırlanma qaydasına dair Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra - Seçki Məcəlləsi) 99.1-99.4-cü və 199-cu maddələrinin tələbinə görə, seçki bülletenlərinin mətni və forması, onların sayı, hazırlanmasına aid tələblər Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra - Mərkəzi Seçki Komissiyası) qərarı ilə səsvermə gününə ən geci 35 gün qalmış təsdiq edilməli, qeydə alınmış seçicilərin sayının 3 faizindən artıq olmamaq şərtilə səsvermə gününə ən azı 10 gün qalmış Mərkəzi Seçki Komissiyasının nümayəndələrinin müşahidəsi altında müvafiq qaydada hazırlanmalıdır.

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində istifadə ediləcək seçki bülletenləri ilə əlaqədar yuxarıda göstərilən qayda və şərtlər əsas götürülməli, mövcud seçki dairələri üzrə həmin bülletenlərin bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnməli, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilməli, qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü), onları irəli sürmüş subyektlərin adı, siyasi partiyalar (siyasi partiya blokları) tərəfindən namizədliyi irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.6-cı, 25.2.11-ci, 28.2-ci, 28.4-cü, 99-cu və 199-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində mövcud seçki dairələri üzrə bir-bir və ardıcıl olaraq kəsilən yuxarı sol küncü nömrələnmiş, namizədlər barəsində məlumatlardan sağda boş kvadrat, yuxarıda doldurulması qaydası haqqında izah, yuxarı sağ küncündə möhür yeri, aşağı sağ küncündə isə ləğvetmə xətti yerləşdirilmiş, habelə qeydə alınmış hər bir namizədin əlifba sırası qaydasında soyadı, adı, atasının adı, doğum tarixi, yaşayış yeri, əsas iş və ya xidmət yeri (bu olmadıqda - fəaliyyət növü), onları irəli sürmüş subyektlərin adı, siyasi partiyalar (siyasi partiya blokları) tərəfindən namizədliyi irəli sürülən qeydə alınmış namizədin mənsub olduğu siyasi partiyanın qısa adı, öz təşəbbüsü ilə və ya bilavasitə seçicilər tərəfindən irəli sürülən qeydə alınmış namizədin öz arzusu ilə partiya mənsubiyyəti göstərilmiş seçki bülleteninin mətni və forması təsdiq edilsin.

2. Ölkə üzrə qeydə alınmış seçicilərin ümumi sayından 3 faiz artıq olmamaqla, cəmi 6 524 203 (altı milyon beş yüz iyirmi dörd min iki yüz üç) ədəd seçki bülleteni Azərbaycan Respublikası Milli Məclisinin mətbəəsində Mərkəzi Seçki Komissiyasının təmsilçiliyə uyğun 3 üzvünün müşahidəsi altında mətbəə üsulu ilə hazırlansın.

3. Qərarın icrası öz səlahiyyətləri daxilində Mərkəzi Seçki Komissiyasının Katibliyinə və Milli Məclisin mətbəəsinə həvalə edilsin.

4. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*30.12.2023*

QƏRAR № 13/61

## 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Namizəd Heydər oğlu Səfərovun namizədliyinin irəli sürülməsinin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı

2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində Namizəd Heydər oğlu Səfərovun namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüşdür.

Namizədliyin irəli sürülməsinin təsdiq edilməsi üçün sənədlər 2023-cü il dekabrın 25-də Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra - Mərkəzi Seçki Komissiyası) təqdim edilmişdir.

Mərkəzi Seçki Komissiyası bununla əlaqədar Azərbaycan Respublikası Seçki Məcəlləsində (bundan sonra - Seçki Məcəlləsi) nəzərdə tutulmuş müddətdə və qaydada müvafiq araşdırma aparıb, irəli sürülmüş namizədliyin təsdiq edilməsi üçün əsasların olmasını müəyyən etmişdir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Konstitusiyasının 56-cı və 100-cü, Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci, 28.4-cü, 53-cü və 180.1-ci maddələrinə əsasən **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Namizəd Heydər oğlu Səfərovun namizədliyinin irəli sürülməsi təsdiq edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Katib** Arifə Muxtarova
**Katib** Mikayıl Rəhimov

*30.12.2023*

# "Qızılağac Milli Parkı - Xəzər nağılı" sənədli filminin təqdimatı keçirilib





Dekabrın 30-da Nizami Kino Mərkəzində IDEA İctimai Birliyinin "Azərbaycanın 10 möcüzəsi" xüsusi layihəsi çərçivəsində yeddinci ekran əsəri olan "Qızılağac Milli Parkı - Xəzər nağılı" sənədli filminin təqdimat mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva tədbirdə iştirak edib.

Filmin təqdimatından əvvəl qonaqlar 2014-cü ildən ərsəyə gətirilmiş 6 sənədli film, "Şirvan Milli Parkı", "Ağgöl Milli Parkı", "Göygöl Milli Parkı", "Ceyranlar", "Abşeron Milli Parkı" və "Şahdağ Milli Parkı" haqqında hazırlanmış video və fotosərgi ilə tanış olublar.

Mərasimdə çıxış edən filmin rejissoru İqor Bışnyov layihənin təşəbbüskarı Leyla Əliyevaya təşəkkürünü bildirib, davamlı və uğurlu şəkildə həyata keçirilən layihənin növbəti filminin çəkiliş prosesindən maraqlı detalları danışıb, ölkəmizin bənzərsiz rəngarəng və təbii gözəlliklərinin olmasını nadir bir xoşbəxtlik kimi qeyd edib.



Filmdə 2018-ci ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərəncamı ilə yaradılmış Qızılağac Milli Parkının ərazisində mövcud olan qlobal əhəmiyyətli, adları Azərbaycan Respublikasının "Qırmızı Kitab"ına daxil edilmiş məməlilər, endemik və nəsli kəsilməkdə olan növlər və transsərhəd köçəri heyvanlar, həmçinin ərazi üçün xarakterik olan digər fauna və müxtəlif flora növləri haqqında bəhs edilir.

Tədbirdə 2023-cü il ərzində IDEA İctimai Birliyinin layihələrində könüllü kimi fəal iştirak edən 10 nəfər gənc Leyla xanım Əliyeva tərəfindən təşəkkürnamələrlə təltif edilib.

"Qızılağac Milli Parkı - Xəzər nağılı" filmin təqdimatından sonra Hirkan Milli Parkından bəhs edən və hazırda çəkilişləri davam edən yeni filmin treyleri də nümayiş etdirilib.

IDEA-nın milli parklarla bağlı sənədli filmlər silsiləsi yaratmağında əsas məqsədi Azərbaycanın əsrarəngiz təbiət gözəlliklərini ölkə daxilində və xaricdə təbliğ etmək, eləcə də ətraf mühitin mühafizəsinin vacibliyini diqqətə çatdırmaqdır.

# IDEA-nın "Sevincini bölüş" kampaniyası çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqlara hədiyyə oyuncaqlar paylanılıb





Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Sevincini bölüş" kampaniyası çərçivəsində şəhərin müxtəlif yerlərində yerləşdirilən xüsusi ianə qutularından toplanan istifadəyə yararlı oyuncaqlar, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xüsusi qayğıya ehtiyacı olan uşaqlara təqdim edilib.

Bu barədə IDEA İctimai Birliyindən AZƏRTAC-a bildiriblər.

Sözügedən qutulara toplanılan oyuncaqlardan ibarət hazırlanan yüz ədəd hədiyyə qutusu "Ümid yeri" uşaq sığınacağındakı azyaşlı uşaqlara paylanılıb.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların hədsiz sevincinə səbəb olan, onlara təbəssüm dolu gülüşlər bəxş edən, bayram abu-havası yaradan bu təşəbbüsə dəstək verən və kampaniyanın uğurla həyata keçməsində fəal olan hər bir iştirakçıya IDEA İctimai Birliyi minnətdarlığını bildirir.

Məlum olduğu kimi, tullantıların azaldılması, təkrar istifadəsi və təkrar emalına xüsusi önəm verən IDEA İctimai Birliyi tərəfindən bu istiqamətdə genişmiqyaslı təbliğat və təşviqat tədbirləri, kağız və plastik tullantıların, işlənmiş batareyaların toplanaraq təkrar emala göndərilməsi, eləcə də geyim əşyalarının toplanaraq təkrar istifadəyə göndərilməsi üzrə layihələr həyata keçirilir.

Digər məhsullar kimi, yüksək tələbata malik olan oyuncaqların da tullanması və çürüməsi ətraf mühitə zərərsiz ötüşmür. Bu həm tullanılan məhsulların çürüməsi zamanı təbiətə buraxılan zəhərli maddə və qazlar, həm də yeni məhsulların istehsalından irəli gələn zərər ilə bağlıdır.

Bu xüsusda IDEA İctimai Birliyi şəhərimizin sakinlərini öz "sevincini bölüşməyə", evlərində olan istifadəsiz, yararlı və saf qalan oyuncaqlarını tullamaq əvəzinə IDEA-nın ianə qutularına yerləşdirməklə ehtiyacı olan uşaqlara öz yardım əlini uzatmağa, eyni zamanda həmin oyuncaqlara "ikinci həyat" verməklə təbiətə vurulan zərəri azaltmağa çağırır. İanə edilən oyuncaqların qutulara atmaqdan öncə təmizlənməsi, qutulara kənar əşyalar və ya tullantılar atılmaması xahiş edilir. IDEA İctimai Birliyi hər kəsi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir və sizləri ətraf mühitin mühafizəsi naminə həmrəy olmağa səsləyir.




◆ Şəxsiyyətlər

# Xalqın yaddaşında yaşayan görkəmli dövlət xadimi

**Azərbaycan tarixində elə şəxsiyyətlər var ki, onların adları çəkiləndə xalq və dövlət üçün gördüyü işlər, xeyirxah əməllər gözlərimiz qarşısında canlanır. Belə şəxsiyyətləri xalq heç vaxt unutmur, daim xatırlayır və yaddaşında yaşadır. Görkəmli dövlət xadimi və Azərbaycan səhiyyəsinin inkişafında misilsiz xidmətləri olmuş bacarıqlı elm adamı Əziz Əliyev də dövrünün tanınmış şəxsiyyətlərindən idi. Əziz Əliyev XX əsrin əvvəllərindən ömrünün sonuna qədər dövlət quruculuğu işlərində, tibb elmi, tibb təhsili sahələrində əldə etdiyi elmi bilik və bacarıqlarını dövlət idarəçiliyinin təkmilləşdirilməsinə və möhkəmləndirilməsinə həsr edərək, təkcə ölkəmizdə deyil, onun hüdudlarından kənarda da tanınmış, yaşadığı şərəfli ömrü ilə bəşərilik və əbədilik rəmzinə çevrilmişdir.**



Biliyi, bacarığı və yüksək təşkilatçılığı ilə Azərbaycan xalqına başucalığı gətirmiş Əziz Əliyev 1 yanvar 1897-ci ildə İrəvan quberniyasının Hamamlı kəndində dünyaya göz açıb. İbtidai və orta təhsilinin bir hissəsini İrəvanda, bir hissəsini keçmiş ittifaqın Çita şəhərindəki gimnaziyada alıb. O vaxtlar Əziz Əliyevin bacısı Göyçək xanım ailəsi ilə birlikdə Çita şəhərində yaşayıb. Balaca Əziz də bacısıgildə qaldığına görə təhsilini orada davam etdirməli olub. 1914-cü ildə yay tətili günlərində İrəvana - doğmalarının yanına qayıdıb. Bəşəriyyətə və insanlığa böyük zərbə vuran Birinci Dünya müharibəsinin başladığına, gediş-gəliş çətinləşdiyinə görə Əziz Əliyev Çitaya qayıda bilməyib. Məcburən 1914-1917-ci illərdə İrəvandakı kişi gimnaziyasında təhsilini davam etdirib. 1917-ci ildə gimnaziyanı əla qiymətlərlə başa vurub. Onu da qeyd edək ki, Azərbaycanın görkəmli şəxsiyyətlərindən, elm xadimlərindən olan Heydər Hüseynov, Mustafa bəy Topçubaşov, Səid Rüstəmov və digərləri də həmin gimnaziyanın məzunları olublar.

Hələ kiçik yaşlarından həkim olmaq arzusu ilə yaşayan Əziz Əliyev 1917-ci ildə xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin istedadlı və bacarıqlı Azərbaycan gənclərinə göstərdiyi maddi yardım sayəsində Sankt-Peterburqa gedib və orada dünyanın ən məşhur tibb ocaqlarından sayılan Hərbi Tibb Akademiyasına qəbul olub. Əziz Əliyev bu ali tibb təhsili ocağında oxumaqla yanaşı, dərsdənkənar vaxtlarda səpkili yatalaq əleyhinə təşkil edilmiş sanitariya-dezinfeksiya briqadasında işə düzələrək həm tibbi-təcrübi vərdişlərə yiyələnib, həm də aldığı məvaciblə özünün və ailəsinin minimal xərclərini ödəyib.

Birinci kursu uğurla başa vuran Əziz Əliyev 1918-ci ilin yay tətili günlərində doğma yurdu İrəvana qayıdanda ermənilərin bu yerlərin əbədi-əzəli sakinləri olan azərbaycanlıları zorla ocaqlarından qovduqlarını görüb. Daşnakların azərbaycanlıların başlarına gətirdikləri işgəncələrin, soyqırımın, erməni vandalizminin, erməni şovinizminin törətdiyi qanlı hadisələrin və onun ağır nəticələrinin canlı şahidi olub. Tarixi mənbələr göstərir ki, həmin illərdə ermənilər azərbaycanlılara qarşı əsl soyqırımı törədiblər. XIX əsrin sonlarında (1897-ci ildə) aparılan siyahıyaalma məlumatlarına görə, İrəvan quberniyasında yaşayan əhalinin 87 faizini azərbaycanlılar, çox cüzi bir hissəsini isə ermənilər və digər millətlərin nümayəndələri təşkil edib. 1905-1907-ci və 1917-1918-ci illərdə erməni soyqırımları nəticəsində bu rəqəm 50 faizə enib. Həmin illərin məcburi köçkünlərdən biri də gələcəkdə bəşər tarixinin parlaq simalarından birinə çevriləcək Əziz Əliyev və onun ailə üzvləri olub.

Gənc Əziz erməni vandalizminə görə Sankt-Peterburqdakı təhsilini davam etdirməkdən məhrum olub. Naxçıvanın Şərur rayonunda, Cənubi Azərbaycanın Ərəblər kəndində, sonra yenidən Naxçıvanın Şahtaxtı kəndində məşəqqət və ağrılarla dolu qaçqınlıq həyatı yaşayıb. Əziz Əliyev 1923-cü ildə ali tibb təhsilini davam etdirmək üçün ailəsi ilə birlikdə Bakıya üz tutub. Elə həmin ildən də onun həyat və fəaliyyətinin mühüm mərhələsi başlayıb. Bakıya gəldikdən sonra Azərbaycan Xalq Komissarları Şurasında işə düzələn Əziz Əliyev tapşırıqların öhdəsindən uğurla gəlib. Bacarığı ilə qısa müddət ərzində iş icraçısı, ümumi şöbə müdirinin müavini, katib köməkçisi və katib vəzifələrində çalışaraq özünü mükəmməl təşkilatçı, təcrübəli dövlət işçisi kimi göstərib.

Həkimlik arzusuna qovuşmaq üçün Əziz Əliyev 1923-cü ildə imtahanlarda yüksək bilik nümayiş etdirərək Bakı Dövlət Universitetinin Tibb fakültəsinə qəbul olub. 1927-ci ildə ali tibb təhsilini uğurla başa vuran Əziz Əliyev elə həmin il Xalq Komissarları Şurasının göndərişi ilə klinikada elmi-pedaqoji fəaliyyətə başlayıb. Onun fenomen bir şəxsiyyət kimi formalaşdığını təsdiqləyən universitet rəhbərliyi gənc həkimin Tibb fakültəsini bitirdikdən sonra Daxili xəstəliklər kafedrasında saxlanılması haqqında qərar qəbul edib. Əziz Əliyev bu dövrdə özünü püxtələşmiş, bacarıqlı bir təşkilatçı kimi də göstərib. Ona görə də həkimlik fəaliyyəti ilə yanaşı, ona ən məsuliyyətli ictimai və dövlət əhəmiyyətli işlər də tapşırılıb.

Tibb fakültəsini bitirdikdən sonra apardığı elmi-pedaqoji işlərlə yanaşı, bacarığına görə Əziz Əliyev 1928-1929-cu illərdə Xalq Səhiyyə Komissarlığında Müalicə şöbəsinin müdiri vəzifəsinə təyin olunub.

O, 1929-cu ildə təşkilində özünün də fəal iştirak etdiyi Azərbaycan Kliniki İnstitutunun direktoru vəzifəsinə təyin olunub. Artıq alimlik dərəcəsi alan Əziz Əliyev 1932-ci ilə qədər bu instituta rəhbərlik edib və respublikanın tanınmış şəxslərindən biri kimi şöhrət qazanıb. 1930-cu il may ayının 9-da Azərbaycan Dövlət Universitetinin Tibb fakültəsi nəzdində Azərbaycan Dövlət Tibb İnstitutu yaradılıb. ADTİ-nin təşkili məsələsi çox mürəkkəb bir proses olduğundan bacarıqlı təşkilatçı kimi Əziz Əliyev də bu mühüm prosesin icrasına cəlb edilib. 1932-ci il iyun ayının 1-dən etibarən Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru kimi çalışmağa başlayıb və 1938-ci ilə qədər vəzifəsini bacarıqla yerinə yetirib.

Görkəmli alim və dövlət xadimi bu məsuliyyətli işə başlamazdan əvvəl bütöv bir həyat məktəbi keçmiş, kifayət qədər təcrübə əldə etmişdi. Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru təyin edilərkən o, təbii ki, ölkədə milli həkim və elmi işçi kadrlarının yetişdirilməsi üçün ilk növbədə tələbələrə təlim-tərbiyə verməyi bacaran azərbaycanlı mütəxəssislərin və ana dilində dəyərli tibbi ədəbiyyatın olmasını düşünmüşdü. Ədəbiyyatsız, dərsliklərsiz tibbi fənləri nə tədris etmək, nə də onu lazımınca mənimsəmək mümkün deyildi. Düşüncələrini həyata keçirmək üçün Əziz Əliyev qısa müddət ərzində tibbin müxtəlif ixtisasları üzrə səriştəsi olan azərbaycanlı alimləri səfərbər edərək onları ana dilində dərsliklər yazmağa sövq edib. Onun rəhbərliyi altında az vaxt ərzində Azərbaycan dilində 55 adda dərslik hazırlanıb və çap etdirilərək tələbələrin və müəllimlərin ixtiyarına verilib.

Əziz Əliyevin təşəbbüsü ilə işıq üzü görən əsərlərdən biri də özünün yazdığı "Klinik analizlər" kitabı idi. Bu təşəbbüsə qoşulan ilk alimlərdən K.Ə.Balakişiyevin "İnsanın normal anatomiyası", M.Qəniyevin "Mikrobiologiya kursu", C.Hüseynovun "Patoloji anatomiya", Y.Qazıyevin "Ağciyər vərəmi", Ü.Musabəylinin "Göz xəstəlikləri", Ə.Talışinskinin "Travmatologiya", Q.Səfərov və Ə.Həsənovun "Bioloji kimya" və digər dərslikləri, eləcə də M.Mirqasımovun, M.Topçubaşovun, M.Mirsəlimovun, M.Əfəndiyevin, Z.Məmmədovun və başqalarının ana dilində çap olunan əsərləri Azərbaycanın tibb təhsili tarixində abidəyə çevrilmiş orijinal nəşrlərdən hesab edilirlər. Bu kitablar indi də dəyərini saxlayır və onların hər birinin işıq üzü görməsində Əziz Əliyevin müstəsna rolu olub. Görkəmli alim qısa müddətdə rus dilində olan tibbi kitablardan ən vaciblərinin Azərbaycan dilinə tərcüməsinin də təşəbbüskarı və təşkilatçısı kimi tarixə düşüb. O vaxtlar kitab çap etdirmək üçün texniki təchizat yox dərəcəsində idi. Ümumiyyətlə, ADTİ-nin maddi-texniki bazası çox zəif idi. Bakı Dövlət Universitetinin Tibb fakültəsində milli kadrların yetişdirilməsinə bir o qədər də ciddi diqqət göstərilməmişdi və həmin fakültədə təhsil alanların içərisində başqa millətlərin nümayəndələri üstünlük təşkil edirdi. Odur ki, Əziz Əliyev ATİ-yə rəhbərlik etdiyi ilk illərdə hər şeyi sıfırdan başlamalı olub. Təbiidir ki, bu da çox vaxt tələb edib, alimin işlərini qat-qat çətinləşdirib.

Üzləşdiyi çətinliklərdən çəkinməyən Əziz Əliyev möhkəm iradə və dözüm nümayiş etdirərək Azərbaycan Dövlət Tibb İnstitutunun nəzdində tibbi kitabxana yaratmaq ideyasını reallaşdırıb. Onun səyi nəticəsində professor P.Rostovtsevin sədrliyi altında "Kitabxana komissiyası" yaradılıb və komissiya səmərəli fəaliyyət göstərərək, 1936-cı ildə oxuculara belə bir təlimat göndərib: "Kitabxana plan üzrə SSRİ-də nəşr olunan bütün yeni kitabları, o cümlədən dövri tibbi-bioloji ədəbiyyatı alır. Bunlardan əlavə, kitabxana SSRİ-nin 231 elmi müəssisəsi və 87 xarici ölkə ilə kitab mübadiləsi aparır". Bundan sonra tibbi kitabxananın özülünün möhkəmləndirilməsində, inkişafında və formalaşmasında ciddi dönüş yaranır.

Quruculuq işlərindən bir gün də olsun kənarda qalmayan Əziz Əliyev təhsil ocağının kollektivinin köməyi ilə 1934-cü ildə "Tibb nəşriyyatı" yaradıb. Onun təşəbbüsü və redaktorluğu ilə ilk dəfə "Praktiki və nəzəri tibb jurnalı" nəşrə başlayıb. 1929-cu ildən etibarən o, "Azərbaycan Tibb Jurnalı"nın məsul katibi vəzifəsində çalışıb, 1935-ci ildə isə həmin jurnalın baş redaktoru təyin edilib. Bu dövrdə jurnal ADTİ-də yenicə təşkil edilmiş "Tibb nəşriyyatı"nda çap olunub. 1933-cü ildə yenə də Əziz Əliyevin təşəbbüsü ilə Azərbaycan Dövlət Tibb İnstitutunda "Tibb kadrları uğrunda" adlı çoxtirajlı qəzetin çapına başlanılıb. Sonra həmin qəzet "Təbib" adı ilə ali məktəbin mətbuat orqanı kimi Azərbaycan Tibb Universitetində çap olunub.

Hansı ictimai, inzibati, təşkilati işlərdə çalışsa da, Əziz Əliyev elmi axtarışlarını bir gün, bir an olsun belə dayandırmayıb. 1933-cü il avqustun 4-dən etibarən Tibb İnstitutunun göndərişinə əsasən, Almaniyada elmi ezamiyyətdə olan Əziz Əliyev bu ölkədən qayıtdıqdan sonra doktorluq dissertasiyası müdafiə edib. Azərbaycanda ilk dəfə olaraq onun dissertasiya işi 1937-ci ildə Moskvada gənc alimlər müsabiqəsində SSRİ Elmlər Akademsiyasının və ÜİLKGİ Mərkəzi Komitəsinin mükafatına layiq görülən dəyərli və əhəmiyyətli elmi iş olub. Əziz Əliyev 1941-ci il mayın 13-də (Azərbaycan SSR Xalq Səhiyyə Komissarı vəzifəsində işləyərkən) SSRİ Elmlər Akademiyasının Azərbaycan filialının Rəyasət Heyəti nəzdində təşkil edilmiş Elmi Şuranın üzvü olub. 1956-cı ildə professor vəzifəsinə seçilib və həmin ildə də onun professor elmi adı təsdiq olunub.

Əziz Əliyevin Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik etdiyi dövrdə yazdığı "Klinik analizlər" adlı kitabı tələbələr və gənc həkimlər tərəfindən rəğbətlə qarşılanıb və onların stolüstü kitabına çevrilib. Onun "Həzm zamanı qanın xloridləri" (1928), "Malyariyanın Karno metodu ilə müalicəsi" (1932), "Klinik analizlər üzrə rəhbərlik" (1933) əsərləri "Azərbaycan Tibb Jurnal"ında çap edilib. Böyük alim elmi işlərini pedaqoji işləri ilə məharətlə uzlaşdırıb.

Tibb sahəsi üzrə milli kadrların hazırlanmasını daim ön plana çəkən Ə.Əliyev bu sahədə də böyük uğurlar qazanıb. Alimin Azərbaycan Dövlət Tibb İnstitutuna rəhbərlik etdiyi 6 il müddətində 11 doktorluq, 30 namizədlik dissertasiyası müdafiə edilib ki, onların da tam əksəriyyəti milli kadrlar olub. O, Azərbaycan Dövlət Tibb İnstitutunda təhsil alan tələbələrin həyatı ilə yaxından maraqlanıb, gənclərə diqqət və qayğı göstərib. 1933-cü ildə Əziz Əliyevin təklifi, təşəbbüsü və bilavasitə iştirakı ilə indiki Kliniki Tibbi Mərkəzin yaxınlığında "Tibb şəhərciyi"nin inşasına başlanılıb. Sonralar həmin ərazidə tələbə yataqxanaları ilə birlikdə nəzəri kafedralar üçün tədris korpusları da tikilib.

1933-1934-cü illərdə ölkədə çörək qıtlığı yaranıb. Buna görə də tələbələrin güzəranı xeyli ağırlaşıb. Həmin dövrdə Əziz Əliyevin qayğısı sayəsində "Azad qadın" heykəlinin yaxınlığındakı orta məktəbin birinci mərtəbəsində tələbə yeməkxanası təşkil edilib. Yeməkxanada tələbələrə gündə 500-600 qram çörəklə bərabər pulsuz yemək verilib. Bununla da gənclərin güzəranı yaxşılaşıb, onlar çörək qıtlığı çəkməyiblər. Əziz Əliyevin təşəbbüsü ilə təhsil ocağında rektorluq fondu yaradılıb. Bu fondun hesabına ehtiyacı olan əlaçı tələbələrə hər il pal-paltar, ayaqqabı alınıb. Bu da tələbələr üçün həvəsləndirici stimul olub.

Görkəmli elm xadimi hər il Azərbaycan Dövlət Tibb İnstitutunun son kurs tələbələrinin ən bacarıqlılarını Moskvanın və Sankt-Peterburqun məşhur ali tibb məktəblərinə ezam edib, onlara təcrübə toplamaları üçün əlverişli şərait yaradıb. Belə vaxtlarda o, özünü hərtərəfli xeyriyyəçi kimi aparar, ölkədən xaricə gedən tələbələrə yardımlar edər, onları öz hesabına geyindirərdi. Həmin tələbələrin əksəriyyəti sonralar tibbin müxtəlif sahələrində məşhur alim kimi formalaşdılar və Əziz Əliyevin yolunu davam etdirdilər. 1934-cü ildə böyük problemlər yarandığına görə Əziz Əliyev Bakı şəhər səhiyyəsinə rəhbər təyin edilib. Yüksək bacarığı ilə 8 ay ərzində vəziyyətin köklü şəkildə dəyişilməsinə nail olub. Azərbaycanın paytaxtı yoluxucu xəstəliklərin epidemiyasından xilas edilib. Bundan sonra o, yenidən ATİ-yə rəhbərliyə qayıdıb.

Alimin fəaliyyət dairəsi olduqca geniş və çoxcəhətli olub. O, müəyyən müddətdə Azərbaycan Dövlət Tibb İnstitutunun rektoru işləməklə yanaşı, Əczaçılıq İnstitutuna da rəhbərlik edib. 1937-ci ildə eyni zamanda həm ATİ-nin, həm də Bakı Dövlət Universitetinin rektoru vəzifələrində çalışıb. Həmçinin bir müddət Azərbaycan SSR Elmi-Tədqiqat Ortopediya və Bərpa Cərrahlığı İnstitutunun direktoru vəzifəsində fəaliyyət göstərib.

Azərbaycan səhiyyəsinin inkişaf tarixi bu görkəmli şəxsiyyətin adı ilə bağlıdır. Tanınmış səhiyyə təşkilatçısı 1939-1941-ci illərdə Azərbaycan SSR Xalq Səhiyyə Komissarı vəzifəsində çalışdığı dövrdə respublikanın ən ucqar rayonlarını kəndbəkənd gəzərək misilsiz xidmətlər göstərmişdir. Həmin illərdə Azərbaycanda tüğyan edən son dərəcə təhlükəli yoluxucu xəstəliklərə qarşı dövlət səviyyəsində mübarizə proqramı hazırlanıb və Əziz Əliyevin rəhbərliyi altında həyata keçirilib. Böyük alimin və həkimin yüksək peşəkarlığı sayəsində ölkədə xüsusi dispanserlər, şəhər və kəndlərdə 50 yerlik göz xəstəxanaları açılıb. Tezliklə traxoma, malyariya və digər xəstəliklərin qarşısı alınıb və bir çox ciddi infeksion xəstəliyin kökü tamamilə kəsilib. Əziz Əliyevin təcrübəsi ovaxtlar SSRİ Xalq Səhiyyə Komissarlığında müzakirə olunub. Elmi əsaslara söykənən bu müzakirələrdən sonra böyük alimin təcrübəsinin SSRİ miqyasında yayılması tövsiyə olunub.

Böyük Vətən müharibəsi dövründə Əziz Əliyev ordu hərbi şurasının üzvü kimi İrana ezam olunub. Sovet qoşun hissələrinin siyasi komissarı kimi çalışıb.

Əziz Əliyevin həyatındakı mühüm dövrlərdən biri də Dağıstana rəhbərlik etdiyi illərdir. Qonşu muxtar respublikanın ağır vəziyyətində - 1942-ci ildə Əziz Əliyevin Dağıstan vilayət partiya komitəsinin birinci katibi seçilməsi onun təkcə Azərbaycanda deyil, keçmiş SSRİ-də də böyük nüfuza malik olduğunun göstəricisi idi. Altı il bu vəzifədə çalışan Əziz Əliyev Dağıstanın həyatının bütün sahələrində böyük irəliləyişə nail olmuş, Azərbaycan-Dağıstan dostluğunun daha da möhkəmlənməsinə əvəzsiz töhfə vermişdir. Görkəmli dövlət xadimi Əziz Əliyevin 100 illik yubileyində geniş nitq söyləyən Ulu Öndər Heydər Əliyev demişdir: "Əziz Əliyev Azərbaycan və Dağıstan dostluğunun inkişafı sahəsində çox böyük xidmətlər göstərmiş, çoxsahəli fəaliyyəti və humanizmi sayəsində o, Azərbaycan-Dağıstan dostluğunun rəmzinə çevrilmişdir".

Əziz Əliyev I-II çağırış SSRİ Ali Sovetinin, I-III çağırış Azərbaycan SSR Ali Sovetinin, II çağırış Dağıstan MSSR-in Ali Sovetinin deputatı olub. Əziz Əliyevin xatirəsi həm Azərbaycanda, həm də Dağıstanda əbədiləşdirilib. Bakının və Mahaçqalanın mərkəzi küçələrinin birinə, Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutuna, Sumqayt və Kaspiysk şəhərlərinin tibb məktəblərinə bu böyük şəxsiyyətin adı verilib.

Əziz Əliyevin vətən və xalq qarşısındakı misilsiz xidmətləri layiqincə qiymətləndirilib. O, iki dəfə "Lenin" ordeni, "Qırmızı Əmək Bayrağı" ordeni, "I dərəcəli Vətən Müharibəsi" ordeni, "Səhiyyə Əlaçısı" döş nişanı, bir çox medal, o cümlədən 1948-ci ildə "Moskvanın 800 illik xatirəsinə" medalı və çoxsaylı fəxri fərmanlarla təltif edilib. 1960-cı ildə Əziz Əliyevə "Azərbaycan SSR-in Əməkdar həkimi" fəxri adı verilib.

Əziz Əliyev Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin katibi, Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin katibi, Azərbaycan SSR Nazirlər Soveti Sədrinin birinci müavini vəzifələrində çalışdığı dövrlərdə də respublikada elmin, səhiyyənin, təhsilin inkişafına daim qayğı göstərmişdir. Dövlət xadimi olmaqla yanaşı, həm də çox qayğıkeş və gözəl ailə başçısı olmuş Əziz Əliyevin ailəsindən dünyaşöhrətli oftalmoloq-alim Zərifə xanım Əliyeva kimi şəxsiyyət çıxmışdır. Zərifə xanım uzun müddət Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Göz xəstəlikləri kafedrasına rəhbərlik etmiş, Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü olmuş, SSRİ Tibb Elmləri Akademiyasının Akademik M.İ.Averbax adına mükafatına layiq görülmüşdür.

1962-ci il iyul ayının 27-də Əziz Əliyev vəfat etmiş və Fəxri xiyabanda dəfn olunmuşdur.

Əziz Əliyevin oğlu, əməkdar elm xadimi, professor Tamerlan Əliyev uzun illər Azərbaycan Tibb Universitetinin Daxili xəstəliklər kafedrasına rəhbərlik etmişdir. Qızı Əməkdar incəsənət xadimi Gülarə Əliyeva Azərbaycan musiqisinin inkişafında böyük xidmətlər göstərmişdir. Qızı Zərifə Əliyeva uzun illər ATU-nun Göz xəstəlikləri kafedrasında aparıcı dosent vəzifəsində çalışmışdır. Qızı Dilbər Əliyeva rabitəçi-mühəndis olmuş, "Əməkdar rabitəçi" fəxri adına layiq görülmüşdür. Oğlu, məşhur cərrah-onkoloq, dünyanın bir çox ölkəsinin akademiyalarının, o cümlədən Rusiya Elmlər Akademiyasının, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü, keçmiş SSRİ Elmlər Akademiyasının Akademik N.N.Petrov adına mükafatına və diplomuna, eləcə də Azərbaycanın "Şöhrət" və "Şərəf", 1-ci dərəcəli "Vətənə xidmətə görə" ordenlərinə layiq görülmüş akademik Cəmil Əliyev hazırda Azərbaycan Respublikasının Prezidenti yanında tibb xidmətinin rəisi vəzifəsini yerinə yetirməklə yanaşı, həm də Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Milli Onkologiya Mərkəzinə, Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Onkologiya kafedrasına rəhbərlik edir.

Böyük alim Əziz Əliyevin nəvə və nəticələri bu gün onun yolunu ləyaqətlə davam etdirirlər. Onun adını daşıyan nəvəsi, akademik Cəmil Əliyevin oğlu tibb üzrə elmlər doktoru, professor Əziz Əliyev hazırda İ.M.Seçenov adına Moskva Dövlət Tibb Universitetinin Bakı filialının rektoru vəzifəsində çalışır, səhiyyəmizin inkişafına yüksək töhfələr verir.

İllər bizi bu yaşanmış tarixdən uzaqlaşdırdıqca Əziz Əliyev şəxsiyyəti insanların gözündə daha da böyük zirvələrə ucalır. 126 il əvvəl qədim İrəvan torpağında dünyaya göz açmış Əziz Əliyev Azərbaycan səhiyyəsinin, elminin inkişafında son dərəcə böyük xidmətlər göstərmiş bir şəxsiyyətdir. Xalq belə nurlu, işıqlı övladları ilə daim qürur duyur, onların xatirəsini sonsuz ehtiram və hörmətlə yad edir. Çünki bu cür görkəmli insanlar ölkənin qürur və iftixar mənbəyidirlər. Doğma Vətənimizə sədaqətlə xidmət etmiş, xeyirxah əməlləri ilə tariximizdə pozulmayan izlər qoymuş görkəmli alim, siyasi xadim Əziz Əliyevin xatirəsi xalqımızın qəlbində əbədi yaşayacaq.

***Əhliman ƏMİRASLANOV,***
***Milli Məclisin Səhiyyə komitəsinin sədri, SSRİ Dövlət mükafatı laureatı, akademik***

GCM GLOBAL ENERGY AZERBAIJAN

"Global Energy Azerbaijan"
şirkəti və onun törəmə şirkətləri
Azərbaycan xalqını

"Absheron Operating Company"
"Binagadi Oil Company"
"Karasu Operating Company"
"Shirvan Operating Company"
"Neftechala Operating Company"

Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edir, xoş günlər və firavan həyat arzulayır.

2024-cü iliniz mübarək!

Dəyərli həmvətənlərimiz!

Sizi Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və
Yeni il bayramı münasibəti ilə təbrik edirik.
Qarşıdan gələn 2024-cü il sizlərə daha çox ümid, daha çox sevinc,
daha çox xoşbəxtlik gətirsin.
Üzünüzdən gülüş, könlünüzdən sevgi əskik olmasın.
Hər zaman sevin və sevilin!

Bayramınız mübarək!

AZPETROL
Daim İnkişafa Doğru!

# Yeni ilimiz "Yaşıl dünya naminə həmrəylik ili" olacaq

Prezident İlham Əliyevin sərəncamı ilə 2024-cü il ölkəmizdə "Yaşıl dünya naminə həmrəylik ili" elan edilib. Sərəncamda respublikamızın beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə öz töhfəsini verdiyi qeyd olunmuşdur. Bildirilir ki, Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" kimi müəyyən edilmişdir: "Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır".

Azərbaycan 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyib. 2050-ci ilə qədərki hədəfimiz isə istixana qazlarının miqdarının 40 faiz azaldılmasıdır. Azərbaycan Respublikasının Prezidenti ölkəmizin işğaldan azad edilmiş torpaqlarını "yaşıl enerji" zonası elan edib. Həmin ərazilərin 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub.

Azərbaycanın flora və faunasına görə ən zəngin bölgələrindən olan Qarabağı və Şərqi Zəngəzuru XX əsrin sonlarında təcavüzkar ermənilər münaqişə ocağına çevirdilər. Qəsbkarlar 1990-cı illərdə respublikamızın ərazilərinin iyirmi faizini işğal etdilər. Vəhşi ermənilər işğal altında saxladıqları otuz ilə yaxın müddət ərzində həmin torpaqların yalnız tarixi və müasir tikililərini dağıdıb yerlə yeksən etmədilər, Qarabağın, Şərqi Zəngəzurun nadir bitkilərlə, ağaclarla zəngin, sıx meşələrini də viran qoydular.

2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində ədalət bərpa olundu. Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlubiyyətə uğratdı. Erməni vandallarının xarabalığa çevirdikləri ərazilərimiz işğaldan azad olundu. Azərbaycan dövləti həmin yerlərdə geniş və sürətli tikinti-quruculuq işlərinə başladı. Bu gün Qarabağda, Şərqi Zəngəzurda həyat canlanmaqdadır. Yeni evlər tikilir, infrastrukturlar salınır. Keçmiş məcburi köçkünlər öz evlərinə qayıdırlar.

Erməni əsarətindən qurtulan ərazilərimizin təbiəti də rahat nəfəs alır. Vaxt gələcək həmin yerlər yenə də gözəlliyi, əsrarəngizliyi ilə görənləri heyran edəcək. Bu gün Azərbaycan dövləti bu istiqamətdə də məqsədyönlü işlər həyata keçirməkdədir.

Dövlət başçısı İlham Əliyevin sərəncamında bildirilir ki, azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritetdir, həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur: "Yaşıl enerji növlərinin yaradılması və yaşıl enerjinin dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin prioritetidir. Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir".

2020-ci ildə Vətən müharibəsi zamanı Müzəffər Azərbaycan Ordusunun işğalçı Ermənistanın silahlı qüvvələrini məğlub edərək nail olduğu Böyük Zəfər ölkəmizi dünyaya daha qüdrətli, daha güclü dövlət kimi tanıtdı. Dövlətimizin apardığı uğurlu xarici siyasət ölkəmizin beynəlxalq aləmdə nüfuzunun artması ilə nəticələndi.

Həm müasir infrastruktura malik olan, həm də təhlükəsizlik baxımından sabit ölkələr sırasında əhəmiyyətli yerdə qərar tutan Azərbaycan bir çox qlobal xarakterli mötəbər tədbirlərə evsahibliyi etməsi ilə də diqqət mərkəzindədir. 2024-cü ildə isə ölkəmiz dünyanın ən böyük və mühüm beynəlxalq tədbirlərindən biri olan COP29-a evsahibliyi etməsi üçün seçilib. Bu, Azərbaycanın növbəti uğurlarından biridir. Elə bu səbəbdən də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının ölkəmizdə keçiriləcəyindən narahatlıq keçirənlər də olub. Bir qrup ermənipərəst fransız ictimai-siyasi xadiminin, həmçinin Paris meri Ann İdalqonun 2024-cü ildə COP29-un Azərbaycanda keçirilməsi qərarına etiraz əlaməti olaraq müraciətlə çıxış etmələri ölkəmizin uğurlarını gözügötürməzliyin, eləcə də Fransa cəmiyyətinin irqçi, islamofob və Azərbaycanofob mahiyyətinin təzahürüdür.

Azərbaycan Respublikasında 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi haqqında sərəncamda bildirilir: "BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirin Azərbaycanda keçirilməsi ilə əlaqədar yekdil qərarın verilməsi beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycana böyük hörmət və etimadın, eləcə də ölkəmizin milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfəsinin təqdir olunmasının bariz nümunəsidir".

Azərbaycan BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına tərəf olmaqla qlobal iqlim dəyişmələrinə qarşı mübarizəyə qoşulmuş ölkələrdəndir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı - COP Konvensiyasının ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Dünyanın hökumət nümayəndələri hər il COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə çağırışlar edirlər. COP-un ilk toplantısı 1995-ci ildə Berlin şəhərində təşkil edilib. Sonuncusu isə bu il Dubayda keçirilib.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# Bu günün və sabahın seçimi



Son iki əsr ərzində ermənilər Azərbaycan torpaqlarında iğtişaşlar törətmiş, minlərlə insanın qətlinə fərman vermişlər. Onlar bunu nə qədər inkar etmək istəsələr də, tarixi faktlar, dəlillər həqiqətə güzgüdür - 2007-ci ildə Quba şəhərində tikinti məqsədilə aparılan qazıntılar zamanı təsadüfən aşkar edilmiş kütləvi məzarlıq kimi.

Məzarlıq 1918-ci ilin may ayında Qubanın müsəlman əhalisinin quldur erməni dəstələri tərəfindən törədilən soyqırımının əyani sübutudur. Xatırladaq ki, soyqırımı qurbanlarının xatirəsinin əbədiləşdirilməsi məqsədi ilə Prezident İlham Əliyevin 30 dekabr 2009-cu il tarixli sərancamı ilə Quba şəhərində "Soyqırımı Memorial Kompleksi"nin yaradılmasına qərar verilmişdir.

Quba Soyqırım Memorial Kompleksinin direktoru, tarix üzrə fəlsəfə doktoru Rəxşəndə Bayramova bildirir ki, erməni vəhşiliklərini dünya ictimaiyyətinə çatdırmaq, gələcək nəsillərin yaddaşına hopdurmaq missiyası həm də onların üzərinə düşür. O vurğulayır ki, Azərbaycan Milli Elmlər Akademiyası Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları tərəfindən məzarlıqda 2007-ci ilin aprel ayının 8-dən 11-dək ilkin tədqiqat işləri aparılmış, məzarlığın 1918-ci ildə erməni quldur dəstələrinin yerli dinc əhaliyə qarşı törətdiyi soyqırımıyla bağlı olduğu müəyyən edilmişdir. 2007-ci ilin iyul ayından etibarən isə Qəhrəman Ağayevin başçılığı altında adıçəkilən institutun 7 nəfərdən ibarət elmi heyəti tərəfindən kütləvi məzarlıqda tədqiqat işlərinə başlanılmış və 2008-ci ilin sentyabr ayında başa çatdırılmışdır.

- Torpaq heç bir izi itirmir, - deyə Rəxşəndə Bayramova bildirir. - Bəzən onun qoynunda illərlə gizlədilən sirlər təsadüf nəticəsində açılır. Qudyalçayın sağ sahilində üst-üstə qalaqlanan insan sümükləri ilə dolu iki quyunun aşkarlanması da təsadüfən oldu. Böyük quyunun diametri 5, kiçik quyununku 2,5 metr idi. Quyular arasında 2 metr məsafə vardı. Aşkar edilmiş insan cəsədlərinin əksəriyyəti uşaq və qadınlara aid idi. Skeletlərin bütöv halda tapılmaması insanların öldürüldükdən sonra şaqqalanaraq quyulara atıldıqlarını göstərirdi. Odur ki, qurbanların sayı kəllə sümükləri ilə müəyyən olunub. Sümüklərin tədqiqatı zamanı ölüm faktının nə vaxt baş verdiyi dəqiqləşdirməyə imkan verdi. Yəni Qubada tapılan sümüklərin tərkibindəki nəmliyin miqdarı ölüm tarixinin ötən əsrin ikinci onilliyinə aid olduğunu üzə çıxardı. Məzarlıqda azərbaycanlılarla birlikdə ləzgilər, yəhudilər, tatlar və digər millətlərin 400-dən artıq nümayəndəsi qətlə yetirilərək basdırılmışdır. Alimlər belə nəticəyə gəldilər ki, quyu və arxlarda basdırılan insan cəsədləri 1918-ci ildəki Quba qırğınının qurbanlarıdır.

Bu həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün indiyəcən çox işlər görülüb. Öncə onu da qeyd edək ki, 2013-cü il sentyabrın 18-də Heydər Əliyev Fondunun dəstəyi ilə yaradılan Quba Soyqırımı Memorial Kompleksinin açılışı olub. Açılışda Prezident İlham Əliyev iştirak edib. Ötən illər ərzində bu kompleksi on minlərlə insan ziyarət edib. Soyqırımı Memorial Kompleksinin təşkilatçılığı ilə soyqırımı şahidlərinin ifadələrini əks etdirən sənədli film çəkilib, 5 dildə buklet, müxtəlif kitabçalar, flayer və digər çap məhsulları hazırlanıb və onlar gələn ziyarətçilərə təqdim edilib.

Rəxşəndə Bayramova deyir ki, şərəfli tarix yaratmaq hər şəxsə qismət olmur: "İlham Əliyev məhz belə tarix yaradan şəxsiyyətdir. Onu yenidən dövlətimizin sükanı arxasında görmək bizim bugünkü istəyimiz və gələcək üçün seçimimizdir. Bu baxımdan gələn il fevralın 7-də keçiriləcək seçkilərdə seçimimiz yenə İlham Əliyev olacaq".

*Akif ƏLİYEV,*
*"Azərbaycan"*

# Fransanın Cənubi Qafqaza gələn yolları bağlanıb

Azərbaycan-Fransa siyasi münasibətləri gərginləşməkdə davam edir. Fransanın ölkəmizə qarşı hiyləgər siyasətini, qərəzli hücumlarını, nəzakətli, çevik diplomatik manevrlərlə bloklayan rəsmi Bakı bu dəfə fərqli üsuldan istifadə etdi. Parislə onun başa düşəcəyi dil ilə danışdı.

Rəsmi Bakı bu ölkənin Cənubi Qafqazda, eləcə də Azərbaycanda fəaliyyət göstərən kəşfiyyat şəbəkəsini ifşa etməklə rəsmi Parisi seytnota salmış oldu. Bakı bununla dünyanın geopolitik xəritəsində yerini və rolunu dəqiq müəyyənləşdirə bilməyən Makron hökumətinə yerini göstərmiş oldu. Demək olar ki, bununla da Azərbaycan əslində "bir gülləyə iki dovşan" vurmuş oldu. Həm rəsmi Parisə "mənim işimə qarışa biləcək gücdə deyilsən", - dedi, həm də Fransanın vədlərinə aldanan Ermənistana səhv yol ilə getdiyini başa saldı.

2020-ci ilin Vətən müharibəsindən sonra Ermənistanı silahlandırıb yenidən qüvvələr nisbətini dəyişməyə çalışan Parisin əsas hədəfi Ermənistan vasitəsi ilə Cənubi Qafqaz siyasətinə girmək idi. Qərbin maliyyə dəstəyi ilə hakimiyyətə sahiblənən naşı Nikol Paşinyan Fransanın şirnikləşdirici vədlərinə inanaraq Ermənistanı uçurumun kənarına qədər apara bilib. Beynəlxalq aləmə özünü Ermənistanın vəkili kimi təqdim edən Emmanuel Makronun bu ölkəni geopolitik intriqaların qurbanına çevirdiyi göz qabağındadır.

Elə rəsmi Parisin Azərbaycana qarşı qərəzinin əsas səbəbi də ölkəmizi öz maraqları naminə geosiyasi intriqalara cəlb edə bilməməsi olub. Makron hökuməti elə hesab edirdi ki, Rusiya-Ukrayna müharibəsindən istifadə edərək indiki məqamda Ermənistanın vasitəsilə Rusiyanı Cənubi Qafqazdan da sıxışdırıb çıxarmağa nail ola biləcək. Fransanın vədlərinə uyan Ermənistanın artıq belə bir intriqanın qurbanı olduğunu görməmək mümkün deyil.

Dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi: "Azərbaycan müstəqil xarici və daxili siyasətə malik ölkədir və bu siyasəti milli maraqlara əsaslanaraq yürüdür. Əsas amillərdən biri ölkəni qarşıdurma, yaxud rəqabət arenasına çevirməməklə dövləti mənfi xarici təsirdən və daxili işlərə müdaxilədən qorumaqdır. Beləliklə, biz bu riskləri azaltmağı uğurla bacardıq. Bu səbəbdən bu gün Azərbaycan böyük beynəlxalq potensiala, müsbət beynəlxalq reputasiyaya malik ölkədir".

Bu gün regionun geopolitik mənzərəsini belə təsvir etmək olar: Rusiya ilə münasibətləri getdikcə daha da gərginləşən Ermənistan faktiki olaraq olan-qalan müstəqilliyini də tamamilə itirmək üzrədir. Ermənistanın əsas müdafiəçisi olan Fransanın özünün beynəlxalq nüfuzu o dərəcədə zədələnib ki, indiki vəziyyətdə Parisin kimə isə kömək edə biləcəyinə inanmaq siyasi naşılıq olar. Azərbaycanın isə regionun lider dövləti olduğunu bütün dünya dövlətləri təsdiq edir. Hətta bu gün ölkələrimiz arasında olan keçmiş yaxşı tarixi ənənələrin üstündən ciddcəhdlə xətt çəkməyə çalışan, ölkəmizlə münasibətləri gərginləşdirən Fransa da dərk etməkdədir.

Birmənalı olaraq Fransanın Cənubi Qafqaza girmək planının tamamilə uğursuzluqla nəticələndiyini qeyd edə bilərik. 30 illik münaqişə dövründə "vasitəçi"lik missiyası həyata keçirən Parisin son illər açıq surətdə Ermənistanı müdafiə etməsi və ölkəmizə qarşı haqsız, qərəzli mövqe tutması bu ölkənin Cənubi Qafqaz siyasətinə qoşulmaq arzusunu minimuma endirib.

Azərbaycan Prezidenti İlham Əliyevin apardığı müstəqil siyasət nəticəsində Azərbaycanın beynəlxalq nüfuzu güclənməkdə, ölkəmizlə əməkdaşlıq etmək istəyən və buna can atan dövlətlərin sayı gündən-günə artmaqdadır. Azərbaycanda enerji sahəsinin inkişafına nəzər salsaq görərik ki, burada geniş beynəlxalq təmsilçilik var. Avropanın əksər dövlətləri ölkəmizlə ciddi iqtisadi əməkdaşlıq edir. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizləri Azərbaycandan keçir.

Azərbaycanın artan nüfuzu, çevik diplomatik manevrləri, Fransanın müstəmləkəçilik siyasətini ifşa etməyi bacarması, Afrika ölkələrində törətdiyi soyqırımları ciddi müzakirə mövzusuna çevirə bilməsi rəsmi Parisi daha da aqressivləşdirib.

Paris səhvini anlayıb düzəltmək əvəzinə münasibətləri daha da gərginləşdirmək mövqeyini seçib. Azərbaycanın inkarolunmaz faktlarla, dəlillərlə bu ölkənin agentura şəbəkəsini ifşa etməsinə cavab olaraq Azərbaycan səfirliyinin iki əməkdaşının heç bir dəlil-sübut olmadan "arzuolunmaz şəxs" elan etməsi bu ölkənin acizliyini sübut edir. Fransanın "özünümüdafə" məqsədi ilə ölkəmizə qarşı etdiyi hücumu, qapının arxasından vurulan "qola" bənzətmək olar.

Emmanuel Makronun səhv siyasəti Fransanın əsas xammal mənbəyi olan Afrika ölkələrinə nəzarəti itirməsini intensivləşdirib. Afrikada itirdiklərini Cənubi Qafqaz və Orta Asiya regionlarında kompensasiya etmək arzusu isə heç də real görünmür. Fransa Prezidenti anlamalı idi ki, sözün bütün mənalarında Cənubi Qafqaza gələn yollar Azərbaycandan keçir. Azərbaycanın yolu isə haqq yoludur. Haqsızlara bu yolda yer yoxdur.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

Coca-Cola

şirkəti
Azərbaycan xalqını

31 Dekabr -
Dünya Azərbaycanlılarının
Həmrəyliyi Günü
münasibətilə təbrik edir,
hər bir ailəyə səadət,
sevinc dolu günlər arzulayır.




# Prezident İlham Əliyevin üstünlüyü ondadır ki...

## Bu gün Azərbaycanın "Şərq-Qərb", "Şimal-Cənub" nəqliyyat marşrutlarında açar ölkə sayılması dövlətimizin başçısının vaxtında reallaşdırdığı qlobal layihələr hesabına mümkün olmuşdur

**Prezident İlham Əliyevin apardığı uğurlu siyasət sayəsində ölkəmiz dünyanın ən önəmli nəqliyyat qovşağına çevrilib. İndi Azərbaycan Çindən Avropaya, şimaldan İran körfəzinə gedən beynəlxalq nəqliyyat marşrutlarının açar ölkəsidir. Azərbaycan bu imkandan siyasi dividendlə yanaşı, həm də külli miqdarda gəlir əldə etmək imkanı qazanır.**



Məlum olduğu kimi, hazırda qlobal ticarətin 80 faizi okean və dənizlər üzərindən həyata keçirilir. Ancaq son illər ticarətin quru yollar üzərindən aparılmasına üstünlük verilir. Bunun iki başlıca səbəbi var. Birincisi, okean və dənizlər vasitəsilə ticarətin aparılması çox vaxt tələb edir. İkincisi, XXI əsr olmasına baxmayaraq, dəniz quldurluğunun yenidən peyda olmasını görürük. Təəssüflər olsun ki, bunun arxasında müxtəlif dövlətlərin olması barədə xəbərlər də yayılır.

Ədən körfəzində baş verən hadisələr dünyanı təlatümə gətirib. Çünki qlobal ticarətin önəmli bir hissəsi bu körfəzdən keçir. Həmin marşrut üzrə mülki gəmilərlə yük daşınmasının sığortası kəskin şəkildə artıb. Bu da dünya ticarətində qiymət artımına səbəb olur. Bir sözlə, ticarətin su yolu ilə aparılmasında problemlər yaşanır.

Quru yolla ticarətin aparılmasının da öz çətinlikləri var. Burada iki mühüm faktoru qeyd etmək lazım gəlir. Əvvəla, bürokratik əngəllər, yəni lüzumsuz gömrük yoxlamalarının çox olması quru yollarının səmərəsini azaldır. İkincisi isə tarif məsələsidir. Yəni hər ölkə ərazisindən keçən yüklərə görə öz qiymətini müəyyənləşdirmək istəyir. Hazırda Orta dəhlizdə vahid tarifin tətbiqi üçün Qazaxıstan, Azərbaycan və Gürcüstan fəal danışıqlar aparır. Müəyyən razılıqlar da var. Artıq bu prosesə Türkiyə də qoşulub. Gözlənilir ki, bu ölkələr arasında olan anlaşma Orta dəhlizin fəallığını təmin edəcək.

Prezident İlham Əliyevin uzaqgörənliyi odur ki, illər öncə bu istiqamətdə lazım olan bütün infrastrukturun yaradılmasına nail olub. Dövlət başçısının təşəbbüsü ilə icra olunan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolu uzunluğuna və ərazisindən keçdiyi ölkələrin sayına görə seçilir. Belə ki, BTQ ilə davam edən dəhliz Çindən, Qazaxıstandan, Azərbaycandan, Gürcüstandan, Türkiyədən keçərək bütün Avropanı, o cümlədən Yaxın Şərq və Şimali Afrikanın bir çox ölkəsini birləşdirir.

Marşrutun bir özəlliyi də ondan ibarətdir ki, yol dənizaşırıdır. Yəni Çindən və Qazaxıstandan dəmir yolu ilə gələn yüklər Xəzər dənizinin üzərindən keçməli olur. Burada da Prezident İlham Əliyevin uzaqgörən siyasətinin şahidi oluruq. Yəni həmin problem Azərbaycanın dövlət başçısının təşəbbüsü ilə ərsəyə gələn Ələt Beynəlxalq Ticarət Limanı hesabına həll edilib. Gələcəkdə bu limanın 30 milyon ton yükaşırma qabiliyyəti olacaq. Hazırda bu istiqamətdə işlər gedir.

Bakı-Tbilisi-Qars dəmir yolunun ən böyük önəmi yüklərin Asiyadan Avropaya çatdırılması vaxtının 15 günə qədər qısalmasıdır. Bu isə indiki qlobal ticarətdə ən önəmli faktor sayılır. Yəni malgöndərənlə malalan ticarət əlaqələrini sürətləndirmək imkanı qazanırlar.

Bu marşrut hələ özünün pik həddinə çatmayıb. Bununla belə qlobal ticarətə öz müsbət töhfələrini verir. Hazırda əldə olunan nəticələrə görə, BTQ dəmir yolu ilə üçüncü istismar ilində 3-5 milyon ton, beşinci istismar ilində 6-8 milyon ton yük, bundan sonra isə ildə 3 milyon sərnişin və 17 milyon ton yük daşınması nəzərdə tutulub.

Dəmir yolunun sabit işləməsi üçün onun maddi-texniki bazasının yüksək olması önəmlidir. Dövlət başçısının müvafiq sərəncamları ilə işğaldan azad olunmuş ərazilərdə dəmir yolunun çəkilməsi və infrastrukturun yaradılması istiqamətində işlər uğurla icra edilir. Eyni zamanda tranzit yükdaşımaları sahəsində artan tələbatı aradan qaldırmaq məqsədilə 605 konteynerin alınması prosesinə start verilib. Bununla bərabər, tranzit yük daşımalarını operativ təmin etmək məqsədilə yetərli sayda magistral və manevr lokomotivlərinin alınması və əsaslı təmiri istiqamətində bir sıra vacib qərarlar qəbul olunub.

44 günlük Vətən müharibəsindəki tarixi qələbəmizdən sonra isə yeni bir vəziyyət yaranıb. Belə ki, Rusiya, Azərbaycan və Ermənistan arasındakı üçtərəfli Bəyanata görə Zəngəzur dəhlizi açılmalı idi. Bu da Azərbaycana yük və sərnişinlərin Naxçıvana tez çatdırılmasına imkan verəcəkdi. Əlavə olaraq, Orta dəhliz əlavə bir keçid imkanı əldə edəcəkdi. Lakin Ermənistan 3 ildir ki, bu yolun açılması üçün üzərinə götürdüyü öhdəliyi yerinə yetirmir. Əksinə, bu 42 kilometrlik qısa yolu dünya gücləri üçün çəkişmə nöqtəsinə çevirmək istəyir. Qərb, Rusiya və Çin müstəvisində gedən bu qarşıdurmadan uzaq durmaq isə ən düzgün siyasət idi.

Bu arada Prezident İlham Əliyev heç kəsin gözləmədiyi halda İranla Araz keçidi barədə razılaşma əldə etdi. Dövlət başçısının bu çevik və vaxtında qəbul etdiyi qərar Qərb üçün gözlənilməz idi və o üzdən reaksiyası sərt oldu. Elə cavab da gecikmədi. Prezident İlham Əliyev dekabrın 6-da ADA Universitetində keçirilən "Qarabağ: 30 ildən sonra evə dönüş. Nailiyyətlər və çətinliklər" forumunda İran üzərindən Naxçıvana yol açılması barəsindəki razılaşmaya ABŞ Dövlət Departamentinin bəyanatına münasibətini belə bildirdi: "Bir sözlə, hər şey mümkündür, sadəcə, Ermənistan istəmir. Onlar bizi bu qütbdən məhrum etmək istədilər və indi isə başa düşdülər ki, bu, bizə heç lazım deyil! Onda onlar şikayətlənməyə başladılar və hətta biz ABŞ Dövlət Departamentinin rəsmilərindən çox müəmmalı məlum bəyanatı eşitdik ki, Birləşmiş Ştatlar əgər yol Ermənistandan keçməsə, buna imkan verməyəcəklər?! Onda mən nə deyə bilərəm? Sadəcə deyə bilərəm ki, bu nədir? Biz bunu üç ildir ki, Ermənistan vasitəsilə etmək istəyirdik. Əgər siz istəyirsiniz ki, yol Ermənistandan keçsin və onda öz yeni erməni dostlarınıza bunu söyləyin! Axı siz bizim İranla münasibətlərimizə necə müdaxilə edə bilərsiniz? Deyirsiniz ki, siz yolun çəkilməsinə imkan verməyəcəksiniz. Nə edəcəksiniz? Bombardman edəcəksiniz, nə edəcəksiniz?! Əslində, bu cür məsuliyyətsiz bəyanatlar onları söyləyənlərə heç bir yaxşı fayda gətirmir və əlbəttə ki, regionda sabitliyi və proqnozlaşdırmanı, o cümlədən bağlantı layihələrini ciddi şəkildə sual altına qoyur".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Astara hesabat verir

## Bu il sitrus bağlarından 62 min, çay plantasiyalarından 710 ton məhsul toplanmışdır

İl sona çatır. Bütün kənd rayonları kimi, Astarada da il ərzində görülən işlərə yekun vurulur, xərclər və qazanclar hesablanır, buraxılmış nöqsanların səbəbləri araşdırılır, görüləcək işlər müəyyənləşdirilir.

Hər il olduğu kimi, yola saldığımız 2023-cü ildə də rayonda müxtəlif sahələr üzrə çoxsaylı yeniliklər olmuşdur. Öncə yollar barədə. Prezident İlham Əliyevin sərəncamları ilə ayrılan vəsait hesabına illərdir rayon əhalisini rahatsız edən 26 kilometrlik Çayoba-Astara magistral avtomobil yolunun asfaltlaşdırılmasına və yolu olmayan Dürriyə və Şümrüd kəndlərinə yeni avtomobil yolunun çəkilməsinə başlanılmışdır. İl ərzində rayonun şəhər, qəsəbə və kəndlərində ümumilikdə 29500 kvadratmetr yol asfaltlaşdırılmışdır. Uzun müddətdir ki, qəzalı vəziyyətdə olan Şiyəkəran körpüsünün və sel suları nəticəsində dağılmış Vaqo körpüsünün yenidən tikintisi isə başa çatmaq üzrədir.

Abadlıq işlərinə gəlincə, Astara şəhərində bir neçə çoxmənzilli yaşayış binasının dam örtükləri dəyişdirilmiş, fasad və blokları təmir edilmişdir. Şəhər küçələrinin işıqlandırılması və səkilərə tamet düzülməsi işləri də davam etmişdir. Paralel olaraq əhalinin fasiləsiz və dayanıqlı elektrik enerjisi ilə təmin olunması üçün müvafiq tədbirlər həyata keçirilmişdir. O cümlədən bir neçə ərazidə istismar müddəti başa çatmış transformatorlar, köhnəlmiş dayaqlar və naqillər yeniləri ilə əvəzlənmişdir. Hazırda Şiyəkəran və Çayoba kəndlərində SİP kabelləşmə işləri aparılır.

2023-cü ildə yaşayış məntəqələrində rabitə xidmətinin keyfiyyəti də yaxşılaşdırılmışdır. O sıradan Ərçivan qəsəbəsi, Təngərüd və Maşxan kəndlərində rabitə xətlərinin yenilənməsi işlərinə başlanılmış, özəl provayderlər tərəfindən Astara şəhəri, Suparibağ, Rudəkənar, Seləkəran, Məsçitməhəllə, Qapıçıməhəllə, Səncərədi, Artupa kəndlərində yüksəksürətli internet şəbəkəsi qurulmuşdur. Şuvi, Siyətük, Vəznəş kəndlərində isə bu istiqamətdə işlər davam edir.

Rayonun kənd təsərrüfatı sahəsində də nailiyyətlər olmuşdur. Prezidentin çayçılığın, çəltikçiliyin, sitrusçuluğun inkişafına dair imzaladığı sərəncamlardan sonra Astarada yeni innovativ üsullarla sitrus və subtropik meyvə bağlarının salınmasına maraq artmışdır. Sitrus meyvə bağlarının sahəsi genişləndirilərək 4508 hektara çatdırılmışdır. Bu il sitrus bağlarından ümumilikdə 62 min ton məhsul yığılmışdır. Bağ sahiblərinin bu məhsulların satışından təqribən 60 milyon manatdan çox qazanc əldə edəcəkləri gözlənilir. Çayçılıqda da vəziyyət yaxşıdır. Bu mövsüm mövcud 231 hektardan 710 ton yaşıl çay yarpağı yığılmışdır. 235 hektar çəltik sahəsindən isə 968 ton məhsul əldə olunmuşdur.

İl ərzində Astaraçay, Pensərçay, Lovayın və Xanbulan su anbarlarından istifadə edilməklə əkin sahələrinin suvarılması təmin edilmişdir. 13 min metr uzunluğunda kanal lil və palçıqdan təmizlənmiş, Pensərçayda 5200 metr məcratəmizləmə işləri aparılmış, sel suları nəticəsində Şiyəkəran və Vaqo kəndləri ərazisində uçulmuş yollar bərpa edilmişdir.

Amma bunlar da hələ hamısı deyil. Astarada son illər 40-dan çox ümumtəhsil məktəb binası tikilmiş və əsaslı təmir olunmuşdur. 2023-cü ildə Diqo kəndində modul tipli ibtidai məktəb binasının tikintisi başa çatdırılmış, Sərək kənd tam orta məktəbi üçün yeni binanın tikintisinə başlanılmışdır.

Səfalı təbiətə malik olan və gündən-günə abadlaşan Astara böyük turizm potensialına malikdir. Yol infrastrukturunun yaxşılaşdırılması, yeni müasir turizm obyektlərinin inşa edilməsinin nəticəsidir ki, hər il minlərlə turist rayona səfər edir. Prezident İlham Əliyevin sərəncamına əsasən, Ələt-Astara dəmir yolu xəttinin magistral avtomobil yoluna paralel köçürülməsi ilə Xəzər dənizinin qarşısı açılacaqdır ki, bu da sahilboyu ərazidə yeni turizm obyektlərinin tikintisi üçün böyük imkanlar yaradacaq.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*




# Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tender elan edir

Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərə və şəhid ailələrinə Oğuz, Balakən, Neftçala, Beyləqan, Şirvan, Ağsu və Salyan rayonlarında 2 və 3 otaqlı mənzillərin satın alınması ilə əlaqədar Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Bakı şəhəri, Yasamal rayonu, Salatın Əsgərova küçəsi, 85 (Əlaqə nömrəsi: (012) 526-01-01(2637)) ünvanından ala bilərlər.

**İştirak haqqı: 400 AZN**

**Satınalan təşkilat: Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi**

**VÖEN: 1700093011**

**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**

**Kod: 210005**

**M/h: AZ41NABZ01360100000000003944**

**VÖEN: 1401555071**

**SWIFT CTREAZ22**

**H/h: AZ80CTRE00000000000002138501**

**Büdcə səviyyəsinin kodu - 7**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. *Tenderdə iştirak etmək üçün yazılı müraciət.*
2. *İştirak haqqının ödənilməsi ilə bağlı bank sənədi.*
3. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Sənədin əsli təqdim edilməlidir və ya surəti olduğu təqdirdə notarial qaydada təsdiq edilməlidir).***
4. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).*
5. *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*
6. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən ayı və sonrakı dövrü əhatə etməlidir).***
7. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir, 2022 və ya 2023-cü il üzrə).***
8. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(Sənədin əsli təqdim edilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial qaydada təsdiq edilməsi mütləqdir. Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
9. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması.*
10. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması.*
11. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
12. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
13. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi* ***(Arayışın tarixi elan verilən dövrü əhatə etməlidir).***
14. *'Tender iştirakçısının müəyyən etdiyi digər sənədlər.*

*Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları rəsmi sorğu vasitəsilə Tender komissiyasına ünvanlaya bilərlər.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və tender təklifinin təminatı istisna olmaqla) **09 fevral 2024-cü il saat 15:00-dək,** tender təklifi və tender təklifinin təminatını isə möhürlənmiş ikiqat zərfdə **19 fevral 2024-cü il saat 18:00-dək** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **20 fevral 2024-cü il saat 15:00-da** Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

***Tender komissiyası***




# Aqrar sektor: istehsal artır, idxal azalır

Hazırda dünyada ərzaq təhlükəsizliyi həlli vacib məsələyə çevrilib. Bu üzdən bütün ölkələr ərzaq sarıdan imkan daxilində xarici faktorlardan asılılığı azaltmağa çalışırlar. Çıxış yolu isə təbii ki, aqrar sektorun inkişafı və məhsul istehsalının artırılmasıdır.

Prezident İlham Əliyev iqtidara gəldiyi dövrdən kənd təsərrüfatını inkişaf etdirmək, idxaldan asılılığı maksimum səviyyədə aradan qaldırmaq üçün ardıcıl tədbirlər həyata keçirir. Bu strategiyanın başlıca xətti kəndliyə daha çox dövlət dəstəyinin verilməsidir. Dövlət başçısının təşəbbüsü ilə bu gün kənd təsərrüfatında çalışanlar üçün çoxsaylı güzəştlər tətbiq olunur. Onların sırasında istehsalçılara güzəştli kreditlərin verilməsini, aqrar sektorda çalışanların vergilərdən azad olunmasını, istifadə etdikləri yanacağa, sürtkü yağlarına, gübrəyə görə güzəştlərin tətbiq edilməsini, kəndliyə damazlıq heyvan və bitki tinglərinin dəyərindən aşağı qiymətə satılmasını və s.-ni göstərmək olar.

Məlumdur ki, ölkəmizin idxaldan ən çox asılı olduğu sahə taxılçılıqdır. O səbəbdən dövlət taxılçılığın inkişafı üçün bu sahəyə daha çox güzəştlər tətbiq edir. Təsadüfi deyil ki, işğaldan azad edilən ərazilərdə də ilk növbədə buğda əkilməyə başlanıb. Düzdür, hələlik məqsədə nail ola bilməmişik. Amma görülən tədbirlər bu sahədə də nikbinliyə əsas verir. Yəqin ki, ölkəmizin taxıla olan tələbatının yerli istehsal hesabına ödənilməsinə çox qalmayıb.

Azərbaycanda aqrar islahatların necə nəticə verməsini bilmək üçün iki mühüm faktora diqqət yetirmək kifayətdir. Birincisi, indi satışda olan kənd təsərrüfatı məhsullarının mütləq əksəriyyəti yerli istehsaldır. İkincisi, ixracda aqrar məhsulların çəkisi ildən-ilə artır. Halbuki vaxt var idi bazarlarda və marketlərdə satılan kənd təsərrüfatı məhsullarının mütləq əksəriyyəti xarici ölkələrdən idxal olunurdu. Hazırda isə ət, toyuq əti, yumurta, meyvə və tərəvəzlər üzrə təminatın 80 faizə qədəri yerli istehsal hesabına ödənilir. Bu o deməkdir ki, ölkəmizdə ərzaq təhlükəsizliyinin təmin olunmasında atılan mühüm addımlar nəticəsiz qalmır.

İl başa çatır. Dövlət Statistika Komitəsinin açıqladığı rəqəmlərdən aydın olur ki, 11 ay ərzində ölkə üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarınn faktiki qiymətlərlə dəyəri 11 milyard 571,3 milyon manatdır. Onların 5 milyard 728,8 milyon manatlığı heyvandarlıq, 5 milyard 842,5 milyon manatlığı bitkiçilik məhsullarının payına düşür. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatı məhsularının istehsalı 3,1, o cümlədən heyvandarlıq məhsulları üzrə 3,3, bitkiçilik məhsulları üzrə 2,8 faiz artmışdır.

Azərbaycanın kənd təsərrüfatı mütəxəssisləri inkişaf etmiş ölkələrdəki həmkarları ilə sıx əməkdaşlıq edirlər. Kənd Təsərrüfatı Nazirliyinin nümayəndə heyətinin bu çərçivədə son səfəri Türkiyəyə olub. Nazirlikdən verilən məlumatda bildirilir ki, səfər çərçivəsində Azərbaycan nümayəndə heyəti qardaş ölkədə keçirdiyi görüşlərdə fermerlərin müraciətlərinə baxılması mexanizmi, elektron sənəd dövriyyəsinin tətbiqi qaydaları və digər məsələlər müzakirə olunub. Görüşlər zamanı ölkəmizdə kənd təsərrüfatı sahəsində aparılan islahatlar, tətbiq olunan rəqəmsal texnologiyalar, aqrar təhsil və tədqiqat, beynəlxalq layihələr, fermerlərə göstərilən dəstək və onların icra mexanizmləri, eləcə də Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında yenidən qurulması, orada ekologiyanın mühafizəsi və biomüxtəlifliyin qorunmasına yönəlmiş ən son texnologiyaların tətbiqi barədə ətraflı məlumat verilib. Eyni zamanda aqrar sahədə mövcud əməkdaşlığın cari vəziyyəti və gələcək inkişaf perspektivləri, ölkələrimiz arasında aqrar sahədə sazişlərin və yol xəritələrinin səmərəli icrası, beynəlxalq təşkilatlarla birgə əməkdaşlığın genişləndirilməsi, eləcə də Türkdilli Dövlətlər Təşkilatı çərçivəsində əməkdaşlığın daha da gücləndirilməsi və bu istiqamətdə konkret addımların atılması barədə müzakirələr aparılıb.

Türkiyənin Kənd Təsərrüfatı və Meşə Nazirliyinin aidiyyəti qurumlarının rəhbər şəxslərinin və mütəxəssislərinin iştirakı ilə təşkil olunmuş "dəyirmi masa"larda kadr məsələləri, elektron sənəd dövriyyəsi, kənd təsərrüfatı təyinatlı torpaqların konsolidasiyası, torpaq və sudan səmərəli istifadə, kooperativlərin fəaliyyəti, həmçinin təhsil və elmi-tədqiqat, kənd yerlərinin inkişafı sahəsində həyata keçirilən layihələr, dövlət dəstəyi və onların icra mexanizmi və çağrı mərkəzlərinin fəaliyyəti ilə bağlı hər iki tərəfin təcrübəsinə əsaslanan təqdimatlar edilib.

Nümayəndə heyətləri kənd təsərrüfatı sahəsində ikitərəfli əməkdaşlığın həyata keçirilməsinin və müvafiq icra proseslərinin uğurla davam etdirilməsinin, bu kimi mübadilə və görüşlərin mütəmadi qaydada təşkil olunmasının vacibliyini vurğulayıblar.

***R.KAMAL, "Azərbaycan"***

# TAP axtardığını tapdı

## 3 il əvvəl fəaliyyətə başlayan bu qaz kəməri qarşılıqlı maraqların təminatçısıdır

2020-ci ilin sonunda, Vətən müharibəsindəki böyük Zəfərin sonsuz sevinci ilə yaşadığımız günlərdə ölkəmiz iqtisadi sahədə də mühüm bir qələbə qazandı. İlin son günündə TAP (Trans-Adriatik Qaz Boru Kəməri) istifadəyə verildi, Azərbaycan qazı Avropaya çatdırıldı. Bu, qoca qitənin yeni mənbədən və yeni marşrutla mavi yanacaq alması demək idi.




TAP-ın fəaliyyətə başlaması ilə təşəbbüskarı və aparıcı qüvvəsi Azərbaycan olan "Cənub qaz dəhlizi" layihəsi qələbə çaldı. Sonuncu seqment olduğundan bu kəmər 3500 kilometrlik möhtəşəm layihəni tamamladı. Belə ki, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində çıxarılan qazı Gürcüstandan keçməklə Türkiyəyə və oradan da Avropaya daşıyan "Cənub qaz dəhlizi" üç kəmərdən - genişləndirilmiş CQBK (Cənubi Qafqaz Boru Kəməri), TANAP (Trans-Anadolu Qaz Boru Kəməri) və TAP-dan ibarətdir.

Xatırladaq ki, TAP-ın təməli 2016-cı il mayın 17-də Yunanıstanın Saloniki şəhərində qoyulub. Xəttin çəkilişi bir neçə il davam edib və onun istifadəyə verilməsi ilə "Cənub qaz dəhlizi" tam sistem kimi işə düşüb. TAP-ın səhmdarları bp (20 faiz), SOCAR (20 faiz), "Snam S.p.A." (20 faiz), "Fluxys" (19 faiz), "Enagas" (16 faiz) və "Axpo" (5 faiz) şirkətləridir.

Kəmər uzun məsafə qət edərək Azərbaycan qazını İtaliyanın cənubuna, bu ölkədən də Qərbi Avropaya çatdırır. Bu, uzunluğu təxminən 878 kilometr olan boru xəttidir. Onun 550 kilometri Yunanıstanın, 210 kilometri Albaniyanın ərazisindən, 105 kilometri Adriatik dənizinin altından keçir. Xəttin bir neçə kilometrlik hissəsi İtaliyada quru sahəyə çıxır. Burada kəmər "Snam Rete Gas" şirkətinin istismar etdiyi qaz nəqliyyatı şəbəkəsi ilə birləşir. Boru xətti üç ildir fasiləsiz və təhlükəsiz fəaliyyət göstərir.

Yeni çağırışlar qarşısında Avropanın qaza tələbatı getdikcə artır. Odur ki, Azərbaycandan mavi yanacaq idxal etmək istəyən ölkələrin də sayı çoxalır. Yeri gəlmişkən: bu gün Azərbaycan 7 ölkəyə - Gürcüstana, Türkiyəyə, Yunanıstana, Bolqarıstana, İtaliyaya, Rumıniyaya və Serbiyaya qaz ixrac edir. Bu sıraya Macarıstanın, Albaniyanın və digər ölkələrin də qoşulacağı gözlənilir.

İxrac coğrafiyasının genişləndirilməsi üçün isə ən vacib şərtlərdən biri müvafiq infrastrukturun olmasıdır. Başqa sözlə, indi TAP-ın genişləndirilməsi məsələsi gündəmə gəlib. TANAP genişləndirilmədən isə bu, mümkün deyil. Eləcə də Avropanın ərazisində əsas kəmərə birləşən yeni interkonnektorlar çəkilməlidir.

Keçən il oktyabrın 1-də Sofiya şəhərində Azərbaycan təbii qazını Bolqarıstana nəql edən Yunanıstan-Bolqarıstan İnterkonnektorunun (IGB) açılışı bu istiqamətdə atılan mühüm addım oldu. Belə ki, IGB-nin reallaşması TAP-ın inkişafında mühüm bir mərhələnin başlanğıcı, "Cənub qaz dəhlizi"nin yeni qollarla şaxələnməsinin göstəricisi kimi dəyərləndirilir. "Bulgargaz EAD" "Şahdəniz-2" çərçivəsində ildə 1 milyard kubmetr qazın alınması ilə bağlı hələ 2013-cü ilin sentyabrında 25 illik saziş imzalayıb. 2019-cu ilin mayında isə Bolqarıstanın Kirkovo bölgəsində interkonnektorun təməlqoyma mərasimi keçirilib.

IGB-nin açılışı Bolqarıstanın, ümumən Cənub-Şərqi Avropanın şaxələndirilmiş enerji təchizatında, istehlakçıların sərfəli və təmiz enerjiyə çıxışında strateji əhəmiyyətli hadisədir. Başqa söslə, IGB qarşıdakı illərdə "Cənub qaz dəhlizi"nin genişləndirilməsi istiqamətində gerçəkləşən yeni layihələrin müjdəçisidir.

Cari il dekabrın 10-da Serbiyanın Niş şəhərində Serbiya-Bolqarıstan Qaz İnterkonnektorunun fəaliyyətə başlaması da göstərdi ki, nəzərdə tutulan işlər uğurla reallaşır. İki ölkə arasında bu yeni xəttin tikintisinə cari il fevralın 1-də başlanmışdı və tamamlanması da məhz planlaşdırıldığı vaxt - ilin sonunda baş verdi. Bu kəmər Serbiyanın Niş, Dimitrovqrad, Bela Palanka və Pirot kimi mühüm şəhərlərinin enerji təhlükəsizliyini möhkəmləndirəcək. Serbiyanın gələcəkdə 6 və ya 7 LNG terminalından qaz almaq imkanı da olacaq ki, bu da ölkənin ümumi enerji təhlükəsizliyində mühüm rol oynayacaq.

İnterkonnektoru Azərbaycan Prezidenti İlham Əliyev, Serbiya Prezidenti Aleksandar Vuçiç, Bolqarıstan Prezidenti Rumen Radev və Avropa İttifaqının daimi nümayəndəliyinin rəhbəri Emmanuel Jofrenin işə salması ölkəmizin Avropanın enerji təchizatındakı rolunu, etibarlı tərəfdaş kimi qazandığı hörməti və ümumən Prezidentimizin və dövlətimizin nüfuzunu aydın göstərən daha bir önəmli faktdır.

Azərbaycan qazının Balkan ölkələrinə nəql olunması üçün İon-Adriatik qaz kəmərinin də tikintisi nəzərdə tutulub. Bu, TAP-ın davamı olacaq, Albaniyadan keçərək Azərbaycan qazını Xorvatiya, Monteneqro, Bosniya və Herseqovinaya çatdıracaq. Kəmərin tikintisinin 2025-ci ildə başa çatacağı gözlənilir.

Bu il aprelin 25-də Sofiyada "Bulgartransgaz" (Bolqarıstan), "Transgaz" (Rumıniya), FGSZ (Macarıstan) və "Eustream" (Slovakiya) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) arasında əməkdaşlığın təşviqi ilə bağlı Anlaşma Memorandumu"nun imzalanması mərasimi keçirilib. Anlaşma memorandumu Azərbaycandan Avropaya əlavə qazın tədarükü üçün bu 4 ötürücü sistem operatoru ilə SOCAR arasında əməkdaşlığın istiqamətlərini müəyyən edir. Əlavə qaz tədarükü "Həmrəylik halqası" adlandırılan Bolqarıstan, Rumıniya, Macarıstan və Slovakiyanın təkmilləşdirilmiş ötürücü şəbəkə sistemləri vasitəsilə həyata keçiriləcək.

Bir sözlə, 2027-ci ilə qədər Avropa bazarına qaz təchizatımızı iki dəfə artırmaq nəzərdə tutulur. Bu məsələ keçən il iyulun 18-də imzalanmış Azərbaycanla Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumunda da öz əksini tapıb. İndi həmin hədəfə doğru uğurlu addımlar atılır. Qaz ixracının dinamikasına nəzər salsaq görərik ki, ötən il Avropaya 8 milyard kubmetr mavi yanacaq göndərilmişdirsə, 2023-cü ildə 12 milyard kubmetr nəql edilib. Bu, ümumi ixracımızın yarısıdır və 2027-ci il üçün bu rəqəmi 20 milyarda çatdıracağıq.

***Flora SADIQLI, "Azərbaycan"***






# Gənclik






**● Gənc alimlərimiz**

# "İmzalar içində imzamızın olmasına çalışıram"

"Uşaq vaxtı anam əlimdən tutub məni tez-tez dəniz kənarına aparardı. Xəzərin gah susub, gah da danışan ləpələrinə saatlarla tamaşa edərdik. Mənə elə gəlirdi ki, anam dəniz kənarına Xəzərlə söhbətləşmək üçün gəlir. Hərdən dəli dalğalar kükrəyib şahə qalxanda anama sığınıb deyərdim ki, gedək buradan, deyəsən, burada olmamız dənizi əsəbiləşdirir".



Günel onu da deyir ki, xalqımızın ruhunu, milli-mənəvi dəyərlərini anamın mənə danışdığı nağıllardan öyrənmişəm. "Anam da, bacım da filoloqdur. Hər gün anam mənə nağıl danışmasaydı, yata bilməzdim. Xalqımızın mənəvi xəzinəsinə bələd olduqca qəlbimdə ədəbiyyatçı olmaq arzusu pərvazlanırdı. Anamın "Koroğlu" dastanındakı qəhrəmanlıq nəğmələrini həzin laylaya çevirib oxumasını çox sevərdim. "Gizir oğlu Mustafa bəy" nəğməsi ruhuma hakim kəsilmişdi.

Uşaqlığımın necə keçdiyini heç özüm də bilmədim. Bir də gördüm ki, filoloq olmuşam".

Günel sanki danışmırdı. Xəzərin saf suları kimi pıçıltılı bir nəğmə oxuyurdu. Keçmişini bu gününə calayırdı...

Günel Əhmədova 1997-ci ildə Bakıda anadan olub. Səbail rayonundakı 162 nömrəli tam orta məktəbi bitirdikdən sonra Bakı Slavyan Universitetinin Azərbaycan filologiyası və jurnalistika fakültəsində filologiya (Azərbaycan dili və ədəbiyyatı) ixtisası üzrə təhsil alıb. 2018-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirdikdən sonra 2018-2020-ci illərdə Bakı Slavyan Universitetində Azərbaycan ədəbiyyatı ixtisası üzrə magistratura təhsili alıb. 2021-ci ildə AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda "Ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid" ixtisası üzrə doktoranturaya qəbul olunan gənc filoloq həmin il AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Ədəbiyyat nəzəriyyəsi şöbəsində əmək fəaliyyətinə başlayıb. Respublikamızda və xaricdə bir çox elmi konfransda iştirak edən gənc ədəbiyyatçının nüfuzlu elmi jurnallarda 30-dan çox məqaləsi çap olunub. Bir kitabın müəllifidir.

Günelin həyat hekayəsinin geridə qalan səhifələrini birlikdə vərəqləyirik. Deyir ki, ədəbiyyatşünaslıq, xüsusilə ədəbiyyat nəzəriyyəsinə olan rəğbətinin artmasında Bakı Slavyan Universitetinin və oradakı müəllimlərinin rolunu danmaq mümkün deyil. Xüsusilə adını qürurla çəkdiyi filologiya elmləri doktoru, professor Tahirə Məmmədin zəhmətini dönə-dönə minnətdarlıqla qeyd edir.

"2016-cı ildə həyatımın böyük dönüş nöqtəsi oldu. Tahirə Məmmədin irəli sürdüyü nəzəri müddəalar məni heyran etmişdi. Qəti qərar verdim ki, Azərbaycan ədəbiyyatı və ədəbiyyat nəzəriyyəsi sahəsində elmi tədqiqata başlayım. 2018-ci ildə "Elm və təhsil" nəşriyyatında çap olunan "Yusif Səmədoğlunun "Qətl günü" romanında tarixi, mədəni yaddaş qatları" adlı kitabımın elmi redaktoru da Tahirə Məmməd oldu. Bu tədqiqat işində tarixi və mədəni yaddaş qatlarının "Qətl günü" əsərində rolu araşdırılmış, Yusif Səmədoğlunun Vətən sevgisini romanın dərin qatlarında ifadə edilən mənaları tədqiq olunmuşdur", - deyə Günel xanım bildirdi. O həmçinin dedi ki, hazırda "Azərbaycan ədəbiyyatında felyeton janrının təşəkkülü və tipologiyası" adlı dissertasiya işi üzərində elmi araşdırmalarını davam etdirir. Qeyd edək ki, ədəbiyyatşünaslıqda felyeton janrında yazılmış nümunələr tədqiqata az cəlb olunub. Bu janrın daha dərindən araşdırılıb nəzəri prinsiplər əsasında sistemləşdirilməsinə ciddi ehtiyac var. Günel Əhmədova məhz belə bir mövzu üzərində işləyir. O, felyeton janrının özünəməxsusluğu, bir mətbuat janrı kimi əhəmiyyəti, Azərbaycan ədəbiyyatında felyeton janrının tipologiyası kimi məsələləri tədqiq edərək bir sıra elmi yeniliklərə imza atır.

Günel Əhmədova elmi fəaliyyətindən əlavə, bədii yaradıcılıqla da məşğul olur, esse janrında əsərlər qələmə alaraq uğurlu nəticələr əldə edir. Qəlbinin, ruhunun dərinliklərindəki düşüncələrini bədii sözün köməyilə ifadə edən gənc yazar bir çox esse müsabiqəsində iştirak edərək diplom və mükafatlara layiq görülüb.

Günel deyir ki, ilk dəfə 11 yaşında olarkən qələmini sınayıb. "Günəş" jurnalının keçirdiyi müsabiqəyə qatılaraq birinci yerə sahiblənib. 2021-ci ildə Gənclər və İdman Nazirliyi tərəfindən keçirilən "Nizami Gəncəvi yaradıcılığı: mənəvi dəyərlər və vətənpərvərlik" mövzusunda esse müsabiqəsində yenə birinci, 2021-ci ildə Təhsil Nazirliyi Uşaq-Gənclər İnkişaf Mərkəzinin təşkilatçılığı ilə keçirilən "Əziz Şuşa, sən azadsan!" adlı beynəlxalq yaradıcılıq müsabiqəsində ikinci, 2022-ci ildə Davam Gənclər Hərəkatının təşkilatçılığı ilə keçirilən "Qalib Azərbaycan xalqı!" adlı esse müsabiqəsində üçüncü yerə layiq görülüb.

Xalqımızın söz sənətinə, mənəvi dünyamıza olduqca dahi şəxsiyyətlər bəxş etdiyini qeyd edən gənc filoloq deyir: "Çalışıram ki, imzalar içində mənim də imzam olsun".

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

**● Tarix necə varsa**

# İkinci Qarabağ müharibəsinin yaddaqalan anları

## Hərbçilər söz vermişdilər ki...



Hələ 44 günlük Vətən müharibəsi başlamazdan əvvəl tez-tez cəbhə xəttinə olan ezamiyyətlərimiz zamanı ön mövqelərdə dayanan hərbçilərlə görüşüb söhbət edirdik. Onlarla daha çox illərdən bəri erməni işğalında qalmış torpaqlarımızın azad ediləcəyi gündən, gələcək döyüşlərdən danışırdıq.

Üz-gözündən qəhrəmanlıq yağan zabit və əsgərlərimiz qəyiyyətlə deyirdilər ki, əgər torpaqlarımızın azadlığı uğrunda müharibə başlayarsa, erməni qəsbkarlarını məğlubiyyətə uğradacaqlar. Nəyin bahasına olursa-olsun, ərazilərimizi erməni işğalçılarından azad edəcəklər. Daim ürəklərini göynədən, ağrıdan şəhidlərin qisasını düşməndə qoymayacaqlar. Səngərlərdə başlarının üstündən asdıqları üçrəngli bayrağımızı uğurlu döyüşlərdən sonra böyük sevinc içində Qarabağda dalğalandıracaqlar. Hərbçilərimizdən qürur dolu bu sözləri eşitdikcə ürəyimiz dağa dönürdü. İnanırdıq ki, onlar verdikləri sözə mütləq əməl edəcəklər.

Düşmənin törətdiyi təxribat nəticəsində 27 sentyabr 2020-ci ildə Vətən müharibəsi başladı. Azərbaycan Ordusunun vətənpərvər, torpağına ürəkdən bağlı olan gənc zabit və əsgərləri yurdumuzun azadlığı uğrunda döyüşlərə atıldılar. Əks-hücum əməliyyatlarında böyük hünər göstərərək erməni işğalçılarına sarsıdıcı zərbələr endirdilər. Düşmən bu cür güclü əks-hücumlar qarşısında tab gətirə bilməyərək geri çəkildi.

Azərbaycan əsgəri müharibə başlamazdan əvvəl verdiyi sözə, içdiyi hərbi anda sadiq qalaraq torpaqlarımızın azadlığı uğrunda cəsarətlə vuruşdu. Ordumuzun şəxsi heyəti 44 gün ərzində Azərbaycan xalqına qələbə sevinci yaşatdı. Hərbçilərimiz öz müqəddəs vəzifələrini yüksək səviyyədə yerinə yetirdilər. Səngərlərdə başlarının üstündən asıb saxladıqları üçrəngli bayrağımızı böyük vüqarla həm mədəniyyət beşiyimiz olan Şuşada, həm də işğaldan azad etdikləri başqa şəhər və kəndlərimizdə dalğalandırdılar.

## Bayrağımız - qürurumuz, şərəfimiz...

Üçrəngli bayrağımız hamımızın, hər birimizin qüruru və şərəfidir. Buna görə də onu daim başımızın üstündən asır, qarşısında diz çökür, öpüb gözümüzün üstünə qoyuruq.

Qarabağ uğrunda döyüşlər başlanan gündən ordu hissələrinə dəstəyini nümayiş etdirən gənc vətənpərvər oğul və qızlarımız şəhərimizin küçələrini üçrəngli bayrağımızla, qələbəyə çağıran plakat və şüarlarla bəzədilər. Maşınların üstündə, marketlərin, kafe və restoranların, müəssisələrin qarşısında, binaların eyvanlarında üçrəngli bayrağımız dalğalandı. Bayraq qələbəmizin simvoluna çevrilmişdi. Kiçikyaşlı uşaqlar da fərəhlə, gülə-gülə, sevinə-sevinə küçələrdə əllərində bayraq gəzdirirdilər.

Gənclər və İdman Nazirliyi AFFA ilə birlikdə paytaxt sakinlərinə 1000-dən artıq bayraq, "Biz bir yerdə güclüyük!" sözləri yazılmış gödəkçələr hədiyyə etmişdi. Bütün bunlar çox qürurverici və sevindirici idi. Rəhbər-xalq-ordu birliyinə, qələbəmizə gedən yollar üzümüzə geniş açılmışdı. Müharibənin başladığı ilk günlərdən inanırdıq ki, şəhərlərimizin küçələrində qaldırılan bu bayraqlar yaxın vaxtlarda işğaldan azad olunacaq ərazilərdə də əzəmətlə dalğalanacaq.

Şükürlər olsun ki, 44 gün davam edən uğurlu döyüşlərdən sonra ümidlərimiz çiçək açdı, arzularımız ünvanına yetişdi. Bayrağımız Azərbaycanın cəsur zabit və gənc əsgərlərinin qəhrəmanlığı sayəsində bir-birinin ardınca azad olunan Cəbrayılda, Füzulidə, Zəngilanda, Qubadlıda, Şuşada, Ağdamda, Kəlbəcərdə, Laçında və başqa bölgələrdə dalğalandı.

## Xalq ordusuna yurdunun xilaskarı kimi baxırdı

Vətən müharibəsinin ilk günlərini yaşayırdıq. Həmin günlər hərbi hissələrdən birinə ezam olunmuşduq. Burada böyük canlanma var idi. Ehtiyatdan çağırılan zabit və əsgərlər bu hərbi hissədə formalaşır və bölüşdürülürdü. Cəbhə xəttinə də elə buradan yola salınırdı.

Döyüşə gedən zabit və əsgərlərin üzü gülürdü. Hiss olunurdu ki, onlar erməni işğalçıları ilə vuruşmağa cəsarətlə, hünərlə gedirlər. Gedirlər ki, torpaqlarımızın azadlığı uğrunda döyüşsünlər, yurdumuzu erməni qəsbkarlarından azad etsinlər, şəhidlərimizin intiqamını alsınlar.

Döyüşlərə yollanacaq zabit və əsgərlərin qarşısında çıxış etmək, onları sabahkı savaşlara ruhlandırmaq üçün sənət adamları da hərbi hissəyə gəlirdilər. Ürəyinin hökmü ilə buraya ayaq basan müğənnilər vətənpərvərlik mahnıları oxuyur, hərbi marşlar ifa edirdilər. Hərbi hissənin geniş sıra meydanından ətrafa hissləri coşduran şən, şaqraq mahnıların səsi yayılırdı. Səsində qələbə əzmi, döyüş ovqatı olan Xalq artisti Nurəddin Mehdixanlı da bu sənət adamlarının ön sıralarındaydı. Hərbi hissəyə təkcə sənət adamları deyil, Birinci Qarabağ müharibəsinin veteranları da gəlirdilər. Zamanında müharibənin hər üzünü görmüş veteranlar da zabit və əsgərlər qarşısında çıxış edir, onlara dəyərli məsləhət və tövsiyələr verirdilər.

Biz də bu qürurverici səhnələri seyr edəedə cəbhə xəttinə getmək üçün maşın gözləyirdik. Çox keçmədi ki, hərbi yük maşınının gəldiyi barədə məlumat verdilər. Vaxt itirmədən döyüşən oğulların yanına yola düşdük. Ön xəttə ehtiyatdan çağırılan zabit və əsgərlərlə bir yerdə getdik. Düşmənlə vuruşmaq üçün onları da bizim getdiyimiz istiqamətə göndərirdilər.

Yol uzunu ölkəmizin ikinci böyük şəhəri olan Gəncənin küçələrinin bayraqlarla, Vətənin müdafiəsinə çağıran şüar və plakatlarla bəzədildiyini gördük. Hər addımda qələbə ovqatı hiss olunurdu, zəfər əzmi duyulurdu. Yoldan hərbi maşınların keçdiyini görən şəhər sakinləri bir anlıq ayaq saxlayaraq əllərini başlarının üstündə yelləyərək zabit və əsgərlərlə salamlaşırdılar, onlara uğurlar arzulayırdılar. Qadınlar qollarını qoşalayıb göyə qaldıraraq hərbçilərimizin döyüşlərdən sağ-salamat və qələbə ilə dönmələri üçün Tanrıya dua edirdilər. Məktəbyaşlı uşaqlar bizə hərbi salam verirdilər. Hər addımda hiss olunurdu ki, xalqımız ordusunun yanındadır, hərbçilərə yurdumuzun xilaskarları kimi baxırlar.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

**● İstedadlarımız**

# Dünyanın yaddaş çempionu həmyerlimizdir

## Orxan İbadov intellektuallar arasında keçirilən beyin yarışından Vətənə qızıl medalla qayıdıb



Orxan İbadov Hindistanın Mumbay şəhərində keçirilən Dünya Yaddaş Çempionatında iki kateqoriyada birincilik, yəni qızıl medal qazanıb. O, bir saat ərzində 3412 rəqəmi sırayla düzgün yadda saxlayaraq yeni dünya rekorduna imza atıb və adını tarixə yazdırıb.

Azərbaycan təmsilçisi həmçinin 15 dəqiqə ərzində 146 üz, ad və soyadı yadda saxlayaraq bütün rəqiblərini qabaqlaya bilib. Həmyerlimiz 780 zəka sahibi arasında 4 kateqoriya üzrə gümüş, 2 bürünc medalla ən çox mükafat əldə edən yarışmaçı olub. Qeyd edək ki, bu nəticə ölkəmizin müstəqillik dövründə beynəlxalq intellektual yarışlarda qazanılan ən yüksək qələbədir.

Orxan hazırda Bakıda olduğundan görüşüb söhbətləşdik, belə səpkili müsabiqələrin tarixi ilə maraqlandıq. Bildirdi ki, yaddaş yarışlarının 32 illik tarixi var - 1991-ci ildən keçirilir, təşəbbüskarı ingilis beyin alimi Toni Buzandır. Öyrəndik ki, o, müsabiqəni bir marketinq kampaniyası, həm də hərəkat kimi başladıb, sonradan ildə bir dəfə dünya yaddaş çempionatı müstəvisində davam etdirib. "Memoriad"a tədricən sürətlə oxu və digər kateqoriyalar da əlavə olunub: "Hazırda isə 10 kateqoriya - "15 dəqiqə Sözlər", "30 dəqiqə Binary (0 və 1 rəqəmlərinin qarışığı)", "5 dəqiqə Rəqəmlər", "15 dəqiqə Üzlər və Adlar", "5 dəqiqə Süni tarixi hadisələr", "60 dəqiqə Oyun kartları", "Səsli rəqəmlər" "5 dəqiqə Şəkillər", "60 dəqiqə Rəqəmlər", "1 qutu sürətli oyun kartları" üzrə keçirilir. Yarışlara qoşulanda düşünməzdim ki, belə nailiyyətlərə imza ata bilərəm. Qaliblərə həsədlə baxır, onların əlçatmaz görünən nəticələrini heyranlıqla izləyirdim. İndiyə qədər yarışlara qatılmaqda ən ali hədəfim Azərbaycanı intellektual ölkə kimi tanıtmaq, adıçəkilən sahəyə qələbələrimlə töhfə vermək olub. Məhz bu səbəbdən də bir neçə ölkədən onların adından çıxış etməyimlə bağlı gələn təkliflərdən düşünmədən imtina etmişəm, bütün yarışlara yalnız Azərbaycan bayrağı altında çıxmışam. Xüsusilə sonuncu yarışda müxtəlif ölkələrin təmsilçilərini geridə qoymaqla Azərbaycanın adını ön sıraya yazdırdım və məhz intellektual xalq olduğumuzu, Azərbaycan insanının öhdəsindən gəlməyi bacarmadığı bir işin olmadığını sübuta yetirdim".

Orxan İbadov 2017-ci ildən respublikamızı nüfuzlu beynəlxalq yaddaş və beyin yarışlarında müstəqil qaydada təmsil edir. İlk qələbəsini həmin ilin noyabrında İstanbulda keçirilən "Memoriad" yarışlarında qazanıb. Sonrakı illərdə Filippində, Danimarkada, Avstriyada, Almaniyada, Misirdə, Fransada və onlayn formatda keçirilən yarışlarda yüksək nəticələr qazanıb. Azərbaycanda, İspaniyada, Tailandda və digər ölkələrdə onlayn şirkətlərin yaradılması, internet üzərindən ticarət, zehni inkişaf, yaddaş və beyindən səmərəli istifadə ilə bağlı digər mövzularda təlimlər keçir. 6 ay Bakıda, 4 ay Barselona, 2 ay Banqkokda yaşayır: "Universitet illərindən beyinin necə işləməsi mənim üçün çox maraqlı idi. Oxumuşdum ki, adi insanlar öz beyininin 1, Aristotel və digər dahilər 3-5 faizindən bəhrələnirlər. Amma heç bir praktiki yol göstərilmirdi. Yaddaş yarışları barədə 2007-ci ildən məlumatlıyam. Öz potensialımı, imkanlarımı, gələcək müsabiqələrdə iştirak bacarığımı dəyərləndirməkdən ötrü beyinin fəaliyyətini araşdırmağa başladım. O zaman bu sahənin mütəxəssisi türkiyəli Məlik Duyar sosial şəbəkələrdə şou-proqram aparırdı. Gedib onun kurslarında iştirak etdim. Öyrəndim ki, insan beyini yadda saxlamaq üçün yaradılmayıb, təbii ki, yaddaş funksiyası var, amma zəifdir, əsas işi, vəzifəsi yaradıcılıqdır. Beyinin universitet kimi müxtəlif - yaddaş, oxumaq, intuisiya fakültələri var, siz hər bir şöbə üzərində işləyib onu gücləndirə bilərsiniz. İlk yarışımda İstanbulda "Memoriad"da 0 və 1 rəqəmləri qarışığında 1 qızıl, 2 gümüş medalla Türkiyə rekordu qırmışam və çempion olmuşam".

Müsahibim deyir ki, güclü yaddaşa malik olmaq üçün 4 şərt tələb olunur - düzgün qidalanma, idmanla davamlı məşğul olmaq, aktiv sosial həyat sürmək, yaddaş texnikalarından düzgün istifadə etmək.

O.İbadovun sözlərinə görə, "60 dəqiqə Rəqəmlər" yarışmanın ən ağır kateqoriyalarındandır: "Həmin gün tam formada idim, var gücümlə rəqəmləri yadda saxlamağa başladım. Bir saata 3720 rəqəmi zehnimə ötürüb yerinə qoya bildim. Ekran açılanda gördüm ki, xalım 3412-dir. Qeyd edim ki, bir səhv 20-40 xal aparır. Yazdığım 3720 rəqəmdən təxminən 10-u səhv çıxmışdı, bu da 300-ə yaxın xal itkisi idi. Kefsiz şəkildə səhvlərimi yoxlamağa başlamışdım ki, ətrafıma xeyli insanın toplaşdığını gördüm. Hamı məni təbrik edirdi. Elə bu andaca bildirdilər ki, dünya rekordunu təzələyərək tarixə düşmüşəm. Özü də necə? Bundanqabaqkı rekord 3238 xalla üçqat dünya çempionu Aleks Mullenə məxsus idi. Bir qayda olaraq, rekordlar cüzi fərqlə (15-20 xalla) qırılır, mənsə 174 düzgün daha çox rəqəm yadda saxlayıb bundan sonra yenilənməsi çətin bir rekorda imza atmışdım. Yarışdan sonra bəzi təhlilçilər bu xalla dünya rekordunu 35 illik dünya yaddaş yarışları tarixinin ən əlamətdar hadisələrindən biri adlandırdılar. Hesab edirəm ki, gələcəkdə yarışlarda iştirak etsəm, bu rekordu 3700-4000 rəqəmə qədər yüksəldə bilərəm".

Orxan İbadov Bakıda doğulub. 5 yaşında Əhmədli qəsəbəsindəki 171 saylı orta məktəbə gedib. 2001-ci ildə 15 yaşında 642 balla BDU-nun Hüquq fakültəsinə daxil olub. 2005-ci ildə bakalavr, 2007-ci ildə magistr mərhələsini bitirib. Öncə vəkil kimi fəaliyyət göstərib. Sonra onlayn marketinqi öyrənib, evdən internet marketinqi ilə məşğul olub.

Həmsöhbətimizdən beynəlxalq yarışlarda ölkəmizə, təmsilçilərimizə qarşı qərəz hallarının olub-olmaması barədə də soruşduq. Cavab verdi ki, belə hallar da yox deyil, elə sonuncu Mumbay çempionatında da:

- "10-cu kateqoriya -"1 qutu sürətli oyun kartları" yarışının sonu idi. Təvazökarlıqdan kənar olsa da, bu kateqoriyada dünyadakı ən güclü üç yarışandan biri sayılıram. Cəmi 3 nəfər 52 kartdan ibarət bir qutunu sırayla 13 saniyəyə yadda saxlaya bilir. Bu həm də ən sevdiyim kateqoriyadır. Yüksək ritm əldə etmişdim, beyinim olduqca itiydi, arxa sıradakı maneələr də yoxuydu. Təşkilatçılar statistikadakı texniki problemləri əsas gətirərək son kateqoriyanın başlanmasını 5 saat uzatdılar. Beləliklə, 14.00-da start verilməli yarış axşam 19.00-da başladı. Nə qədər qəribə olsa da, yanıma gənc yaşda təcrübəsiz hakimlər yerləşdirilmişdi, halbuki favoritlərin arxasında yalnız təcrübəli hakimlər dayanmalıdır. Bu kateqoriyada hər biri 5 dəqiqə olmaqla 2 cəhd verilir. Bu müddət ərzində istədiyin vaxt düyməni basıb kartları yadda saxlaya bilərsən. Vaxtın bitməsinə 4 dəqiqə qalmış düyməni basıb sürətlə kartları yadda saxlamağa başladım. 2 saniyə keçmişdi ki, arxamda dayanan hakimlərdən biri baxmayaraq ki, onlara yerlərindən tərpənmək qadağandır, sürətlə yanımdakı rəqibimin yanına gəldi və düz bir metrliyimdə fiziki kartları sürətlə qarışdırmağa başladı. Şoka düşdüm təbii ki, çünki bunu heç gözləmirdim. Amma çətinliklə özümü cilovlayıb davam etdim. Toplam 10 saniyə keçmişdi ki, yanımdakı alman rəqibim əlini göyə qaldıraraq zalda səs olduğunu bildirdi. Bu məqamda diqqətim tamamilə dağıldı və yarışı dayandırdım. Oxşar vəziyyət ikinci cəhddə də təkrarlandı. Beləliklə, yarışdığım günün sonuncu kateqoriyasında - ən sevdiyim kateqoriyada, demək olar ki, normal şəraitdə yarışmaq imkanı verilmədi. Bununla belə yarışı uğurla bitirməyi bacardım.

*Qurban MƏMMƏDOV*

**● Xəbər**

# İkinci "Yüksəliş" müsabiqəsinin qalibi mentorluq proqramı çərçivəsində tələbələrlə görüşüb

"Yüksəliş" müsabiqəsi qalibinin mentorluq proqramı çərçivəsində tələbələrlə növbəti görüşü keçirilib.

İkinci "Yüksəliş" müsabiqəsinin qalibi Şöhrət İsazadə proqrama qəbul olunan Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin tələbələri Sadiq Əlizadə və Xalidə Cəfərova, Bakı Ali Neft Məktəbinin tələbəsi Əzim Əzimovla tanışlıq görüşü keçirib. Mentor Şöhrət İsazadə tələbələrə peşə fəaliyyətində ilkin addımların atılması barədə tövsiyə verib, onlara bilik və bacarıqlarının inkişafı üçün mentorluq proqramının əhəmiyyətini vurğulayıb. Şöhrət İsazadə mentilərinə ixtisas üzrə peşəkar kadr olmaq yolunda hədəflərini müəyyənləşdirmələri barədə tapşırıq verib. O, mentorluq proqramının gələcək gedişatı ilə bağlı atılacaq addımları bölüşüb. Tələbələr isə öz növbəsində ixtisas artımı istiqamətində yararlı olacaq layihələrdə iştirak etməkdə maraqlı olduqlarını qeyd edib, mentorluq proqramı çərçivəsində yaradılan imkana və səmimi görüşə görə təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, mentorluq proqramının əsas məqsədi III və IV kurs tələbələrinin "Yüksəliş" müsabiqəsinin qaliblərinin idarəçilik təcrübəsindən yararlanmasını və gələcək karyera fəaliyyəti ilə bağlı tövsiyələr almasını təmin etməkdir. Proqramın sonunda "Yüksəliş" müsabiqəsinin qalibləri tərəfindən tələbələrə tövsiyə məktubu təqdim ediləcək.



"Yüksəliş" müsabiqəsinin təşəbbüsü ilə start götürən proqrama 65 tələbə qəbul olunub. Seçim tələbələrin bioqrafiyası və motivasiya məktublarına əsasən həyata keçirilib. Proqramın 2024-cü ilin iyun ayının sonunadək davam etməsi gözlənilir.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Prezident İlham Əliyevin 2019-cu il 26 iyul tarixli sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi intellektual səviyyəsi və idarəçilik bacarıqları yüksək olan perspektivli rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı, kadr ehtiyatı bankına daxiledilmə və 20 min manat dəyərində pul mükafatı gözləyir.

# Dünya Yeni ili necə qarşılayır



Yeni il gəlir. Çoxlarımızın uşaqlıqdan bəri sevdiyimiz, səbirsizliklə gözlədiyimiz, xüsusi atributları olan bu bayram yeni başlanğıcı simvolizə edir. Fərziyyələrə görə, Yeni il bayramını ilk dəfə qədim çinlilər keçiriblər. Ümumiyyətlə, il dəyişimini qeyd etmək adəti isə ilk dəfə Qədim Mesopotamiyada yaranıb. Bayramı ilk dəfə kimin qeyd etməsindən asılı olmayaraq, Yeni ilin qarşılanması, demək olar ki, bir çox xalqın ənənəvi bayramına çevrilib.

## Yeni il bayramı Milad bayramı ilə səhv salınır

Yeni il bayramını xristian bayramı kimi qəbul edib, dekabrın son həftəsində qeyd edilən Milad bayramı ilə qarışdıranlar da az deyil.

Dekabrın 24-dən 25-nə keçən gecə qeyd edilən Milad xristianlar tərəfindən "Xilaskar Məsih" kimi qəbul edilən İsa Məsihin doğum gününün ənənəvi olaraq keçirildiyi bayramdır. Milad bayramının əsasını qədim zamanlardan bəri qeyd olunan bütpərəst və Roma qış bayramları olan Yule və Saturnaliya təşkil edir.

Roma imperiyası dövründə xristianlar bütpərəst bayramları dini bayramlar kimi qeyd etməyə başladılar ki, yerli əhali bu dini daha rahat qəbul etsin. Əslində, dini və tarixi mənbələrdə İsa Məsihin dəqiq doğum tarixi məlum deyil.

Dekabrın 31-i keçirilən Yeni il gecəsi isə müəyyən bir dinin bayramı deyil, bir ilin sonu və sonrakı ilin başlanğıcının qeyd edildiyi tarixdır.

## Santa Klaus, Noel baba, Müqəddəs Vasili

Yeni il xüsusi atributlara sahibdır. Onun rəmzlərindən biri olan Şaxta babanı müxtəlif ölkələrdə fərqli adlandırırlar. O, ABŞ, İngiltərə və Avstraliyada Santa Klaus, Rusiyada Ded Moroz, Türkiyədə Noel baba, Avstriyada Sivestr, Böyük Britaniyada Miladi baba, İspaniyada və Meksikada Papa Noel, Fransada Le Pere Noel, Rumıniyada Moş Carile, Hollandiyada Sinte-Klaas, Yunanıstanda isə Müqəddəs Vasili adlanır.

Şaxta babanın vətəni Finlandiya ərazisində yerləşən Laplandiya hesab edilir. Burada Rovaniemi şəhərinin yaxınlığında qədim "Santa Klaus kəndi" yerləşir. Kəndə girəndə Santanın evini, qonaqları qarşılayan cırtdanları və maral qoşqusunu görmək olar. Yeni il bayramı ərəfəsində kəndə minlərlə turist axın edir. Santanın kiçik, amma gözəlliyi ilə insanı heyran edən, cizgi filmlərindəki evlərə bənzəyən taxta evinin qarşısına maraqlı sözlər yazılıb: "Yeni il gecəsi arzu tutmağı unutmayın. Birdən onlar gerçəkləşdi. Mən möcüzələrə inanıram, siz də inanın. Mən də arzu diləyəcəm. Tanrıdan sizin arzularınızın həyata keçməsini istəyəcəm".

Şaxta babanın geyimi də birdən-birə yaranmayıb. XIX əsrin əvvəllərində hollandlar onu hündürboy, plaş geyinən, qəlyan çəkən və uşaqlara bacadan hədiyyələr atan şəkildə təsvir edirdilər. Elə həmin əsrin sonunda ona xəzlə haşiyələnmiş qırmızı kürk geyindirirlər. 1860-cı ildə amerikalı rəssam Tomas Nayt Şaxta babanı saqqalla bəzəyir, tezliklə isə ingilis Tenniel yumşaq qəlbli gombul obrazını yaradır.

Şaxta babanın nəvəsi Qar qız isə Rusiyada yaranıb. Qar qızın peyda olması qədim rus folklor ənənələrinə gedib çıxır. İvan Kupala bayramında ocağın üstündən tullanaraq əriyən Qar qız qış və yayın əvəzlənməsinin rəmzidir. N.A.Rimski-Korsakovun "Snequroçka" operasından sonra isə bu nağıl personajı daha geniş şöhrət tapır.

## Şam ağacı - həyatın rəmzi

Yeni il bayramını al-əlvan işıqlarla, rəngli oyuncaqlarla bəzədilmiş şam ağacsız təsəvvür etmək qeyri-mümkündür. O, həyat və yeni doğuluşun rəmzi kimi müqəddəs ağac hesab edilir. İlk zamanlar təbii ağaclardan istifadə edilsə də, sonralar süni ağaclarla əvəzlənib.

Çoxları şam ağaclarını bəzəmək ənənəsini xristian dini ilə əlaqələndirirlər. Əslində isə, həyat rəmzi olan bu ağacın bəzənməsinin tarixi xristianlıqdan əvvəl başlayıb və ümumiyyətlə, hansısa bir dinlə bağlı deyil. Hələ miladdan əvvəl qədim Misirin sakinləri dekabrın ən qısa günlərində yaşıl palma ağaclarını evlərinə gətirirdilər. Bu, həyatın ölüm üzərində qələbəsinin rəmzi idi. Romalılar isə Əkin allahının şərəfinə evlərini yarpaqlarla bəzəyirdilər. Druidlər palıd budaqlarına qızıl almalar asıb qış bayramını qeyd edirdilər. Qədim avropalılar şamın yaşıl budaqlarına məhsuldarlıq və firavanlığın simvolu kimi yumurta asırdılar. Belə bəzədilmiş ağacın şər qüvvələrini qovduğu güman edilirdi. Şamın budaqlarını həm də evin qapısından asırdılar.

Yeni ilin şam ağacı haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi şam ağacları rəngli kağızlar, meyvələr və şirniyyatlarla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Yeni dünyaya, Amerikaya bu rəmzi burada məskunlaşan almanlar gətiriblər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə şam ağacının fənərlərinin yandırılması mərasimi keçirilib. O vaxtdan hər il Yeni il bayramında Ağ Evin qarşısında bu mərasim keçirilir. Beləcə, şam ağacı bütün dünyada məşhurlaşıb.

## 2024-cü il ilk olaraq Sakit Okean, Tonqa, Kribati adalarına qədəm qoyacaq

Yeni ili hər bir xalq öz adət-ənənəsinə uyğun qarşılayır. Bəziləri növbəti ilin düşərli olması üçün Yeni ili toplu şəkildə qarşılayır, digərləri isə süfrədəki yeməklərin uğur gətirəcəyinə inanırlar. Bəzi mədəniyyətlərə əsasən isə, yeni ili qarşılayarkən insanların geyimləri və yaxud evdəki əşyalar da növbəti ilin aqibətini müəyyən edir.

Yer kürəsi müxtəlif saat qurşaqlarına bölündüyünə görə, Yeni ili bütün dünya eyni saatda qarşılamır. Əgər təyyarə ilə dünyanın müxtəlif paralellərinə səyahət etsək, bir gündə Yeni il atəşfəşanlığını 24 dəfə görərik. 2024-cü ili ilk olaraq Sakit Okean, Tonqa, Kribati adalarının sakinləri qarşılayacaq. Dekabrın 31-i bu adalarda bizim vaxtla səhər saat 10:00-da Yeni il başlayacaq. Yeni il ən gec ABŞ-nin Beyker və Haulend adalarında qeyd ediləcək. Hər iki adada Yeni il yanvarın 1-i saat 16:00-dan etibarən başlayacaq.



Yeni ili ən çox qarşılayan ölkə isə Rusiyadır. Ərazisinə görə dünyanın ən böyük ölkəsi olan Rusiya bir neçə saat qurşağında yerləşir. Ona görə də rusiyalılar gün ərzində bir neçə dəfə köhnə illə vidalaşırlar. Yeni ili qarşıladığımız dəqiqədə harada olmağımızın, nə dinləməyimizin, ən əsası isə özümüzü hansı əhvalda hiss etməyimizin də əhəmiyyətli olduğu düşünülür.

ABŞ-də milyonlarla insan Yeni il gecəsi Nyu Yorkun Tayms meydanına toplaşaraq büllur şarın aşağı endirilməsini izləyir. Bu, 100 ildən artıq davam edən ənənədir. Havada asılı qalan nəhəng şarın 00:00-da möhtəşəm şəkildə işıqlandırılmasını təmin etmək üçün ciddi əmək sərf olunur. Bu ölkədə Yeni ili qarşılamaq üçün uğurlu hesab edildiyinə görə qaragöz lobya yemək və "Auld Lang Syne" mahnısını oxumaq ənənə halını alıb. Ötən günlərin xatirələrindən bəhs edən mahnının sözləri Robert Burns adlı şotland şairə məxsusdur. Amerikalılar düşünürlər ki, yeni ildə həmrəy olmaq üçün keçmiş günləri xoş əhvalla yola salmaq lazımdır.

## Dalğalara səpilən gül ləçəkləri

Yeni il Cənubi Amerika ölkələrində də maraqlı adət-ənənələrlə qeyd edilir. Argentinada sonuncu iş günündə pəncərələrdən küçələrə köhnə təqvimlər, blanklar və cürbəcür kağızlar atılır. Həmin gün şəhərin xüsusilə biznes mərkəzləri yerləşən ərazilərində səkilər sanki kağızlarla döşənmiş olur. Deyilənlərə görə, hətta bir dəfə yerli nəşrlərdən birinin əməkdaşları qəzetin bütün əvvəlki nömrələrini pəncərədən atıb, arxivi yox ediblər.

Braziliyada isə bayramı qarşılamaq üçün toplardan atəş açılır. Atəş səsi eşidən kimi hər kəs bir-birini qucaqlayıb öpür. Braziliyalılar bununla bütün ilin xoşbəxt keçəcəyinə inanırlar. Yeni il ərəfəsində həmçinin okean çimərliyində qumların üzərində minlərlə şam yandırılır, dalğaların üzərinə gül ləçəkləri səpilir, növbəti ilin uğurlu keçməsi üçün dua edilir.

Kolumbiya sakinləri isə Yeni il anlayışını səyahətlə assosiasiya edirlər. Onların fikrincə, ötən 364 gün ərzində nə qədər çox səyahət etmisənsə, deməli, ilin o qədər uğurlu keçib. Ona görə də Kolumbiyada insanlar köhnə ilin son günündə evlərin ətrafında boş çamadanlar gəzdirir, dövrə vururlar. Bununla da sonrakı ildə daha çox səyahət edəcəklərinə inanırlar.

## 12 ayı simvolizə edən 12 ədəd üzüm

Böyük Britaniyada Yeni ildə evi iynəyarpaqlı və ağ bağamburc budaqları ilə bəzəyirlər. Onlar Miladda kəsdikləri bayram ağacını ilboyu saxlayaraq tamamilə qurudurlar. İngilislər isə Yeni ilin ilk saatlarında evə birinci gələcək qonağı səbirsizliklə gözləyirlər. İnanca görə, həmin qonaq ilin necə keçəcəyini müəyyən edir. Bu qonağın qadın, eləcə də sarışın və əsmər kişi olması arzuedilən deyil. Böyük Britaniyada ən uğurlu qonaq kürən kişi hesab olunur. Məhz bu adət-ənənəyə görə ingilislər Yeni ili adətən evdə qarşılayırlar. Onu da qeyd edək ki, ilk qonağın özü ilə şirin çörək, viski və kömür gətirməsi önəmli hesab edilir. Ev sahibləri qonağın gətirdiyi kömürü ocağa ataraq bunun sayəsində yeni ildə ocaqlarının isti, ailələrinin daha mehriban olacağına inanırlar.

İspaniyada Yeni il gecəsi 12 ədəd üzüm yemək adəti var. İspanlar hər üzüm dənəsinin növbəti ilin bir ayı üçün uğur gətirdiyinə inanırlar. Madrid və Barselona kimi daha böyük şəhərlərdə isə insanlar üzümlərini birlikdə yemək üçün əsas meydanlara toplaşır və Yeni ili orada qarşılayırlar.

İtalyanların Yeni ili bərkdən qışqıraraq qarşılamaq adətləri var. Ucadan və emosional danışmaq bu xalq üçün adi hal olsa da, bayram günü bu xüsusiyyətlərini daha da qabarıq nümayiş etdirirlər. Urbaniya şəhərində hər Yeni il zamanı təşkil olunmuş Bafana adlı şənlikdə böyüklər cadugər paltarı geyinərək uşaqlara hədiyyə paylayırlar. Həmçinin Yeni il ərəfəsində Roma küçələrində köhnə ev əşyalarına rast gəlmək mümkündür. Onlar növbəti ili qarşılamadan öncə evdəki köhnə əşyaları pəncərədən atırlar və beləcə Yeni il astanasında bütün artıq "yük"lərdən azad olurlar.

## Yaponların "qızıl həftə"si

Yeni ili ən böyük bayram hesab edən yaponlar onu qarşılayarkən pis ruhların qovulması, xoşbəxtliyin, şansın gəlməsi üçün qapılarının önünə ip asırlar. Onlar Yeni il ərəfəsini "qızıl həftə" adlandırırlar. Yaponiyada bayram simvolu küknar və bambukun calağından əldə olunan Kadomaçu ağacı hesab olunur. Ölkədə təzə il daxil olan zaman məbədlərdə 108 dəfə zəng çalınır. İnanca görə, həmin zənglər insanların mənfi xüsusiyyətlərini aradan qaldırır, pislikləri yaxşılıqlarla əvəz edir. Yeni ilin ilk dəqiqələrində yaponlar gülməyə başlayırlar və inanırlar ki, bu gülüş növbəti 12 ayda onlara uğur gətirəcək. Onlar həmçinin avar çəkməklə xoşbəxt olacaqlarına inandıqları üçün əsas Yeni il hədiyyəsinin avar olduğunu düşünürlər.

Çində isə bayram ərəfəsində insanların bir-birlərinə hədiyyə verməsi adət halını alıb. Çinlilər növbəti ilin şans və bərəkət içində keçməsi üçün yeni əşyalar alır, evlərini çiçəklərlə bəzəyirlər. Saat 00:00-da yaxınların bir arada olması, növbəti ilə deyib-gülərək qədəm qoymaları uğurlu hesab edilir.

Yeni il deyəndə ağıla ilk gələn ölkələr sırasında həm də Rusiya, Belarus və Ukrayna var. Şaxtalı havaları ilə məşhurlaşan bu ölkələr maraqlı Yeni il tədbirləri ilə fərqlənirlər. Həmin günlərdə ruslar, ukraynalılar və belaruslar ənənəvi Yeni il yeməyi olan kişmişli şirin sıyıq və fəsəli bişirirlər. Bu xalqların nümayəndələri düşünürlər ki, Yeni il süfrəsi nə qədər zəngin olarsa, bütün ilboyu evlərində belə bolluq müşahidə ediləcək. Onlar həmçinin bayram ərəfəsində bütün borcları ödəməyə çalışır, küsülüləri barışdırır və biri-birilərindən üzr istəyirlər. Yeni il gecəsində hər kəs böyük meydanlarda bəzədilmiş Yeni il ağaclarının ətrafına toplaşır və atəşfəşanlığı seyr edirlər.

## Estoniyada inanırlar ki, 7 növ yemək yeyən 7 insan gücünə sahib olacaq

Danimarkalılar köhnə boşqab və bardaqları yaxınlarının qapısına atır, stuldan tullanmaqla pis ruhların getdiyinə və yeni ilin onlara uğur gətirəcəyinə inanırlar. Cənubi Afrikada da yerli əhali Yeni ilin şans və bərəkət gətirməsi üçün köhnə ev əşyalarını pəncərədən atır. Finlandiyada ərimiş metalı suya tökürlər. Əldə edilən fiqura baxaraq gələn ili proqnozlaşdırmağa çalışırlar. Məsələn, ürək və dairə evliliyə işarədir. Panamada xüsusi hazırlanan kuklalar Yeni il tonqalında yandırılır. Köhnə ili təmsil edən kuklanın yandırılması pis ruhların uzaqlaşdırılması və yeni başlanğıc deməkdir.

Filippində masada olan hər şeyin yuvarlaq olmasına diqqət edilir. Çünki yumru forma pulu simvolizə edir. Bu isə zənginlik əlamətidir. Estoniyada isə inanırlar ki, bayram günü bir insan 7 növ yemək yesə, 7 nəfərin gücünə sahib olacaq. Peruda Yeni ildə Takanakuy festivalı keçirilir. Bayram gecəsi insanlar bir-birini yumruqlayır, bununla Yeni ilə daha rahat girəcəklərini düşünürlər. Rumıniyada qəpikləri çaya atır və bunun uğur gətirəcəyinə inanırlar. Boliviyada isə pulu şirniyyatların içərisinə qoyurlar. Bu şirniyyat kimə düşsə, növbəti ilin onun üçün daha uğurlu olacağına inanırlar. Çilidə insanlar yaxınlarının məzarı başında gecələyir, sibirlilər yeni ildə buzlu suya girirlər.

Yeni ilin gəlişi Azərbaycanda da bayram əhvali-ruhiyyəsi ilə qarşılanır. Xalqımız bu bayrama həvəslə hazırlaşır, süfrələr açır, qonaq qəbul edir. Şəhərlərin mərkəzi küçələri Yeni ilə uyğun bəzədilir, hündür bəzəkli şam ağacları qurulur. Bakının Fəvvarələr meydanında "Soyuq əllər, isti ürək" yarmarkası keçirilir. Yeni ilin ölkəmizdə bayram kimi qeyd olunması həm də insanların yeni uğurlara, nailiyyətlərə çatacaqlarına olan xoş inamlarından doğur.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# Şəhid övladları üçün həyata keçirilən "Onlar bizə əmanətdir" layihəsi davam edir




Xeyirxah əməllərlə vətəndaşlarımızın yanında olan, minlərlə insana maddi və mənəvi dəstək göstərən Qırmızı Ürəklər Fondunun təşəbbüsü ilə "Onlar bizə əmanətdir" layihəsi davam edir. Layihənin məqsədi Azərbaycanın bütövlüyü uğrunda canından keçən şəhid övladlarına mənəvi dəstək göstərmək, onlara cəmiyyətin diqqət və qayğısını hiss etdirməkdir.

31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il ərəfəsində həyata keçirilən layihə bu dəfə "Kapital Bank", "Bestcomp Group", "PASHA Pay", "PAŞA Sığorta", "PASHA Investments", "PAŞA Technology", "PASHA Life" və "PAŞA Bank"ın dəstəyi ilə baş tutdu. Layihə çərçivəsində "Azərpoçt"un dəstəyi ilə 16 yaşınadək olan 1796 nəfər şəhid övladına bayram hədiyyələri təqdim ediləcək. Paytaxt Bakı ilə yanaşı, ölkənin regionlarını da əhatə edən layihədə fondun könüllüləri iştirak edir, siyahıların hazırlanmasında isə yerli icra hakimiyyəti orqanları dəstək olub.

"Red Hearts" - Qırmızı Ürəklər Fondu 2019-cu ildə "Kapital Bank"ın könüllü əməkdaşlarının təşəbbüsü ilə yaradılıb. Hazırda fond kimi fəaliyyətini davam etdirən təşkilat əsasən uşaq evlərinə, sığınacaqlara və digər ehtiyacı olanlara yardımlar edir. **https://redhearts.az** saytına daxil olmaqla fondun fəaliyyəti, gördüyü xeyirxah işlər, gələcək planları və digər maraqlı məlumatları əldə etmək, həmçinin "Cəmiyyət" bölməsinə daxil olub ianələr etmək olar.



# Bu il dünyada əhalinin sayı 75 milyon nəfər artıb

**ABŞ Siyahıyaalma Bürosunun proqnozuna görə, Yeni il günü dünya əhalisinin sayı səkkiz milyard nəfəri ötəcək. "Trend" xəbər verir ki, qurumun məlumatına əsasən, bu il dünyada əhalinin sayı 75 milyon nəfər artıb.**

2023-cü ildə dünya əhalisinin artım tempi bir faizdən az olub. Həmçinin ABŞ əhalisi 1,7 milyon nəfər çoxalıb və yeni il günü orada əhalinin təxminən 336 milyon nəfərə çatacağı proqnozlaşdırılır.

2024-cü ilin əvvəlinə dünyada hər saniyədə 4,3 doğum və iki ölüm halı gözlənilir.

## B İ L D İ R İ Ş

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyəti tərəfindən 14.11.2023-cü il tarixdə elan edilmiş:**

- 110 kV-luq ikidövrəli "Şuşa YS - Xankəndi-1 YS" elektrik verilişi xəttinin tikintisi işləri;
- 110 kV-luq ikidövrəli "Şuşa YS - Xankəndi-1 YS" EVX-nin giriş-çıxış sxemi ilə "Xankəndi-2" YS-na qoşulması işləri;
- 110 kV-luq birdövrəli "Kəlbəcər YS - Həsənriz YS" elektrik verilişi xəttinin ikidövrəli yenidən qurulması işlərinin satın alınması üzrə açıq tender üsulu ilə keçirilən müsabiqələrdə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmiş və Tender komissiyasının qərarı ilə formal tələblərə cavab verən, ən aşağı qiymət təklif edən "Azərelektrik Tikinti Quraşdırma" MMC və "Elektrikquraşdırma" Müəssisəsi şirkətləri müsabiqələrin qalibləri müəyyən edilmişdir.
- Qalib gəlmiş təşkilatlarla müvafiq satınalma müqavilələri imzalanıb.

***Tender komissiyası***

# Dəyəri 20 min manatdan çox olan pirotexniki vasitə polis əməkdaşları tərəfindən götürülüb

Polis əməkdaşları yüksək səsyayıcı qabiliyyətə malik pirotexniki vasitələrin satışının qarşısının alınması istiqamətində nəzarət-profilaktik tədbirləri davam etdirirlər.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Sabunçu Rayon Polis İdarəsi əməkdaşlarının keçirdikləri tədbir nəticəsində pirotexniki, eləcə də yüksək səsyayıcı qabiliyyətə malik partlayıcı və tezalışan məmulatların satışını təşkil edən şəxs saxlanılıb. Ondan ümumi dəyəri 20 min manatdan çox olan müxtəlif növ pirotexniki vasitə aşkarlanaraq götürülüb.

Həmin şəxs barəsində qanunamüvafiq tədbir görülüb.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

"Azərbaycan" qəzeti redaksiyasının kollektivi iş yoldaşları Kəmalə Bayramovaya oğlu

**NİCATIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5270
Sifariş 3422

Qiyməti 40 qəpik